ŞUŞA BİZİM ƏYİLMƏZ RUHUMUZUN RƏMZİDİR

ALİ BAŞ KOMANDAN CƏNAB İLHAM ƏLİYEV

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR

HEYDƏR ƏLİYEV



# YENİ FİKİR

TƏSİSÇİ: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ 31 may 2024-cü il, cümə № 5 (61)

## Batabatda "Azərbaycanda ətraf mühitin qorunmasında ümummilli lider Heydər Əliyevin rolu" mövzusunda konfrans

*Mayın 20-də Batabat Astrofizika Rəsadxanasında Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin, Naxçıvan Dövlət Universitetinin, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Həmkarlar İttifaqları Şurasının təşkilatçılığı ilə "Azərbaycanda ətraf mühitin qorunmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda konfrans keçirilib.*









Ümummilli Liderin anadan olmasının 101, Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinə, "Yaşıl dünya naminə həmrəylik ili"nə və BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-a həsr olunmuş konfransda əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli hər kəsi salamlayıb və konfransın işinə uğurlar arzulayıb. Səlahiyyətli nümayəndə bildirib ki, ümummilli lider Heydər Əliyev ölkəmizə hər iki rəhbərliyi dövründə ekoloji tarazlığın qorunması istiqamətində kompleks tədbirlər həyata keçirib, ətraf mühitin mühafizəsi sahəsində əsaslı dönüş yaradılıb. Görülən işlərin nəticəsi olaraq ölkəmizin zəngin flora və fauna müxtəlifliyi qorunub, təbii sərvətlərdən səmərəli istifadə prioritet məsələ kimi diqqətdə saxlanılıb. Ölkəmizdə bu sahədə fəaliyyəti tənzimləyən dövlət qurumları yaradılıb, eyni zamanda təkmil qanunvericilik bazası formalaşdırılıb. Azərbaycanın inkişaf konsepsiyasının müddəalarına uyğun olaraq iqtisadi inkişafın ekoloji tarazlıqla vəhdət təşkil etməsinə nail olunub. Bir sözlə, digər sahələrlə yanaşı, Ulu Öndərin ətraf mühitin mühafizəsi sahəsində formalaşdırdığı yeni ekoloji siyasət insanların sağlam ətraf mühitdə yaşamaq hüququnun tam təmin olunmasına zəmin yaradıb.

Görkəmli dövlət xadiminin "Təbiətə zərər vuranlar, ağac kəsənlər, təbiəti çirkləndirənlər, korlayanlar cəmiyyətimizin, hamımızın düşmənidir" fikirlərini xatırladan Fuad Nəcəfli diqqətə çatdırıb ki, Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti, o cümlədən ekologiya sahəsində verdiyi tövsiyələr bu gün ölkə Prezidenti tərəfindən uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü il 25 dekabr tarixli Sərəncamına əsasən 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Həmçinin qeyd edib ki, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafına dair beş milli prioritetindən biri də "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" yanaşmasıdır. Həmin prioritetə uyğun olaraq ölkəmizdə ətraf mühitin sağlamlaşdırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi əsas hədəfdir. Artıq ölkə Prezidenti işğaldan azad edilmiş Qarabağı və Şərqi Zəngəzuru, eləcə də Naxçıvan Muxtar Respublikasını yaşıl enerji zonası elan edib, ekosistemin bərpasına, "ağıllı şəhər" və "ağıllı kənd" kimi innovativ yanaşmaların tətbiqinə başlanılıb.

Səlahiyyətli nümayəndə vurğulayıb ki, dünyanın hər bir yerində olduğu kimi, Azərbaycanda da qeyri-sabit hava şəraitinin hiss olunması iqlim problemləri ilə əlaqədar ölkə səviyyəsində tədbirlərin, o cümlədən elmi və praktiki konfransların keçirilməsini zəruri edir. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 bu il ölkəmizdə keçiriləcək. Sözsüz ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi və beynəlxalq nüfuzu sayəsində Azərbaycan COP29 çərçivəsində iqlim dəyişikliyi ilə mübarizə işinə mühüm töhfələr verəcək. Bu gün Azərbaycan Prezidenti tərəfindən görülən işlər və ölkəmizdəki mövcud qanunvericilik sistemi ətraf mühitin mühafizəsi sahəsində sistemli tədbirlərin icrasına imkan verir. "Azərbaycanda ətraf mühitin qorunmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda konfransda da ölkəmizdə bu sahədə həyata keçirilən tədbirlərə bir daha diqqət yetiriləcək və yeni hədəflər müəyyənləşdiriləcək.

Fuad Nəcəfli dövlət başçımızın Azərbaycanda ətraf mühitin mühafizəsinə yönəlmiş fəaliyyət çərçivəsində Naxçıvanı yaşıl enerji zonası elan etdiyini diqqətə çatdıraraq vurğulayıb ki, bu istiqamətdə konkret layihələr icra olunacaq. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin rəhbərliyi ilə aid qurumlarla birlikdə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı müşavirə keçirilib, "Yaşıl dünya naminə həmrəylik ili" və COP29-la bağlı İşçi Qrupu yaradılıb və bu istiqamətdə tədbirlərə başlanılıb. Bugünkü konfransın da, bu mənada, mühüm əhəmiyyət kəsb etdiyini qeyd edən səlahiyyətli nümayəndə konfransın işinə uğurlar arzulayıb, təşkilatçılara və iştirakçılara təşəkkür edib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev konfransın əhəmiyyətini önə çəkib. Qeyd edib ki, dünyanın ən mötəbər tədbirlərindən biri olan COP29-un ölkəmizdə keçirilməsi siyasi və digər istiqamətlərlə yanaşı, Azərbaycanın iqtisadi və turizm cəhətdən də daha geniş inkişafına töhfə verəcək. Rektor vurğulayıb ki, hazırda dünya ölkələrində sürətli şəhərləşmə prosesi gedir. Bu gün bu proses 50 faizdir. Aparılan müşahidələr göstərir ki, 2050-ci ildə şəhərləşmə 70 faizi ötəcək. Bu prosesin özü ilə gətirəcəyi fəsadların aradan qaldırılması üçün ekoloji tədbirlərin həcminin artırılması vacib əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda da ekosistemin qorunması və inkişafı prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Naxçıvanın ekoloji mühitinin daha geniş tədqiq olunmasının zəruriliyini irəli sürən Elbrus İsayev konfransın COP29 tədbirlərinə mühüm töhfə olacağını bildirib.

Naxçıvan Muxtar Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini, nazir vəzifələrini icra edən Xanlar Mustafayev ətraf mühitin mühafizəsi istiqamətində görülən işlərdən bəhs edərək bildirib ki, Naxçıvanda 1 milli park, 3 dövlət təbiət yasaqlığı mövcuddur. Bu da muxtar respublika ərazisinin 149 min hektara yaxınını və ya 28 faizini təşkil edir. Azərbaycan Respublikasının "Qırmızı Kitab"ına salınmış Naxçıvan Muxtar Respublikası ərazisində mövcud olan 211 flora, 131 fauna növləri Xüsusi Mühafizə Olunan Təbiət ərazilərində mühafizə olunur.

Xanlar Mustafayev diqqətə çatdırıb ki, bu gün dünyada iqlim dəyişikliyi, ətraf mühitin mühafizəsi və "yaşıl enerji"yə keçid ən mühüm prioritetlərdəndir. Azərbaycan baza ili ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürüb. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli", 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamlarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasında ağacəkmə aksiyaları keçirilir. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi bu aksiyaların keçirilməsində əsas məqsəd ölkədə ekoloji tarazlığın qorunması və ətraf mühitin sağlamlaşdırılmasına töhfə vermək, Ulu Öndərin əziz xatirəsini yad etmək, dahi şəxsiyyətin yaşıllaşdırma ənənələrini davam etdirmək, insanlar arasında ekoloji mədəniyyəti, təbiətə olan qayğı hissini təbliğ etməkdir.

Azərbaycan Respublikası Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev bildirib ki, Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində mühüm addımlar atılır.

Konfransda AMEA-nın müxbir üzvü, Torpaqşünaslıq və Aqrokimya İnstitutunun baş direktoru Əlövsət Quliyev "Naxçıvan Muxtar Respublikasında ətraf mühitin mühafizəsində torpaq və su ehtiyatlarından səmərəli istifadə", Naxçıvan Dövlət Universitetinin Elm və innovasiyalar üzrə prorektoru, biologiya üzrə fəlsəfə doktoru Elsevər Əsədov "Heydər Əliyev və Azərbaycan təbiəti", Naxçıvan Dövlət Universitetinin Əczaçılıq və biokimya kafedrasının professoru, AMEA-nın həqiqi üzvü Tariyel Talıbov "Naxçıvan Muxtar Respublikasının nadir, endemik və qiymətli nümunələri" və Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin şöbə müdiri Tural Əsgərov "Ətraf mühitin mühafizəsi və tullantıların düzgün istifadə olunması sahəsində görülən işlər" mövzularında məruzələr ediblər.

Naxçıvan Dövlət Universiteti Musiqi Kollecinin sazçalanlar ansamblı aşıq mahnıları ifa ediblər.

Sonra akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkının Batabat ərazisində yaşıllaşdırma aksiyası keçirilib. Səlahiyyətli nümayəndə universitetin könüllü tələbələri ilə ağac əkib.

Fuad Nəcəfli könüllü tələbələrlə xatirə fotosu çəkdirib. Tələbələr "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş plakatlar nümayiş etdiriblər.

Konfrans çərçivəsində Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin müəllim və tələbələri Batabat yaylağının əsrarəngiz təbiətinə dair etüd təşkil ediblər.

Konfrans çərçivəsində könüllü tələbələrin iştirakı ilə Batabat ərazisində təmizlik aksiyası da keçirilib.

# Ali təhsil ocağında ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü qeyd olunub







*Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə təşkil edilən tədbirdə əvvəlcə ali təhsil ocağının Elmi Kitabxanasında nümayiş olunan sərgiyə baxış olub. Məlumat verilib ki, sərgidə ulu öndərin həyat və fəaliyyətinə həsr olunan universitet müəllimlərinin müəllifi olduğu elmi əsərlər, qəzet, jurnal, konfrans materialı, həmçinin miniatür kitablar yer alıb.*

Sonra tədbirin bədii hissəsində çıxış edən universitetin rektoru Elbrus İsayev bildirib ki, müstəqil Azərbaycan ulu öndər, dünya şöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin ideyalarının ən layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında uğurlu gələcəyə doğru inamla irəliləyir. Heydər Əliyev siyasətinə sədaqəti, qətiyyətli və məqsədyönlü fəaliyyətinin nəticəsidir ki, Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycanın müzəffər ordusu bizə qələbə sevincini yaşatdı. Vurğulanıb ki, "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyev siyasəti davam etdirilməlidir", – deyən və Ulu öndər siyasətinə sadiqliyi özünə həyat amalı seçən Prezidentimiz Azərbaycan xalqını qəti əmin edir ki, bu siyasətə daim sadiq qalacaq və məqsədyönlü yolu davam etdirəcək.

Rektor nəinki regionda, hətta dünya universitetləri ilə bir sırada addımlayan rəhbərlik etdiyi ali təhsil ocağını da Ulu Öndərin qurub yaratdığı təhsil strategiyasının bəhrəsi, muxtar respublika ali təhsilinə verilən töhfə kimi dəyərləndirib. Elbrus İsayev gəncləri ümummilli liderin ideyalarından dərs almağa və hər dövr üçün örnək olan siyasəti dəstəkləməyə çağırıb.

Tədbirdə Tarix ixtisası üzrə II kurs tələbəsi, 2023-cü il Heydər Əliyev təqaüdçüsü Əziz Vəliyev çıxışı zamanı vurğulayıb ki, öz müdrik siyasəti, dönməz əqidəsi, tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsində özünəməxsus xidmətlər göstərən ulu öndər Heydər Əliyev xalqa, vətənə, insanlığa olan sevgisi ilə xalqımızın qəlbində əbədiyaşarlıq qazanıb. Diqqətə çatdırılıb ki, nə qədər ki, Azərbaycan var, ulu öndərin adı, əməlləri və siyasi kursu yaşayacaq və ölkəmizə miras qoyduğu siyasət daim ölkəmizi yüksəlişə aparacaq.

Sonra tələbələr ulu öndər Heydər Əliyevə həsr olunan şeirlər qiraət edib, ifalar səsləndiriblər.

**Səadət ƏLİYEVA**
**Media və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri**



***NDU-nun Beynəlxalq məktəbində Ulu öndər Heydər Əliyevin 101 illiyi ilə bağlı tədbir keçirilib.***

Tədbir bir dəqiqəlik sükut və Azərbaycan Respublikasının Dövlət Himni ilə başlayıb. Naxçıvan Dövlət Universitetinin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov çıxış edərək qeyd edib ki, ulu öndər Heydər Əliyevin siyasi irsi müstəqil dövlətçiliyimizin əsasıdır. Azərbaycanın XX əsr tarixinin əlli ildən artıq dövrü Heydər Əliyev şəxsiyyəti ilə, onun böyük quruculuq fəaliyyəti ilə bağlıdır. Ulu öndərin ağır günlərində nəinki Naxçıvanı qorudu, hətta ən çətin məqamlarda belə muxtar respublikada qəbul etdiyi qərarlarla bütövlükdə Azərbaycanın gələcəyi naminə hesablanmış müdrik siyasətin təməl prinsiplərini qoydu.

Qeyd olunub ki, dahi şəxsiyyət bütün çətin anlarda öz xilaskarlıq missiyasını şərəflə yerinə yetirərək, xalqını bütün bəlalardan qorumuşdur. İndi onun başladığı işləri siyasi varisi Prezident cənab İlham Əliyev uğurla davam etdirir. Ata nəsihətini uğurla yerinə yetirən ölkə başçısı, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev 44 günlük Vətən müharibəsində 30 ilə yaxın işğal altında olan torpaqlarımızı düşməndən azad etdi.

Beynəlxalq məktəbin direktoru Nazim Rəhimov çıxışında qeyd edib ki, dahi rəhbərin siyasi fəaliyyətinin Naxçıvan dövrü nə qədər çətin və mürəkkəb bir zamana təsadüf etsə də, bu dövr Azərbaycanın müstəqillik tarixində çox böyük dəyərə malikdir.

Direktor ümummilli liderin Azərbaycan iqtisadiyyatının, elm və təhsilinin, mədəniyyətinin inkişafında müstəsna xidmətlərindən bəhs edib. O, ulu öndər Heydər Əliyevin ideyalarının əbədiyaşar olduğunu vurğulayıb.

Tədbirin bədii hissəsində məktəbin şagirdlərinin hazırladığı maraqlı ifalar, rəqslər, və səhnəciklər iştirakçıların marağına səbəb olub.

***

# Dahi liderin doğum günü silsilə tədbirlərlə qeyd olunub

*Naxçıvan şəhərindəki "Saat meydanı" turistik istirahət mərkəzində ulu öndər Heydər Əliyevin anadan olmasının 101 illiyinə həsr olunmuş konsert keçirilib.*




Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli nümayəndəliyinin dəstəyi, Azərbaycan Milli Konservatoriyası və Naxçıvan Dövlət Universiteti Konservatoriyasının birgə təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 101 illiyinə həsr olunmuş konsert keçirilib.

Proqramda Naxçıvan Dövlət Universiteti və Azərbaycan Milli Konservatoriyasının tanınmış incəsənət xadimləri bir-birindən maraqlı ifalarla dinləyicilərin zövqünü oxşayıblar.



# Atatürkü Anma, Gənclik və İdman bayramı qeyd edilib

***Bu münasibətlə universitetdə keçirilən tədbir şəhidlərin əziz xatirəsinin yad edilməsi, Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.***





Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək müdrik şəxsiyyət Mustafa Kamal Atatürkün böyük tarixi xidmətlərindən danışıb.

Rektor Atatürkün işğala, zülmə boyun əyməyərək böyük türk millətini milli istiqlal və azadlıq mübarizəsi ruhunda birləşdirdiyini, Anadolunun azad edilməsinə rəhbərlik etdiyini deyib. Türklərin düşmən işğalına son qoymasından və cümhuriyyətin qurulmasında türk xalqının göstərdiyi şücaətdən bəhs edib.



Azərbaycan ilə Türkiyə arasında mehriban qardaşlıq münasibətlərindən danışan rektor ümummilli lider Heydər Əliyevin ***"Bir millət, iki dövlət"*** kəlamını xatırladıb.

Atatürkün müstəqil yaşamaq iradəsinin məzlum xalqların azadlıq və istiqlal mübarizələrinə nümunə olduğunu bildirən rektor əlavə edib ki, Qazi Mustafa Kamal Atatürk ülvi hissləri ilə millətinə bağlı, istiqlal, müdafiə və sevgini hər şeydən üstün tutan bənzərsiz bir dövlət xadimidir. Ölkələrimiz arasında olan qardaşlıq münasibətlərindən, Türkiyə universitetləri ilə yaradılan beynəlxalq əməkdaşlıq əlaqələrindən danışan Elbrus İsayev universitetdə qardaş ölkənin professor-müəllim heyətinin müxtəlif fakültələr üzrə keçdikləri dərslər barədə məlumat verib.

Tədbirdə Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasındakı baş konsulu Asip Kaya çıxışında Türkiyə Cümhuriyyətinin yaranmasında və möhkəmlənməsində görkəmli şəxsiyyət Mustafa Kamal Atatürkün müstəsna rolundan bəhs edib.

Konsul vurğulayıb ki, Mustafa Kamal Atatürk çətin və mürəkkəb vəziyyətdə xalqı səfərbər edərək milli mübarizəyə başlayıb. Heç bir beynəlxalq gücün hegemonluğunu qəbul etməyən, yalnız xalqın iradəsinə, gücünə, mətinliyinə, fədakarlığına, qəhrəmanlığına arxalanan Mustafa Kamal Atatürk bu mübarizəni qələbə ilə başa çatdırıb.

Konsul çıxışında ölkələrarası münasibətlərin inkişafından, təhsil sahəsində qurulan əməkdaşlıqdan son dərəcə məmnun olduğunu bildirib.

Türkiyə-Azərbaycan qardaşlığının əbədi olduğunu xatırladan natiq əlamətdar gün münasibətilə tədbirin təşkilinə görə minnətdarlığını bildirib və iştirakçıları təbrik edib.

Tədbir tələbələrin hazırladığı maraqlı konsert proqramı ilə davam edib.

**Pərviz Hacılı**

## Naxçıvan Dövlət Universiteti daha bir mötəbər elmi konfransa ev sahibliyi edib




*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzi, Mərkəzi Gömrük Hospitalı, rəsmi tərəfdaş Türkiyənin Florence Nightingale Xəstəxanalar Qrupu və Naxçıvan Baş Gömrük İdarəsinin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 101 illiyinə və Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr edilmiş "Naxçıvan sağlamlıq günləri" çərçivəsində Naxçıvan Dövlət Universitetində "Beyin ölümü diaqnozunun təyininə multidissiplinar yanaşma" mövzusunda elmi konfrans keçirilib.*

Konfrans Ulu öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Konfransda Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, tarix üzrə fəlsəfə doktoru, Əməkdar həkim, tibb xidməti general-mayoru Ceyhun Məmmədov, Naxçıvan Baş Gömrük İdarəsinin rəisi, gömrük xidməti general-mayoru Vüqar Əliyev, Naxçıvan MR Səhiyyə Naziri səlahiyyətlərini müvəqqəti icra edən Samiq Sadıxov, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, Milli Məclisin Səhiyyə Komitəsinin sədr müavini, tarix elmləri doktoru, Əməkdar həkim Rəşad Mahmudov, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavinləri Şahlar Mirqasım, tarix üzrə fəlsəfə doktoru, dosent İsmayıl Əfəndiyev, Mərkəzi Gömrük Hospitalının rəisi-baş həkim Bəxtiyar Musayev və digər rəsmi qonaqlar iştirak ediblər.



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev tədbir iştirakçılarını salamlayaraq, "Naxçıvan sağlamlıq günləri" çərçivəsində Naxçıvanda keçirilən silsilə tədbirlərin keçirilməsinə görə Naxçıvan Baş Gömrük İdarəsinə, Naxçıvan Səhiyyə nazirliyinə, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinə öz təşəkkürünü bildirib.

Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov çıxışında ulu öndər Heydər Əliyevin ad günü ərəfəsində və onun doğma Vətənində belə bir tədbirin keçirilməsinin böyük əhəmiyyətindən danışıb.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi Rəşad Mahmudov çıxışında bildirib ki, hər bir cəmiyyəti irəliyə aparan onun baxışıdır, düşüncəsidir, gələcəyə bağlı olan strategiyasıdır.

Naxçıvan MR Səhiyyə naziri səlahiyyətlərini müvəqqəti icra edən Samiq Sadıxov muxtar respublikada səhiyyənin inkişafından, müasir dövrdə aparılan işlər barədə məlumat verib.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin İdarə Heyətinin sədri, tarix üzrə fəlsəfə doktoru Yeganə Abbasova, Azərbaycan Reanimatoloqlar və Anestezioloqlar Cəmiyyərinin sədri, tarix üzrə fəlsəfə doktoru Zəhra Vəzirova çıxış ediblər.

Daha sonra Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi Rəşad Mahmudovun və Azərbaycan Reanimatoloqlar və Anestezioloqlar Cəmiyyətinin sədri Zəhra Vəzirovanın moderatorluğu ilə keçirilən konfransda Mərkəzi Gömrük Hospitalının Cərrahiyyə və Orqan transplantasiyası şöbəsinin rəisi, tarix üzrə fəlsəfə doktoru, ümumi cərrah, transplantoloq Dr.Mircəlal Kazımi, Dr.Yeganə Abbasova, Mərkəzi Gömrük Hospitalının Radiologiya şöbəsinin rəisi, uzman radioloq Dr.Eldəniz Hüseynov çıxış ediblər.

## Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi və NDU arasında əməkdaşlıq memorandumu

*Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi və Naxçıvan Dövlət Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb.*



Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzi, Mərkəzi Gömrük Hospitalı, rəsmi tərəfdaş Türkiyənin Florence Nightingale Xəstəxanalar Qrupu və Naxçıvan Baş Gömrük İdarəsinin birgə təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101 illiyinə və Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr edilmiş "Naxçıvan sağlamlıq günləri" çərçivəsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi və Naxçıvan Dövlət Universiteti arasında əməkdaşlıq Memorandumu imzalanıb.

Tədbirdə Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, tarix üzrə fəlsəfə doktoru, Əməkdar həkim, tibb xidməti general-mayoru Ceyhun Məmmədov, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, Milli Məclisin Səhiyyə Komitəsinin sədr müavini, tarix elmləri doktoru, Əməkdar həkim Rəşad Mahmudov Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini, tarix üzrə fəlsəfə doktoru, dosent İsmayıl Əfəndiyev, Mərkəzi Gömrük Hospitalının rəisi-baş həkim Bəxtiyar Musayev və digər rəsmi qonaqlar iştirak ediblər.

Memorandum Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov və Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev tərəfindən imzalanıb.

Tibbi Xidmət İdarəsinin rəisi tədbirdə çıxış edərək Naxçıvan Dövlət Universitetinin tələbələrinin, eləcə də rezidentlərinin rotasiya, təcrübə keçməsi üçün Mərkəzi Gömrük Hospitalında olan imkanlarından danışıb.

**Məmmədbağır DÜNYAMALIYEV**

## Ali təhsil ocağının elmi əlaqələri genişlənir

### *Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Torpaqşünaslıq və Aqrokimya İnstitutu arasında elmi-texniki əməkdaşlığa dair memorandum imzalanıb*



İkitərəfli görüşdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Azərbaycan Elm və Təhsil Nazirliyi Torpaqşünaslıq və Aqrokimya İnstitutunun baş direktoru Əlövsət Quliyevi salamlayıb.

Rektor qeyd edib ki, Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda tədqiqat universitetlərinin yaradılması əsas prioritetlərdən biri sayılır. Müasir dövrdə elmi və texnoloji tərəqqi prosesi ali təhsil kontekstində islahatların aparılmasını və qlobal elmə çıxışı, fundamental və tətbiqi araşdırmaların həyata keçirilməsini, habelə insan kapitalı bazasının inkişafını təmin edə biləcək tədqiqat universitetlərinin yaradılmasını zəruri edir. Xüsusilə də, bilik iqtisadiyyatının inkişaf etdirilməsi, yeni biliklərin əldə olunması yollarının araşdırılması kontekstində müasir tədqiqat universiteti konsepsiyasının aktuallığı daha da artmaqdadır. Elbrus İsayev rəhbərlik etdiyi ali təhsil müəssisəsinin bu istiqamətdə hədəflərini diqqətə çatdırıb.



Azərbaycan Elm və Təhsil Nazirliyi Torpaqşünaslıq və Aqrokimya İnstitutunun baş direktoru Əlövsət Quliyev ömür yolunun 45 ilini həsr etdiyi Naxçıvan Dövlət Pedaqoji İnstitutunda fəaliyyət göstərdiyi zaman öz xatirələrini yada salıb. Vurğulanıb ki, uzun zamandır Bakıda yaşamağına baxmayaraq NDU hər zaman mənim üçün əziz və doğmadır.

Əməkdaşlığın verəcəyi perspektivlər, gələcək fəaliyyət istiqamətləri barədə müzakirələr aparılıb. Sonra hər iki tərəf arasında əməkdaşlıq müqaviləsi imzalanıb.

Rektor qonağa "Naxçıvan" adlı kitab və hədiyyə təqdim edib. Əlövsət Quliyev də öz növbəsində müəllifi olduğu kitabları Elbrus İsayevə verib.

Müqavilədə Naxçıvan Muxtar Respublikası ərazisində regional və lokal ekoloji problemlərin araşdırılması və həlli istiqamətində birgə tədqiqatlar, Naxçıvan Muxtar Respublikası ərazisində su və torpaq resurslarından səmərəli istifadə üzrə, bitki və biomüxtəlifliyin qorunması, səmərəli istifadəsi istiqamətində tədqiqatlar, muxtar respublika ərazisində tullantıların idarə edilməsi, təkrar emalı və səmərəli istifadəsi üzrə birgə tədbirlər, müasir üsul və vasitələrdən, cihazlardan istifadə etməklə çöl-tədqiqat işlərinin təşkili məlumatlarının sistemləşdirilməsi maddələri öz əksini tapıb.

Hər iki tərəf müəssisənin təsdiq olunmuş fəaliyyət planları çərçivəsində dissertantura yolu ilə fəlsəfə doktoru və elmlər doktoru proqramı üzrə əməkdaşların hazırlanması və təhsili məsələlərini, regionun ekoloji problemlərinin həllinə yönəlmiş yerli, beynəlxalq və müştərək qrant layihələrini yerinə yetirəcəklər. Eyni zamanda əldə edilmiş tədqiqat nəticələri barədə tərəflər müntəzəm olaraq məlumat mübadiləsi və məsləhətləşmələr aparmaqla birgə məqalələrin dərcinə nail olacaq və patentləşdirmək üçün sənədlər təqdim etməklə informasiya mübadiləsini həyata keçirmək üçün qarşılıqlı öhdəliklər daşıyacaq.

Əlövsət Quliyev universitetin Memarlıq və mühəndislik fakültəsinin Meliorasiya mühəndisliyi və Ekologiya mühəndisliyi ixtisaslarının tələbələrinə mühazirə keçib. O, Prezident İlham Əliyevin 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi barədə Sərəncamını diqqətə çatdıraraq COP29 konfransına ev sahibliyini ölkəmiz üçün 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirib.

Əlövsət Quliyev muxtar respublikada bitki, torpaq örtüyünün əmələ gəlməsində, onun dəyişməsində, relyef amillərinin təsiri, torpaq əmələgəlmə prosesində insanların təsərrüfat fəaliyyətinin rolundan danışıb.

**Səadət Əliyeva**

## "İpək Yolu Beynəlxalq Gənclik Forumu" çərçivəsində Naxçıvana gələn qonaqlar Naxçıvan Dövlət Universitetində olublar



*lilov, Gənclərin inkişaf və karyera mərkəzinin baş direktoru Azər Əliyev, Azərbaycan Tələbə Təşkilatları İttifaqının sədri Pər- ... Mirələmli, Gənclər Fondunun şöbə ...liri Orduxan Qəhrəmanzadə Naxçıvana ...rləri çərçivəsində Naxçıvan Dövlət Uni...itetində olublar.*

Naxçıvan Dövlət Universitetinin rektoru ...us İsayev, Sosial məsələlər və ictimaiyyətlə ...ələr üzrə prorektor Arzu Abdullayev və uni...itetin Tələbə-Gənclər Təşkilatının sədri ...z Qasımovun iştirakı ilə qarşılıqlı görüş ke...ib.

Tədbirdə tələbə təşkilatlarının fəaliyyəti, qarşıya qoyulan məqsədlər, həyata keçirilən layihələrdə tələbələrin rolu və könüllülük proqramları müzakirə edilib.

Görüşdə yay tətili ərzində düşərgələr təşkil etməklə tələbələrin həm asudə vaxtlarının səmərəli təşkil olunması, həm də bu istiqamətdə müəyyən mövzular üzrə yararlanmaları üçün əlverişli mühitin yaradılması barədə razılıq əldə olunub.

Ali təhsil ocağında fəaliyyət göstərən tələbə təşkilatlarının fəallığından söhbət açan rektor diqqətə çatdırıb ki, tələbə birliklərinin həyata keçirdiyi tədbirlər, icra olunan layihələr, intellektual yarışlar, olimpiadalar, müsabiqələr və təlimlər onların bilik və bacarıqlarının təkmilləşdirilməsinə, tələbə vaxtından peşə bacarıqlarına yiyələnmələrinə xidmət edir.

Azərbaycan Gənclər Fondunun icraçı direktoru vəzifələrini icra edən Qədir Xəlilov Naxçıvan gənclərinin bütün layihələrdə xüsusi fəallıq göstərdiklərini qeyd edib. Vurğulanıb ki, Azərbaycan Respublikası Gənclər Fondunun Müşahidə Şurasının Qərarı ilə Naxçıvan Gənclər Fondunun filialının yaradılması da görüləcək işlərin əhəmiyyətini artıracaq.

Görüşün sonunda Elbrus İsayev müəllifi olduğu "Böyük İpək Yolu və Naxçıvan" adlı kitabını qonaqlara hədiyyə edib.

*Konfransdan öncə qonaqlar Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, Ulu Öndərin heykəlinin önünə gül dəstələri qoyub hörmət və ehtiramlarını ifadə ediblər. Heydər Əliyev Muzeyi ilə tanışlıq zamanı qonaqlara görkəmli dövlət xadiminin şərəfli ömür yolunu əks etdirən fotoşəkillər, onun uşaqlıq və gənclik illərinə həsr olunmuş stendlər, xatirə əşyaları və digər dəyərli eksponatlar barədə ətraflı məlumat verilib.*



# Muxtariyyətin 100-cü ildönümünə həsr edilmiş Tibb tələbələri və gənc tədqiqatçıların respublika konfransı

Konfransda əvvəlcə ümummilli lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Azərbaycan Tibb Universiteti ilə aparılan səmərəli əməkdaş nəticəsində belə tədbirlərə ev sahibliyi etməkdən qürur duyduğunu ifadə edib. Rektor bildirib ki, zəngin bir tarixə malik olan universitetlə qarşılıqlı əlaqədə olmaq, onun təcrübəsindən faydalanmaq, birgə elmi tədbirlərdə iştirak etmək NDU-nun Tibb fakültəsinin inkişafı üçün mühüm əhəmiyyətə malikdir. Elbrus İsayev 25 ildir muxtar respublikanı Tibb sahəsi üzrə kadrlarla təmin edən fakültəyə göstərilən yüksək dövlət qayğısını diqqətə çatdırıb.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda Naxçıvan Dövlət Universiteti üçün nəzərdə tutulmuş prioritet məsələlərdən biri də tibb təhsili üzrə peşəkar kadrların hazırlanması, maddi-texniki bazanın gücləndirilməsi, yeni tədris korpusunun yaradılması, araşdırma tədris klinikasının fəaliyyətinin təmin olunmasıdır. Rektor konfransın işinə uğurlar arzu edərək, birgə əməkdaşlığın inkişafına sonsuz inamını ifadə edib.





Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli elmə, təhsilə, gənclərə göstərilən yüksək dövlət qayğısının bəhrəsi kimi rəhbərlik etdiyi universitetdə Tibbi kadrların hazırlıq vəziyyətindən danışıb. Qeyd edilib ki, Tibb hər gün yenilənən, daim elmi axtarışlar tələb olunan bir sahədir. Məhz buna görə həkimlik peşəsini seçən hər bir tələbə bu istiqamətdə elmi araşdırmalara üstünlük verməli, daim müasir elmi ədəbiyyatları mənimsəməlidir. Rektor qeyd edib ki, tədris o zaman səmərəli və effektiv olur ki, elmi tədqiqatlarda formalaşdır. Professor gənc tədqiqatçıları bir qurumda birləşdirən TEC xətti ilə universitetdə aparılan elmi işlərin əsas istiqaməti barədə məlumat verib. Bildirilib ki, birgə keçirilən bu cür konfranslar sayəsində tələbələr öz təcrübələrini bölüşür, eyni zamanda daha peşəkar kadr kimi formalaşırlar.

Azərbaycan Tibb Universitetinin Tələbə Elmi Cəmiyyətinin rəhbəri Müşviq Həsənov, Naxçıvan Dövlət Universitetinin Tələbə Elmi Cəmiyyətinin sədri Təbrizə Bağırovanın çıxışları dinlənilib.

Naxçıvan Muxtar Respublikasının 100 illiyinə dair, Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti adlı videoçarxlar nümayiş olunub.

Plenar məruzələrdə Azərbaycan Tibb Universitetinin tələbəsi Səbinə Həsənzadə "Eksperimental pankreonekroz zamanı baş verən endotoksikozun patogenezində pankreas profermentlərinin rolu", Naxçıvan Dövlət Universitetinin tələbəsi Bəhriyyə Mustafayeva "Siqaret istifadəsinin qadın cinsiyyət sisteminə təsiri" mövzusu üzrə araşdırmaları dinlənilib.

Konfrans iki gün ərzində 3 salonda olmaqla Kliniki təbabət paneli-1, Tibbi biologiya paneli, İctimai sağlamlıq paneli, Kliniki təbabət paneli-2, Əczaçılıq, qida təhlükəsizliyi və profilaktik paneli, Bioloji təbabət paneli, Kliniki təbabət paneli-3, Stomatologiya paneli olmaqla 8 bölmədə davam edib.

**Səadət Əliyeva**
**Media və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri**

# NDU-nun rektoru və nümayəndə heyəti Qaradəniz Texniki Universitetində işgüzar səfərdə olublar







*Türkiyənin Trabzon şəhərində Naxçıvan Dövlət Universiteti və Qaradəniz Texniki Universitetinin birgə təşkilatçılığı keçirilən "II Beynəlxalq Apiterapiya və Təbiət Konqresi" çərçivəsində Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev və nümayəndə heyəti Türkiyənin Qaradəniz Texniki Universitetində işgüzar səfərdə olublar.*

Qaradəniz Texniki Universitetinin rektorluğunda keçirilən ikitərəfli görüşdə Qaradəniz Texniki Universitetinin rektoru, professor Hamdullah Çuvalcı qonaqları salamlayaraq universitetdə görməkdən məmnunluğunu bildirib. Rektor qurulmuş əməkdaşlıq çərçivəsində bir sıra sahələrdə praktik işlərin uğurlu nəticələrindən söz açıb.




Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev də öz növbəsində burada olmaqdan məmnunluğunu ifadə edib, birgə əməkdaşlıq, ortaq elmi-tədqiqat fəaliyyəti, akademik və tələbə mobilliyi sayəsində aparılan işlər barədə məlumat verib. Hər iki universitet arasında informasiya texnologiyaları, incəsənət və tibb sahəsində uğurlu layihələrin həyata keçirilməsindən, Tibb fakültəsinin tələbə-müəllim heyətinin təcrübə proqramlarının əhəmiyyətindən danışıb.

Səfər müddətində Trabzon valisi Aziz Yıldırımın NDU rektoru Elbrus İsayev və nümayəndə heyəti ilə görüşü keçirilib. Görüşdə ölkələrimiz arasında bütün sahələrdə olduğu kimi akademik fəaliyyətdə də işbirliklərinin daha da genişləndirilməsi müzakirə olunub.

Daha sonra NDU-nun nümayəndə heyəti Qaradəniz Texniki Universitetinin Tibb fakültəsi və araşdırma xəstəxanasında olub. Tibb fakültəsinin dekanı, professor Neşe Kaklıkkaya, əsası 1973-cü ildə qurulan fakültənin kadr potensialı, fakültənin nəzdində fəaliyyət göstərən xəstəxana barədə ətraflı məlumat verib. Hər iki universitet arasında artıq neçə ildir uğurla həyata keçirilən əməkdaşlıq məsələlərində Tibb fakültələrinin işbirliklərinin xüsusi əhəmiyyətə malik olduğu diqqətə çatdırılıb.

Qaradəniz Texniki Universitetinin Fərabi xəstəxanasında olan NDU kollekti burada müasir texnologiyalarla zəngin ümumi cərrahiyyə və ümumi endoskopiya poliklinkaları, təcili tibbi yardım və müayinə şöbələri, klinik tədqiqatlar laboratoriyası, həkimlik məharətləri və simulyasiya mərkəzində olublar.

Diş həkimliyi fakültəsində davam edən görüşdə Qaradəniz Texniki Universitetinin Diş fakültəsinin dekanı, professor Tanər Daşdəmir ilə birlikdə müvafiq kafedralarda, Protez laboratoriyası, Diş müayinəsi və müalicəsi kabinələrində olublar.

Əczaçılıq fakültəsində keçirilən görüşdə dekan, professor Ufuk Özgenlə görüşən NDU kollektivi, universitetlərarası elmi əməkdaşlıq məsələlərini müzakirə ediblər. Onlar Farmakoloji texnoloji araşdırma və Analitik kimya araşdırma laboratoriyasında olub, Türkiyənin qabaqcıl universitetlərindən olan Qaradəniz Texniki Universitetinin təcrübəsindən istifadə edilməsi məsələləri müzakirə olunub.

***

***Qaradəniz Texniki Universitetinin və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə Türkiyənin Trabzon şəhərində "II Beynəlxalq Apiterapiya və Təbiət Konqresi" keçirilib Ötən il Ulu öndər Heydər Əliyevin 100 illiyinə və Türkiyə Cümhuriyyətinin 100-cü ildönümə həsr olunmuş I Konqres bu il Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyi münasibətilə təşkil olunub. Konqresdən öncə qonaqlar arı məhsullarından ibarət sərgi-satışla tanış olublar.***

Konqresin açılışında Trabzon valisi Aziz Yıldırım Türkiyədə arıçılıq texnologiyalarından, arıçılığın Türkiyənin iqtisadiyyatındakı yolundan, son 10 ildə apiterapiya sahəsində qazanılan uğurlardan danışıb. Türkiyənin arı pətəyi sayına görə dünya ölkələri arasında ən yüksək yerdə dayandığını qeyd edən professor ölkəsinin bal istehsalında dünya üzrə ikinci olduğunu qeyd edib.

Konqresin fəxri sədri, Qaradəniz Texniki Universitetinin rektoru Hamdullah Çuvalcı artıq ikinci dəfədir təşkil olunan konqresin əhəmiyyətli məqamlarına toxunub. Rektor elmin tədqiqatla birləşməsinin daha səmərəli olacağına sonsuz inamını ifadə edib. Elm adamları arasında işbirliyi, ortaq təcrübələr əldə etməklə daha yaxşı nəticələrə sahib olmaq olar kimi fikirlər səsləndirilib. H.Çuvalçı builki konqresin Naxçıvan Muxtar Respublikanın yaranmasının 100-cü ildönümünə həsr olumasının iki ölkə arasında qardaşlıq münasibətlərinin yüksək səviyyədə olduğunun göstəricisi olduğunu bildirib.

Konqresin fəxri sədri, NDU-nun rektoru Elbrus İsayev iki ildir keçirilən konqreslərin əlamətdar günlərə həsr olunmasının xüsusi əhəmiyyət kəsb etdiyini, universitetlərimizin fəaliyyətində tarixi dəyərlərin, dövlətçiliyin hər zaman əsas götürdüyünü bildirib. Rektor çıxışında muxtariyyətin Naxçıvan üçün tarixi əhəmiyyətli məqamlarına toxunub və Zəngəzur koridoru ilə Türk birliyinin möhkəmləndirə biləcəyimizə sonsuz inamını ifadə edib. Elbrus İsayev birgə təşkil edilən tədbirlərin əhəmiyyətindən danışaraq konqresin işinə uğurlar arzulayıb. Koqresin Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmasına görə təşəkkür edib.

Konqresdə Trabzon Arıçıları Yetişdirmə başqanı Yusif Aksoy, Türkiyə arıyetişdiricilər mərkəzi birliyinin başqanı Ziya Şahin çıxış ediblər.

Konqresin həmsədrləri Trabzon Qaradəniz Texniki Universitetinin professoru Sevgi Kolaylı, Naxçıvan Dövlət Universitetinin Elm və innovasiya məsələləri üzrə prorektoru El-



sevər Əsədov konqresin təşkili və keçirilməsi qaydaları haqqında məlumat veriblər.

Trabzon şəhərində keçirilən və 13 ölkədən iştirakçıların qatıldığı konqresdə NDU-nun 30-dan çox əməkdaşı iştirak etməklə, ümumilikdə 97 elmi məruzə, təqdimatlar olub. Tədbirdə Qaradəniz Texniki Universitetinin Gözəl sənətlər bölümünün və NDU-nun incəsənət fakültəsinin əməkdaşlarının ifasında səsləndirilən musiqi nömrələri hər kəsə xoş anlar yaşadıb.

Konqresin Qala gecəsində NDU-nun rektoru Elbrus İsayev konqresin keçirilməsində əməyi olanlara təşəkkür edib və plaketlər təqdim edib. Sonra konqresin fəxri qonağı olan Elbrus İsayevə xatirə plaketi, xatirə sertifikatı təqdim olunub.

Konqresdə innovativ məhsul və bal yarışması təşkil olunub, dünyanın müxtəlif ölkələrindən innovativ məhsullar, monoflor, heteroflor və şan balları yarışmaya daxil edilib. Aparılan fiziki-kimyəvi analizlər və ekspert qiymətləndirmə nəticələrinə görə heteroflor nominasiyasında Naxçıvan Dövlət Universiteti əməkdaşları tərəfindən təqdim olunan "Naxçıvan balı" nümunəsi ən dəyərli ballar kateqoriyasına daxil olub və Bürünc mükafata layiq görülüb.

## Muxtar respublikanın 100 illik yubileyinə həsr olunmuş “Mədə-bağırsaq və qaraciyərin aktual problemləri” konfransı










*Muxtariyyətinin 100-cü ildönümünə həsr edilmiş konfransdan öncə qonaqlar ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, Ulu Öndərin heykəlinin önünə gül dəstələri qoyub hörmət və ehtiramlarını ifadə ediblər. Heydər Əliyev Muzeyi ilə tanışlıq zamanı qonaqlara görkəmli dövlət xadiminin şərəfli ömür yolunu əks etdirən fotoşəkillər, onun uşaqlıq və gənclik illərinə həsr olunmuş stendlər, xatirə əşyaları və digər dəyərli eksponatlar barədə ətraflı məlumat verilib.*

Konfransda şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qonaqları salamlayaraq qeyd edib ki, ali təhsil ocağında belə konfransların keçirilməsi uzun illər ərzində qurulan müasir səhiyyə infrastrukturu və tibb təhsilinin keçdiyi dinamik inkişaf yolunun uğurlu yekunu kimi yüksək əhəmiyyətə malikdir.

Vurğulanıb ki, səhiyyənin inkişafının başlıca şərtlərindən biri təhsilin keyfiyyətli təşkil edilməsidir. Rektor bu cür konfransların keçirilməsinin birgə təcrübə mübadiləsində mühüm əhəmiyyətə malik olduğunu qeyd edib. Muxtar respublikada tibb təhsilininin əsasının qoyulmasının birbaşa ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu diqqətə çatdıran Elbrus İsayev bildirib ki, Naxçıvan səhiyyəsinin tibbi kadrlara olan ehtiyacını ali təhsil ocağının Tibb fakültəsi qarşılayır.

Çıxışda həmçinin diqqətə çatdırılıb ki, Ölkə Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramında universitetin nəzdində tibbi tədqiqat klinikasının yaradılması layihəsi də öz növbəsində muxtar respublikada tibb təhsilinə göstərilən dövlət qayğısının ən bariz nümunəsidir.

Elbrus İsayev tədqiqatların və fikir mübadiləsinin aparılmasının faydalı olacağına inamını ifadə edib, forumun işinə uğurlar arzulayıb.

Azərbaycan Qastroenteroloqlar və Hepatoloqlar İctimai Birliyinin sədri, Rusiya Seçenov adına Tibb Universitetinin Bakıdakı filialının Terapiya kafedrasının dosenti Gülnarə Ağayeva çıxışında sədrlik etdiyi ictimai birlik haqqında konfrans iştirakçılarına məlumat verib.

Gülnarə Ağayeva çıxışında tibb elmi üçün aktual olan belə bir mövzuda konfransın keçirilməsinə yaxından dəstək göstərildiyi üçün universitetin əməkdaşlarına, professor-müəllim heyətinə təşəkkürünü bildirib.

Azərbaycan Endoskopik və Laparoskopik Cərrahlar İctimai Birliyinin sədri, tibb elmləri doktoru Müşviq Həsənov vurğulayıb ki, bir çox xəstəliklərin erkən diaqnostikasında və müalicəsində kompleks müalicə metodları ilə yanaşı, laparoskopik, endoskopik və robotik cərrahiyyə metodları yeni texnologiyalar sayəsində daha sürətlə və etibarlı olaraq həyata keçirilə bilir. Bu baxımdan müasir müalicə metodlarının multidisiplinar müzakirəsi olduqca aktualdır. Günümüzdə bilik və təcrübə ehtiyaclarının ödənilməsi üçün müasir texnologiyaların, müalicə metodlarının, yanaşmaların təhlil edilməsi vacibdir. Bu baxımdan keçirilən bu konfrans olduqca əhəmiyyətə malikdir.

Milli Onkologiya Mərkəzinin baş həkimi, tibb üzrə fəlsəfə doktoru Azad Kərimli belə konfransların keçirilməsinin ölkəmizdə bir ənənəyə çevrildiyini qeyd edib. Bildirilib ki, bugünkü konfransa da silsilə tədbirlərin davamı kimi baxmaq olar. NDU ilə bu cür elmi konfransların tibbi kadrların yetişdirilməsində müstəsna rola malikdir.

Sonra konfransın proqramında “Autoimmun hepatitlər-diaqnostika və müalicəsi”, “Şəkərli diabet və qaraciyər xəstəlikləri-yaxın qohumlar birliyi”, “Uşaqlarda qaraciyər xəstəliklərinin səbəbləri”, “Uşaqlarda mədə-bağırsaq xəstəliklərində endoskopiyanın əhəmiyyəti”, “Qida borusu və mədənin varikoz genəlmiş venalarının endoskopik müalicəsi” və digər mövzular üzrə çıxışlar dinlənilib.

Qeyd edək ki, konfrans 2 gün davam edib.

## “Diş-çənə anomaliyalarının diaqnostika və müalicəsində müasir üsullar” adlı elmi-praktik konfrans

Muxtariyyətin 100-cü, ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə universitetdə “Diş-çənə anomaliyalarının diaqnostika və müalicəsində müasir üsullar” adlı elmi-praktik konfrans keçirilib.

Konfransdan öncə qonaqlar ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, Ulu Öndərin heykəlinin önünə gül dəstələri qoyub, hörmət və ehtiramlarını ifadə ediblər. Heydər Əliyev Muzeyi ilə tanışlıq zamanı qonaqlara görkəmli dövlət xadiminin şərəfli ömür yolunu əks etdirən fotoşəkillər, onun uşaqlıq və gənclik illərinə həsr olunmuş stendlər, xatirə əşyaları və digər dəyərli eksponatlar barədə ətraflı məlumat verilib.

Sonra qonaqlar ali təhsil ocağının Tibb fakültəsində olub, fakültədə fəaliyyət göstərən kitabxana, kompüter otağı, histologiya, anatomiya, fizioterapiya, patalogiya, stomatoloji simulyasiya, əczaçılıq simulyasiya kabinələri, kimya, fiziologiya və stomatoloji texniki laboratoriyaları ilə də tanış olublar.

Konfransda əvvəlcə ümummilli lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev tibb elminə dair konfransların, simpoziumların keçirilməsinin universitetdə bir ənənə halı aldığını qeyd edib. Ali təhsil ocağının müasir təlim-tədris imkanlarından danışan rektor dövlətimizin xüsusi diqqət və qayğısı ilə 25 il bundan öncə yaradılan Tibb fakültəsində müasir şəraitdən danışıb. Bildirilib ki, nəzəri biliklərin təcrübədə tətbiqi, tanınmış cərrahlarla görüşlər, ustad dərslərin təşkil edilməsi, tibb elminin yeniliklərinə dair konfrans, simpozium, seminarların təşkili tələbələrin gələcəkdə savadlı kadr kimi formalaşmasına geniş imkanlar açır. Nəticədə, fakültə məzunları ölkəmizin, eləcə də muxtar respublikamızın səhiyyə sisteminə layiqli töhfələr verirlər.

Ə.Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru Nazim Qasımov qeyd edib ki, hazırda respublikamızda tibb təhsili sahəsində gedən uğurlu inkişaf danılmaz bir həqiqətdir. Bu uğurlu təhsili respublikamızda həyata keçirən Tibb universitetləri ilə bərabər Naxçıvan Dövlət Universitetinin də böyük nüfuzu vardır. Universitetin hazırladığı tibbi kadrlar indi yeni böyük tələbə ordusuna tibb təhsili verir və müasir tibbi kadrların hazırlanması yolunda böyük xidmətlər göstərirlər. Savadlı gənc kadrların hazırlanmasında ölkə rəhbərinin və dövlətimizin böyük qayğı göstərməsi mühüm rol oynayır.

Naxçıvan MR Səhiyyə Nazirinin müavini, nazir səlahiyyətlərini müvəqqəti icra edən Samiq Sadıxov çıxış edərək diqqətə çatdırıb ki, muxtar respublikada əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Sevindirici haldır ki, ölkəmizdə fəaliyyət göstərən iki böyük ali təhsil ocağı tibb sahəsi üzrə peşəkar kadr formalaşdırır. Bu həm respublikamızda tibbin inkişafına təkan verir, həm də regionda bu sahəyə olan kadr ehtiyacının təmin olunmasında mühüm rol oynayır. Vurğulanıb ki, bunun nəticəsi olaraq bu gün dünyanın bir çox öl-



kələrində savadlı, bilikli həkimlərimiz, professorlarımız uğurla fəaliyyət göstərir və dünya tibb elminə mühüm töhfələr verirlər.

ADTHİ-nin Ortodontiya kafedrasının müdiri, dosent Ziba Qasımova “Diş-çənə anomaliyalarının yayılması və müxtəlif yaş qruplarında müalicə üsulları”, Azərbaycan Tibb Universitetinn Ortodontiya kafedrasının müdiri Ramidə Şadlinskaya “ATU-nun Ortodontiya kafedrasının fəaliyyəti”, Naxçıvan MR Ağız və Diş Sağlamlığı Mərkəzinin həkimi Ləman Əliyeva “Naxçıvanda ortodontik xidmətin vəziyyəti və ortodontik yardımın təşkili”, Naxçıvan Dövlət Universitetinin həkim-stomatoloqu Camal Cümşüdlü “Transversal dişləm anomaliyaları, diaqnostika və müalicə prinsipləri mövzularında çıxışlar ediblər.

Konfransda mövzular üzrə məruzələr dinlənilib. Sonda məruzələrlə çıxış edənlərə sertifikatlar verilib. Konfrans ərəfəsində hər iki ali təhsil müəssisəsi arasında birgə əməkdaşlıq məsələləri müzakirə olunub. Hər iki ali təhsil ocağının rektoru birgə əməkdaşlıq məsələləri barədə müzakirələr aparıblar. Sonra təhsil, elm və səhiyyə sahələri üzrə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulması və inkişaf etdirilməsi istiqaməti üzrə təkliflər dəyərləndirilərək əməkdaşlıq müqaviləsi imzalanıb. Elbrus İsayev qonağa Naxçıvan haqqında dəyərli kitab və hədiyyə təqdim edib, xatirə fotosu çəkdirilib.

Qeyd edək ki, müqavilədə hər iki təhsil müəssisəsində təhsil prosesinin beynəlxalq standartlara uyğunlaşdırılması və inkişaf etdirməsi üçün birgə elmi-tədqiqat işləri aparmaq, layihələr həyata keçirmək və təhsilin bütün sahələrində elmi mövzular haqqında məqalələr yazmaq, elmi-tədqiqat məlumatlarının və texniki materialların, akademik heyətin,tələbə-rezident mübadiləsini həyata keçirmək, konqres, konfrans, simpozium, seminar və s. kimi məsələlər öz əksini tapıb.

**Səadət Əliyeva**
**Media və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri**

## Elbrus İsayev “Heydər Əliyevin 100 illiyi” yubiley medalı ilə təltif edilib



Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev “Heydər Əliyevin 100 illiyi” yubiley medalı ilə təltif edilib.

Yubiley medalını rektora Azərbaycan Respublikası Elm və Təhsil naziri Emin Əmrullayev təqdim edib. Hörmətli rektorumuzu universitet kollektivi adından təbrik edir, uğurlarının davamını arzulayırıq.

*Görüşdə universitetin rektoru Elbrus İsayev qonaqları salamlayıb, onları ali təhsil ocağında görməkdən məmnunluğunu ifadə edib.*

## “Azərbaycan Dünyası” beynəlxalq jurnalının təsisçisi və baş redaktoru Naxçıvan Dövlət Universitetində olub



Rektor qonaqlara Naxçıvanın tarixindən danışıb, muxtar respublikanın təhsil ənənələrindən, Naxçıvan Dövlət Universitetinin tarixindən söhbət açıb.

Rektor qeyd edib ki, yarandığı gündən zəngin və şərəfli inkişaf yolu keçən Universitet Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ideyalarına köklənmiş dövlətçilik universitetidir.

“Dədə Qorqud” Milli Fondunun yaradıcısı və prezidenti, “Azərbaycan Dünyası” beynəlxalq jurnalının təsisçisi və baş redaktoru Eldar İsmayılov bildirib ki, 1998-ci ildə yaradılan və üç dildə (Azərbaycan, rus və ingilis) çıxan jurnal əsasən azərbaycanlıların xarici ölkələrdə sıx yaşadığı ərazilərdə yayılır. “Dədə Qorqud” Milli Fondu və “Azərbaycan dünyası” jurnalının məqsədi Türk dünyası xalqlarının birliyi, tarixi Vətənimizdən kənarda yaşayan soydaşlarımızın həmrəyliyi, xalqlar və ölkələr arasında dostluq əlaqələrinə nail olmaqdır.

Jurnalın növbəti sayının Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi münasibətilə Naxçıvana həsr olunacağını bildirən Eldar İsmayılov vurğulayıb ki, jurnalda mxutar respublikanın tarixi, maddi-mədəniyyət abidələri, incəsənəti və digər sahələrlə yanaşı təhsil ənənəsi də öz əksini tapacaq. Bu baxımdan junalda Naxçıvan Dövlət Universitetinə də geniş yer veriləcək.

Növbəti sayının Naxçıvana həsr olunması planlaşdırılan jurnalı Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə töhfə kimi qiymətləndirən Ali təhsil ocağının rektoru Elbrus İsayev qurulan əməkdaşlığın səmərəli olacağına əminliyini ifadə edib və nəşrin hazırlanmasında Naxçıvan Dövlət Universitetinin dəstəyini göstərəcəyini bildirib.

**Məmmədbağır Dünyamalıyev**

# Ölkədə ilk dəfə olaraq NDU-da Tibb ixtisası üzrə SABAH qrupunun təqdimatı keçirilib






***Tədbirdə ulu öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.***

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev bildirib ki, ölkəmizin ali təhsil sisteminin ən mütərəqqi layihəsi olan SABAH qrupu universitetin Tibb ixtisası üzrə təhsil alan tələbələri üçün nəzərdə tutulub. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda Naxçıvan Dövlət Universiteti üçün nəzərdə tutulmuş prioritet məsələlərdən biri də tibb təhsili üzrə peşəkar kadrların hazırlanması, maddi-texniki bazanın gücləndirilməsi, yeni tədris korpusunun yaradılması, araşdırma tədris klinikasının fəaliyyətinin təmin olunmasıdır.

"Ölkəmizdə ilk dəfə olaraq məhz Naxçıvan Dövlət Universitetində Tibb ixtisası üzrə SABAH qruplarının təqdimatının keçirilməsi mütərəqqi haldır. Çox şadıq ki, bu gün ölkəmizin qabaqcıl bir prqramının layihəsi əlamətdar bir ildə Naxçıvan Muxtar Respublikasının 100 illiyi, Tibb fakültəmizin 25 illiyi, SABAH qruplarının 10 illiyində məhz Tibb ixtisasına şamil olundu. Belə bir əlamətdar ildə Naxçıvan Dövlət Universitetində belə bir proqramın fəaliyyətə başlaması muxtar respublikamızın gələcəkdə peşəkar həkim mütəxəssisləri ilə təmin olunmasına öz töhfəsini verəcək. Ümidvarıq ki, yüksək balla universitetə qəbul olmuş tələbələrimiz tədris ilində göstərdikləri yüksək nəticələrə görə həmin qruplarda təhsil almaq imkanı qazanacaqlar"– deyə çıxışda bildirilib.

Naxçıvan Muxtar Respublikası Təhsil nazirinin müavini, nazir vəzifələrini icra edən Elxan Nəcəfov ölkəmizdə təhsilin inkişafına göstərilən qayğıdan danışıb.

Naxçıvan Muxtar Respublikası ümumtəhsil müəssisələrində 70-ə yaxın Tibb ixtisası istiqamətində hazırlaşan şagirdlərimiz bugün təqdimatda iştirak etdilər. Düşünürəm ki, bu Naxçıvan Muxtar Respublikası şagirdlərinin də tibb ixtisasına yönəlməsində və bu qruplar üçün rəqabətli oxumasına və nəticə göstərməsinə böyük bir stimul olacaq. Bildirilib ki, 4-cü ixtisas qrupu üzrə, xüsusilə də həkimlik ixtisasına hazırlaşan şagirdlərimiz üçün bu olduqca əla fürsətdir.

SABAH qrupları İcra Komitəsinin rəhbəri Elza Səmədova qeyd edib ki, SABAH qrupları Azərbaycan ali təhsil sistemində qabaqcıl dünya təcrübəsini paylaşmaq üçün yaradılmış bir layihədir. Ümid edirəm ki, Naxçıvanda gələcəkdə açılacaq tibb kompleksində, həm də dünya təcrübəsinin NDU-nun tibb sahəsinə gətirilməsinə töhfəsini verəcəkdir. Qonşu ölkələrlə, xüsusilə Türkiyə Respublikasının qabaqcıl Tibb sahəsi üzrə Universitetləri ilə birlikdə bağlanmış əməkdaşlıq müqavilələri, həkimlərin burda tədrisini davam etdirməsi, tələbələrin təcrübələrini digər araşdırma universitetlərində aparması və universitetlərin qabaqcıl təcrübəsinin də ali təhsil ocağına gətirilməsinə şərait yaradacaq.

Tibb fakültəsinin dekanı İlhamə Mustafayeva bildirib ki, bu il Tibb fakültəsinin 25 ili tamam olur. 1999-cu ildə sadəcə pediatriya ixtisası üzrə 25 nəfər tələbə ilə fəaliyyətə başlayan tibb fakültəsi bu gün artıq istər Azərbaycanımız üçün, istər onun hüdudlarından kənarda əhali üçün ixtisaslı tibb kadrların yetişdirilməsi yolunda mühüm addımlar atır. Gələcəkdə SABAH qruplarında təhsil alan tələbələrin tədris metodlarının tətbiqi sahəsində və onların tədqiqat üsullarının genişləndirilməsi sayəsində biz həm tədqiqatçı, həm araşdırmaçı, həm də yüksəkixtisaslı tibbi kadrların yetişdirilməsinə nail olacağıq.

Tədbirdə Tibb ixtisası üzrə 1-ci kurs tələbəsi, Prezident təqaüdçüsü İnci Fərəcova universitetdə yaradılan tədris şəraitindən, gənclərə göstərilən qayğıdan danışıb.

Tədbir bədii hissə ilə davam edib.

**Pərviz HACILI**

# Elza Səmədova:"SABAH qruplarının Naxçıvan Dövlət Universitetində açılması heç də təsadüfi deyil"




Naxçıvan Dövlət Universitetinin tibb fakültəsində SABAH qruplarının yaradılması ilə bağlı təqdimat keçirildi. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində SABAH qruplarının yaradılması "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın icrası istiqamətində həyata keçirildi. Burada əsas məqsəd yeni məzmunlu proqramların fəaliyyətə başlaması və eyni zamanda Naxçıvan Muxtar Respublikasının sosial iqtisadi inkişafında qonşu dövlətlərin, xüsusilə Türkiyə Respublikasının tibb sahəsi üzrə qabaqcıl universitetləri ilə əməkdaşlıq imkanlarının yaradılması və ikili proqramların həyata keçirilməsidir.

Həyata keçirilən bu tədbirlər xüsusilə dövlət proqramında nəzərdə tutulan doqquzuncu prioritet sahə olaraq insan kapitalının inkişafına xidmət edir. Naxçıvan Dövlət Universiteti Azərbaycan ali təhsil müəssisələri arasında çox geniş kampus imkanına sahib olan universitetdir. Eyni zamanda, Dövlət Proqramı çərçivəsində nəzərdə tutulan ikinci tibb kampusunun yaradılması məhz Naxçıvan Dövlət Universitetində olduğuna görə, SABAH qruplarının məhz bu universitetdə 25 ildir fəaliyyət göstərən tibb fakültəsində açılması heç də təsadüfi deyil.

# Tibb fakültəsindən mühüm uğur

***Ölkəmizi ilk dəfə olaraq Avropa Tibb Tələbələri Assosiasiyasında təmsil edən Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi assosiativ üzv statusunu qazanıb.***



Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin EMSA tələbə təşkilatının nümayəndə heyəti Almaniyanın Tübingen şəhərində EMSA Avropanın təşkil etdiyi 540 dan çox yaşı olan və reytinqlərdə dünyanın ən yaxşı 100 universiteti sıralamasında yer alan Eberhard Karls Tübingen Universitetinin Tibb Fakültəsində və fakültənin CRONA xəstəxanasında keçirilən "EMSA Yaz Assambleyası 2024"-də iştirak edib.

Assambleya müddətində tibb tələbələri üçün simpoziumlar, treninqlər təşkil olunub. Bundan əlavə tədbirin əsas hissəsində keçirilən plenar iclasda EMSA-nın əsasnamə və nizamnaməsi ilə bağlı müzakirələr aparılıb, yeni Fakültə Üzv Təşkilatlarının, ölkə təşkilatlarının yaradılması səsverməyə qoyulub.

Qeyd edək ki, ölkəmizi ilk dəfə olaraq Avropa Tibb Tələbələri Assosiasiyasında təmsil edən Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi assosiativ üzv statusunu qazanıb, EMSA tələbə təşkilatı tvininq, treiner çağırma və digər hüquqlar əldə edib.

Tədbirin 3-cü günü Tvininq Market layihəsi keçirilib. EMSA Naxçıvanın EIC (Avropa İnteqrasiyası və Mədəniyyəti Pilları) direktoru Elif Aslan və EMSA Naxçıvanın Prezidenti, lokal koordinatoru Əli Ələkbərlinin rəhbərlik etdiyi komanda heyəti Tvininqin Marketdə ölkəmizi təmsil edərək 5-dən çox universitetin Tibb fakültəsi ilə əməkdaşlıqla bağlı ilkin razılıq əldə ediblər.

Bundan əlavə tədbirin sosial proqramında şəhər turu, mahnı müsabiqəsi və yarışlar təşkil olunub.

**M.DÜNYAMALIYEV**

*Tələbə Elmi Cəmiyyəti xətti ilə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin yekunlarına həsr olunan başlanğıc konfransı keçirilib.*

# 2023-2024-cü tədris ilində 1201 tələbə elmi-tədqiqat işi ilə məşğul olub

Konfransda universitetin rektoru Elbrus İsayev qeyd edib ki, ixtisaslı kadrların yetişməsində nəzəri biliklərin vacibliyi ilə yanaşı, aparılan təcrübələr, həyata keçirilən elmi-tədqiqat işləri əsas diqqət mərkəzində olan məsələlərdəndir. TEC-in əsas məqsədi alitəhsilli mütəxəssislərin hazırlanması keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş elmi-təşkilati tədbirlərin həyata keçirilməsi, tələbələrin elmi-texniki potensialının qorunub saxlanılması, magistr və bakalavrların elmi-tədqiqat fəaliyyətini müasir şəraitə uyğun təşkil etməkdir. Ali təhsil ocağında tələbələr üçün yaradılan şəraitdən danışan rektor Tələbə Elmi Cəmiyyəti üzvlərinin fəallığını, tələbələrin elmi işlərə həvəslə qoşulmasını yüksək qiymətləndirib. Elbrus İsayev konfransın işinə uğurlar arzulayıb.

Elm və innovasiya məsələləri üzrə prorektor Elsevər Əsədov bildirib ki, Tələbə Elmi Cəmiyyətinin prioritet məqsədlərindən biri tələbələrdə elmə marağın artırılması, araşdırma bacarıqlarının formalaşdırılmasıdır. Vurğulanıb ki, tələbələr də müəllimlər kimi yüksək nüfuzlu jurnallarda elmi məqalə nəşr etdirir, elmi-tədqiqatla məşğul olur, hətta kitab belə çap etdirirlər. Prorektor öz çıxışında diqqətə çatdırıb ki, universitetdə professor-müəllim heyətinin qiymətləndirilməsi, onlara çap etdirdikləri məqalələrə görə pul ödənməsi məsələləri eyni zamanda tələbələrə şamil edilir.

TEC xətti ilə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin yekunları barədə danışan Tələbə-Elmi Cəmiyyətinin sədri Təbrizə Bağırova bildirib ki, hər il olduğu kimi, cari tədris ilində də təşkilatın iş planının tərtib olunması və tələbələrlə əlaqələrin gücləndirilməsi kimi məsələlərin həllinə baxılıb, fakültələr üzrə cəmiyyətin sədrləri və heyəti tələbələrlə xüsusi iş aparıb. Qeyd edilib ki, bu tədris ilində 469 müəllimin rəhbərliyi ilə 1201 tələbə elmi-tədqiqat işi ilə məşğul olub. Vurğulanıb ki, tədqiqatlarda ən çox Naxçıvan Muxtar Respublikasının tarixi, coğrafiyası, təbiəti, incəsənəti, görkəmli şəxsiyyətləri haqqında mövzulara üstünlük verilib. Cari tədris ilində isə əsas tədqiqat mövzuları Naxçıvan Muxtar Respublikasının 100 illiyi və ölkəmizdə Yaşıl dünya naminə həmrəylik ilinə həsr olunub. Təbrizə Bağırova tələbələrin elmi-tədqiqatla məşğul olmalarında say dinamikasını illər üzrə müqayisə edib. Hər il artan faiz nisbətiylə qeyd olunan rəqəmlər cədvəl şəklində izah edilib. Vurğulanıb ki, Tələbə Elmi Cəmiyyətinin tərkibində Magistratura şurası, Karyera və İnkişaf mərkəzi, Şəxsi İnkişaf Klubu və 4 xarici dildə danışıq klubları fəaliyyət göstərir.

Tələbə Elmi Cəmiyyətinin sıralarında könüllülərin də yer aldığını qeyd edən TEC sədri konfransların və müxtəlif tədbirlərin təşkilində onların aktiv iştirakını diqqətə çatdırıb.

Hüquqşünaslıq ixtisası üzrə II kurs tələbəsi Aytən Həsənli, Energetika mühəndisliyi ixtisası üzrə II kurs tələbəsi Zaur Gülmalıyev, Torpaqşünaslıq və aqrokimya ixtisası üzrə III kurs tələbəsi Leyla Rüstəmlinin çıxışları dinlənilib.

**Səadət Əliyeva**

*Mərkəzi Bankının Naxçıvan MR İdarəsi, Naxçıvan Dövlət Universiteti və "Beynəlxalq Konsaltinq Şirkəti"nin birgə təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetinin tələbələri üçün "Maliyyə Savadlılığı Layihəsi" çərçivəsində "Bankların prudensial idarəetməsi" adlı təlim keçirilib.*

# "Bankların prudensial idarəetməsi" adlı təlim




Tədbiri giriş sözü ilə Universitetin sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Arzu Abdullayev açaraq bu tip silsilə tədbirlərin keçirilməsinin tələbələr üçün böyük əhəmiyyətə malik olduğunu vurğulayıb, xüsusilə maliyyə və bank ixtisasları üzrə təhsil alan tələbələrin gələcək karyera seçimlərinə, həmçinin nəzəri biliklərinin gücləndirilməsinə xüsusi töhfə verdiyini bildirib.

Daha sonra Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Elçin Əliyev tədbirin əhəmiyyətinə toxunaraq cəmiyyətin, xüsusilə də gənc nəslin arasında bank məhsul və xidmətləri ilə bağlı məlumatlılığın artırılması, fərdlərin maliyyə məsələlərində daha çevik və düzgün qərarların verilməsini dəstəkləmək və onlarda yenilikçi bank sektoruna inamı gücləndirməkdən ibarət olduğunu bildirib.




Tədbirdə onlayn şəkildə iştirak edən Azərbaycan Respublikası Mərkəzi Bankının Baş direktoru Şahin Mahmudzadə tələbləri salamlayaraq, qarşılıqlı əməkdaşlıq çərçivəsində bu cür tədbirlərin keçirilməsini yüksək qiymətləndirdiyini və regionda əhalinin bank savadlılığının artırılması istiqamətində maarifləndirici seminar və tədbirlərin keçirilməsinə bundan sonra da müvafiq dəstəyin göstəriləcəyini bildirib.

Daha sonra Beynəlxalq Konsaltinq Şirkətinin təsisçisi və direktoru, Odlar Yurdu Universitetinin dosenti, təlimçi Ramin Bayramov mövzusunda tələbələr üçün "Bankların prudensial idarəetməsi" təlim keçib.

Yekunda tələbələri mövzu ilə əlaqədar maraqlandıran suallar cavablandırılıb.

**Pərviz HACILI**

# Yubiley ilinə həsr olunmuş muğam axşamı

*Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr edilən konsertdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qonaqları salamlayaraq Azərbaycan Milli Konservatoriyası ilə əməkdaşlıq münasibətlərindən danışıb. Keçirilən konserti muxtariyyətin 100 illiyinə dəyərli töhfə kimi qiymətləndirən Elbrus İsayev konsert iştirakçılarına xoş dinləmələr arzulayıb.*

Sonra Azərbaycan Respublikasının Xalq artisti, Şöhrət və Şərəf ordenli, professor Mənsum İbrahimov, Azərbaycan Respublikasının Əməkdar artisti Təyyar Bayramov, Muğam Televiziya müsabiqəsinin qalibləri Günay İmamverdiyeva, Gülzar Fərəcova və Rəvanə Əmiraslanlının ifalarında bir-birindən zəngin xalq mahnıları və muğamlar səsləndirilib.









Dəyərli xanəndələri tarda Azərbaycan Respublikasının Xalq artisti Elçin Həşimov, kamanda Azərbaycan Respublikasının Əməkdar artisti Elnur Əhmədov, nağarada Azərbaycan Respublikasının Əməkdar artisti Kamran Kərimov, zərb alətində Naxçıvan Dövlət Universitetinin tələbəsi, Beynəlxalq müsabiqə Qran-pri mükafatçısı Nəcəf Hacılı, elektro pianoda Naxçıvan Dövlət Universitetinin müəllimi Ziya Fətullayev müşayət ediblər.

Səsləndirilən ifalar dinləyicilər tərəfində alqışlarla qarşılanıb.

Sonda xatirə şəkilləri çəkilib.

**Məmmədbağır Dünyamalıyev**
**NDU-nun Media və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı**

**Ali təhsil ocağında Şərqdə opera yazan ilk qadın bəstəkar, Xalq artisti Şəfiqə Axundovanın 100 illiyinə həsr olunmuş tədbir keçirilib.**

# Bəstəkar, xalq artisti Şəfiqə Axundovanın 100 illik yubileyi qeyd edilib

Konservatoriyanın Musiqi təlimi kafedrasının müdiri Sevinc Musayeva bəstəkarın həyat və fəaliyyəti barədə məlumat verib. Qeyd olunub ki, 1924-cü ildə Şəkidə ziyalı ailəsində anadan olan Şəfiqə Axundova elə uşaqlıqdan musiqiyə maraq göstərib. Anasının böyük dəstəyi ilə musiqi təhsili alan Şəfiqə Axundova Şərqdə ilk opera yazan qadın kimi tarixə düşüb. Şəfiqə Axundova "Gəlin qayası" operası ilə öz adını mədəniyyət salnaməsinə Şərq aləmində opera yazan ilk qadın bəstəkar kimi həkk edib.





Bildirilib ki, Üzeyir Hacıbəylinin xeyir-duası ilə bəstəkarlığa başlayan Şəfiqə xanımın yaradıcılığında mahnı janrı da ana xətt hesab oluna bilər. Bəstəkar özünü musiqinin bütün janrlarında sınayıb və uğur qazanıb. 600-dən çox mahnı bəstələyən bəstəkarın operaları, musiqiləri yalnız Azərbaycanda deyil, bütün dünyada ona şöhrət gətirib. Azərbaycanın Xalq artisti, "Şöhrət" ordenli Şəfiqə Axundova 2013-cü ildə Bakıda vəfat edib.

Görkəmli bəstəkarın yaradıcılığına həsr edilmiş videoçarx təqdim olunub.

Sonra Musiqi təlimi kafedrasının Şəfiqə Axundovanın əsərlərindən ibarət konsert proqramı təqdim edilib.

Tədbirdə universitetin rektoru Elbrus İsayev çıxış edərək qeyd edib ki, Şəfiqə Axundova Azərbaycan musiqisinin ustad novatorlarındandır.

Rektor konsertin təşkilində əməyi keçən hər kəsə təşəkkür edib və uğurlar arzulayıb.

## *Musiqi Kolleci yubiley ilinə həsr olunmuş konsertlər təşkil edib*



***Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Musiqi Kollecinin Xanəndəlik ixtisası üzrə təhsil alan tələbələrinin Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr edilən "Şur dəstgahı" adlı konserti keçirilib.***

Konsert proqramında kollecin müəllim və tələbələrinin ifalarında səslənən mahnılar dinləyicilərin qəlbini fəth edib.

***

Musiqi Kolleci Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunmuş tədbirlər çərçivəsində bir qrup müəllim heyəti ilə Ordubad musiqi məktəbində tar, kamança, skripka, qarmon, qanun, fortepiano ixtisasları üzrə ustad dərsləri keçiblər.

Sonda kollec tələbələrinin ifasında İ.Hüseynovun sinif konserti təqdim edilib.

***

Musiqi Kollecində Naxçıvan Muxtar Respublikasının 100 illiyi münasibətilə kollecin müəllimi Türkan Əzimovanın da "Sinif konserti" keçirilib. Konsertdə kollecin müəllim və tələbələrinin ifasında bir-birindən möhtəşəm musiqi nömrələri səsləndirilib.

# Tanınmış ifaçılar ustad dərsləri keçiblər





Naxçıvan Dövlət Universiteti və Azərbaycan Milli Konservatoriyası arasında yaradılan səmərəli əməkdaşlıq münasibətlərinin nəticəsi olaraq Azərbaycan Milli Konservatoriyasının professor-müəllim heyəti Naxçıvan Dövlət Universitetində ustad dərsləri keçiblər.

Ustad dərslərində Azərbaycan Respublikasının Xalq artisti, Şöhrət və Şərəf ordenli, professor Mənsum İbrahimov, Əməkdar artist Təyyar Bayramov, Xalq artisti Elçin Həşimov, Əməkdar artist Elnur Əhmədov, Əməkdar artist Kamran Kərimov Naxçıvan Dövlət Universitetinin və NDU-nun Musiqi Kollecinin tələbələrinə ustad dərsi keçərək, öz tövsiyələrini çatdırıblar.



**Xalq artisti, professor Mənsum İbrahimov:**-Bu gün baş tutan konsert səbəbsiz deyil. Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunmuş konsertdə "Qarabağ" muğam qrupu və bizim yetirmələrimiz Naxçıvan tamaşaçıları qarşısında gözəl çıxış etdilər. Düşünürəm ki, yaxşı bir konsert oldu. Mən tamaşaçılara təşəkkür edirəm ki, konsertə çox böyük bir maraq göstərdilər. Həqiqətən də, Naxçıvan fərqlidir. Yəni bizim milli musiqimizə Naxçıvan tamaşaçısının münasibəti tamam fərqlidir. Çünki bu diyarın insanları zövqlərini korlamayıb. Burada milli musiqiyə böyük dəyər verilir. Mən naxçıvanlıları təbrik edir, qonaqpərvərlik üçün təşəkkür edirəm.



**Xalq artisti Elçin Həşimov:** - İlk növbədə tədbirin təşkilatçılarına, Naxçıvan Dövlət Universiteti və Milli Konservatoriyanın rəhbərliyinə təşəkkürümü bildirirəm. Fürsətdən istifadə edib Naxçıvanda yaşayan insanları Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm. Mən universitetdə ustad dərsləri zamanı burada milli musiqiyə çox böyük bir maraq gördüm. Bizim tələbələrlə maraqlı, yaddaqalan görüşümüz oldu. Növbəti görüşlərdə yeni-yeni ifaçılarla görüşməyi düşünürük. Qeyd etmək yerinə düşər ki, Naxçıvan Azərbaycan musiqi sənətinə gözəl ifaçılar bəxş eləmiş bir torpaqdır. Buradakı həmkarlarımıza, müəllim və tələbələrə uğurlar arzulayıram.



**Əməkdar artist Təyyar Bayramov:** Bu gün gördüyünüz kimi çox möhtəşəm bir konsert keçdi. Təbii ki, tamaşaçıların xoş aurası, isti münasibəti bizə daha da şövq verdi. Bir ifaçı kimi çox zövq aldım. Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi münasibətilə təşkil olunan möhtəşəm konsertdə iştirak etdiyim üçün özümü xoşbəxt hiss edirəm. Naxçıvan Dövlət Universiteti və Azərbaycan Milli Konservatoriyası arasında qurulan əməkdaşlıq sənətkarlarımızın müntəzəm olaraq burada konsertlər verməyinə, ustad dərsləri keçməsinə imkan yaradacaq. Bu da Naxçıvanda musiqinin inkişafı deməkdir.



**Əməkdar artist Elnur Əhmədov:**-Əvvəlcə onu qeyd edim ki, Naxçıvanda olduğum üçün qürurluyam. Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi münasibətilə təşkil olunan möhtəşəm konsertə və universitetdə təşkil olunan ustad dərslərinə görə Naxçıvan Dövlət Universiteti və Azərbaycan Milli Konservatoriyasının rəhbərliyinə dərin təşəkkürümü bildirirəm. Universitetdə Mənsum İbrahimov və Təyyar Bayramov xanəndələr, Elçin Həşimov tar, Kamran Kərimov nağara, mən isə kamança ifaçılarına ustad dərsi keçdim. Açığı, sinif otağına daxil olanda bu qədər kamança ifaçısının olduğunu təsəvvür eləmirdim. Dərs prosesində onu da vurğuladım ki, Naxçıvanda bu qədər kamança ifaçısının yetişməsi o deməkdir ki, burada yaxşı müəllimlər var, burada güclü tədris var. Bütün bunlar dövlətimizin milli musiqimizə, mənəviyyatımıza olan diqqət və qayğısının məntiqi nəticəsidir desək yanılmarıq.

Ölkəmizdə 2005-ci ildən sonra keçirilən televiziya muğam müsabiqələrindən sonra sözün əsl mənasında xanəndələrlə yanaşı, gənc tar, kamança ordusu yarandı. Ölkəmizdə milli musiqiyə, muğama böyük diqqətin olması bir ifaçı, pedaqoq olaraq mənə çox xoş təsir bağışlayır. Fürsətdən istifadə edərək bütün naxçıvanlıları Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

# Akademik Kamal Abdulla və akademik Muxtar İmanovla görüş



*Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qonaqları universitetdə salamlamaqdan sevinc duyduğunu dilə gətirib. Rektor həm Azərbaycan Dillər Universiteti, həm də Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu ilə birgə əməkdaşlığın mühüm nəticələri barədə məlumat verib.*

Bildirilib ki, ADU ilə imzalanan əməkdaşlıq müqaviləsinə əsasən doktorant və magistrantların elmi tədqiqatları, müvafiq elm sahələri üzrə müdafiəyə hazırlaşan hər bir əməkdaşın elmi fəaliyyətinin inkişafında ali təhsil ocağı öz dəstəyini əsirgəmir. Rektor folklorşünaslıq üzrə araşdırmalarda və tədqiqat əsərlərinin ərsəyə gəlməsində Folklor İnstitutunun xüsusi qayğısını qeyd edib. Elbrus İsayev Kamal Abdullanın NDU tələbələri ilə görüşmək istəyini, həmçinin onun da ADU-da tələbələrlə görüşmək arzusunu xüsusilə təqdirəlayiq qiymətləndirib.

Universitetin Tarix-filologiya fakültəsinin dekanı Arif Ağalarovun moderatorluğu ilə keçirilən görüşdə kademiklər Kamal Abdulla və Muxtar İmanov haqqında məlumat verilib. Kamal Abdulla romanlarının dil-üslub və poetik imkanları haqqında danışan dekan vurğulayıb ki, Kamal Abdulla ənənəvi roman anlayışına yeni nəfəs gətirən yazıçıdır və onun romanları müasir Azərbaycan nəsrinin qiymətli əsərləridir.

Ədəbiyyatşünaslıq və folklorşünaslığa aid çoxsaylı dəyərli əsərlərin müəllifi olan Muxtar İmanov haqqında məlumat verən Arif Ağalarov qeyd edib ki, akademikin Azərbaycan nəsrində psixologizm probleminin nəzəri əsaslarının müəyyənləşdirilməsinə, Azərbaycan xalq gülüş mədəniyyəti ilə bağlı elmi konsepsiyanın yaradılmasına, eləcə də folklorşünaslığın bir sıra aktual problemlərinə həsr edilən 10 monoqrafiyası, 200-dən artıq elmi məqaləsi, eləcə də çoxsaylı publisistik yazıları nəşr olunub. Onun Azərbaycan xalq gülüş mədəniyyəti ilə bağlı elmi konsepsiyası humanitar-filoloji elmimizdə böyük rezonans doğurub.



Akademik Kamal Abdulla muxtariyyətin 100-cü ildönümü ərəfəsində NDU-da olmaqdan olduqca məmnun olduğunu ifadə edib. Rektor tələbələri Azərbaycanın ictimai həyatında fəal iştirak etməyə, dövlətçiliyə sadiq ruhda yaşamağa, müasir dünya elminə inteqrasiya olmağa və bütün varlıqları ilə Vətənə, xalqa, layiq vətəndaş kimi öz üzərlərinə düşən vəzifələri yüksək bacarıqla yerinə yetirməyə çağırıb. Kamal Abdulla gəncliyə, gələcəyə inamla baxdığını, Azərbaycanın inkişafında gənclərin rolunun müstəsna əhəmiyyət kəsb etdiyini vurğulayıb.

AMEA-nın Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanov "Kitabi-Dədə Qorqud"un yaranması, strukturu, dil və üslub xüsusiyyətlərindən, eposun nəşr və tədqiq tarixindən söz açıb. Diqqətə çatdırılıb ki, "Dədə Qorqud" oğuz türklərinin dünya mədəniyyəti xəzinəsinə bəxş etdiyi ən möhtəşəm abidələrdən biridir. Heç bir xalqda analoqu tapılmayan elə bir ədəbi əsər nümunəsidir ki, onda türkün milli xarakteri, psixologiyası, adət-ənənələri, dini-fəlsəfi baxışları, əxlaqı, dövlət quruculuğu, qəhrəmanlıq salnaməsi, ailə münasibətləri, şifahi və yazılı dilinin tarixi öz əksini tapır.



Müəllim və tələbələrin suallarını cavablandıran akademiklər universitet Elmi kitabxanasına kitablar hədiyyə ediblər.

Sonda NDU-nun Tələbə teatr studiyasının Kamal Abdullanın "Bir, iki, bizimki" əsəri əsasında hazırladığı tamaşa nümayiş olunub.

Akademik Kamal Abdulla yaradıcılığına göstərilən xüsusi diqqət üçün NDU rektoru başda olmaqla bütün kollektivə öz təşəkkürünü bildirib.

**Səadət ƏLİYEVA**

## "Nəfəsli musiqi alətlərində ifaçılıq tarixi" dərs vəsaitinin təqdimatı





*Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, Fortepiano kafedrasının baş müəllimi Nazilə Qardaşbəyovanın "Nəfəsli musiqi alətlərində ifaçılıq tarixi" adlı dərs vəsaitinin təqdimatı keçirilmişdir.*



Tədbiri giriş sözü ilə açan NDU-nun Tədris və tərbiyə işləri üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent Rafiq Rəhimov universitetin professor-müəllim heyətinin dərslik və dərs vəsaitlərinin təqdimatlarının keçirilməsinin artıq ənənə halını almasının sevindirici hal olduğunu vurğulamışdır. Prorektor kitabı ümumtəhsil məktəblərində nəfəsli alət ifaçıları, gənc pedaqoqlar və magistrlar üçün dəyərli vəsait kimi yüksək qiymətləndirmişdir.

Daha sonra çıxış edən Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, professor Səidə Məmmədova, Fortepiano kafedrasının müəllimi Nərmin Məmmədova, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı, Təsviri incəsənət kafedrasının dosenti Cavid İsmayılov Nazilə Qardaşbəyovanın yaradıcılığı, eyni zamanda onun müəllifi olduğu yeni dərs vəsaitindən bəhs etmişlər.

Sonda müəllif göstərilən diqqətə görə universitet rəhbərliyi və tədbir iştirakçılarına öz minnətdarlığını bildirmişdir.

**Çinarə İsmayılova**

## Musiqi Kollecinin tələbələrindən daha bir uğur



Naxçıvan Dövlət Universitetinin Musiqi Kollecinin tələbələri "Sən elə bir zirvəsən" adlı respublika ifa müsabiqəsində uğur qazanıblar

Aərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101 illiyinə həsr olunmuş "Sən elə bir zirvəsən" adlı peşə və orta ixtisas təhsili müəssisələri arasında respublika ifa müsabiqəsi keçirilib.

NDU Musiqi Kollecinin tələbələri Caner Qurbanov və Şenay Bayramlı keçirilən müsabiqədə rəqs nominasiyası üzrə I, bədii qiraət üzrə Gülay Ağazadə II, vokal qrupu III yerin qalibləri elan olunublar.

Tələbələrimiz Bakı şəhərində keçirilən mükafatlandırılma mərasimində iştirak ediblər.

# Xalq artisti Yalçın Adıgözəlov Naxçıvan Dövlət Universitetində olub



Naxçıvan Dövlət Universitetinin Konservatoriyası və Musiqi Kollecinin kollektivlərindən ibarət simfonik orkestrlə tanış olan Yalçın Adıgözəlov: yenidən qədim Naxçıvan torpağına gəldiyim üçün çox şadam. Çünki Naxçıvan bizim üçün çox vacib bir bölgədir və 20 ildən çoxdur ki, əlaqələrimiz davam edir. Naxçıvanın çox dəyişildiyini qeyd edən qonaq mədəni əlaqələrlə bağlı yaxşı əməkdaşlıq imkanlarının olduğunu da bildirdi: – 30 il bundan əvvəl – Naxçıvanın ağır zamanında 1992-1993-cü illərdə biz buraya gəlib-gedirdik. İndi isə şərait tamamilə dəyişib. Əlbəttə ki, bunlar göz qabağındadır. Son 7-8 ildə bizim Naxçıvanla əlaqələrimiz daha sıxdır. Sadəcə, Bakıdan yox, Türkiyədən də iki dəfə böyük simfonik orkestrlə Naxçıvana birbaşa qastrol səfərinə gəlmişik. Naxçıvan şəhərində Heydər Əliyev Sarayında möhtəşəm konsertlərimiz təşkil edilib. Bursa Dövlət Simfonik Orkestri, Dədə Qorqud Kamera Orkestri ilə birgə Möminə xatın türbəsi önündə gözəl konsert proqramımız olub. Məlumdur ki, pandemiya ilə bağlı arada gəlmək imkanımız olmadı. Amma yenidən biz bu gün buradayıq və böyük planlarımız var. Naxçıvanda musiqi həyatını yenidən bərpa etmək, Naxçıvana əlimizdən gələn dəstəyi göstərmək üçün, konservatoriyaya dəstək göstərmək üçün, hətta düşünürəm ki, ənənəvi musiqi festivalının təməlini qoymalıyıq. Artıq bütün bölgələrdə demək olar ki, bu ənənə var. Qəbələ, Şəki, Gəncə, Şuşada var və hətta Xarıbülbül də artıq bərpa olunub. Naxçıvanda da bu ənənə mütləq olmalıdır. Bununla bağlı fikirlər irəli sürüldü və mən düşünürəm ki, biz bunu əldə edə biləcəyik. Bir də ki, əsas məsələlərdən biri budur ki, Bakıdan gələn kollektivlər, sadəcə, gəlib çıxış edib qayıtmasınlar. Naxçıvandakı musiqiçilərlə bir araya gəlsinlər və birgə səhnəni bölüşsünlər. Məsələn, simfonik orkestrlə 40 nəfər Bakıdan gəlirsə, 30 nəfər də Naxçıvandan olsun.

Bir yerdə fəaliyyət göstərsək bu, ümumi işə də böyük stimul olar.

Xalq artisti Naxçıvanda keçirilən musiqili tədbirlərdən razı qaldığını da qeyd etdi. Bununla bağlı hazırlıqlarda iştirak edən müsahibimiz bildirdi ki, mən bu gün Naxçıvanda Heydər Əliyev Sarayında Naxçıvan Dövlət Universitetinin caz kollektivinin məşqində iştirak etdim, çox sevindim, eyni zamanda təəccübləndim, gördüm ki, hamısı naxçıvanlı gənclərdir, Bakıdan isə ancaq bir pianoçu Emil Əfrasiyab iştirak edəcək. Bu çox sevindirici bir haldır ki, artıq Naxçıvanda da ilk dəfə olaraq caz konserti olacaq. Təbii ki, buna çox sevinirik. Naxçıvan üçün burada əmək verən həmkarlarımıza, müəllimlərə uğurlar arzulayıram. Həqiqətən, bu görülən işlər çox böyük işdir. Bu işə dəstək olmağımız da bizim mənəvi borcumuzdur. Biz hamımız əsgərik. Azərbaycan xalqına, bayrağına, dövlətinə, mədəniyyətinə qulluq edirik. Bundan heç şübhəmiz yoxdur ki, ölkəmiz bundan sonra daha da inkişaf edəcək. Burada isə sizinlə sağollaşmıram, bir daha görüşmək ümidi ilə ayrılır və təşəkkür edirəm.



**Aidə İbrahimova**

# Ali təhsil ocağında kitab təqdimatları




*Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin əkskəşfiyyat şöbəsinin sabiq rəisi, Heydər Əliyevin səlahiyyətli hərbi nümayəndəsi Urfullah Qurbanov və "Naxçıvan" Universitetinin dissertantı, Ümumi tarix və Beynəlxalq Münasibətlər kafedrasının baş müəllimi Rəna Qurbanovanın birgə müəllifi olduqları "Xüsusi tapşırıq" adlı kitabının təqdimatı keçirilib.*

Tədbiri giriş sözü ilə açan Naxçıvan Dövlət Universitetinin rektoru, tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev Ümummilli lider Heydər Əliyevin səlahiyyətli hərbi nümayəndəsi kimi fəaliyyət göstərmiş Urfullah Qurbanovun Ulu Öndərlə bağlı xatirələrinin və rəsmi sənədlərin toplandığı "Xü-



susi tapşırıq" kitabının milli dövlətçilik və təklükəsizlik tariximizin öyrənilməsi baxımından mühüm əhəmiyyətə malik olduğundan bəhs edib.

Daha sonra çıxış edən NDU-nun məsləhətçi professoru, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, Əməkdar elm xadimi Hacı Fəxrəddin Səfərli, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair Asim Yadigar, kitabın həmmüəlliflərindən Rəna Qurbanova, jurnalist Rauf Kəngərli çıxış edərək təqdimatı keçirilən kitabın doğma yurdu sevməyin, ona təmənnasız xidmət göstərməyin nümunəsi olduğunu vurğulayıblar.

Sonda çıxış edən müəllif göstərilən diqqətə görə universitet rəhbərliyi və tədbir iştirakçılarına öz minnətdarlığını bildirib.

***




Naxçıvan Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyatı kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Arifə Zeynalovanın "Atalar sözləri və məsəllərin poetik dili" adlı kitabının təqdimatı keçirilib.

Tədbiri giriş sözü ilə açan universitetin elmi katibi, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Orxan Cəfərov təqdimatı keçirilən kitabın elmi, bədii xüsusiyyətləri barədə bəhs edib.




Daha sonra çıxış edən Azərbaycan dili və ədəbiyyatı kafedrasının professoru, filologiya elmləri doktoru Sədaqət Həsənova, Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru İman Cəfərli, Tarix-filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Arif Ağalarov və digər çıxışçılar müəllifin "Atalar sözləri və məsəllərin poetik dili" adlı kitabı haqqında bəhs edərək bu kitabın xalq deyimləri, hikmətləri və əxlaqi-tərbiyəvi məsələlərlə maraqlanan hər kəs üçün yararlı olacağını qeyd ediblər.

Sonda çıxış edən müəllif Arifə Zeynalova göstərilən qayğıya görə universitet rəhbərliyi və tədbir iştirakçılarına öz minnətdarlığını bildirib.

***

Naxçıvan Dövlət Universiteti Elmi Kitabxanasında Ümumi riyaziyyat kafedrasının dosenti Nailə Namazovanın "Adi differensial tənliklər" adlı dərs vəsaitinin təqdimatı keçirilib.



Dərs vəsaiti ali təhsil ocağının Fizika-riyaziyyat fakültəsində Adi differensial kursunun öyrənilməsinə həsr olunub. Kitabda nəzəri hissənin mənimsənilməsinə kömək məqsədilə hər bölməyə aid misallar və həll izahı nümunələri verilib.




Vəsaitdən universitetin riyaziyyat, fizika və adi differensial tənliklər tədris olunan bütün ixtisaslarda bakalavriat, magistrantlar, doktorantlar, müəllimlər, elmi-tədqiqatla məşğul olan əməkdaşlar da istifadə edə bilərlər.

Dərs vəsaiti dörd fəsildən ibarətdir.

**Çinarə İsmayılova**
**NDU Elmi Kitabxanasının baş kitabxanaçısı**

# Universitetin professor-müəllim heyətinin uğurları



NDU-nun müəllimi Türkiyənin Çankırı Karatekin Universitetində mühazirələr oxuyub.

Naxçıvan Dövlət Universitetinin baş müəllimi Kamran Vəlizadə Erasmus proqramı çərçivəsində 06-10 may 2024-cü il tarixlərində Türkiyə Respublikasının Çankırı Karatekin Universitetində səfərdə olub. Səfər çərçivəsində Multikulturalizm, Qloballaşma və dəyərlər mövzusunda mühazirələr oxuyub.

Beynəlxalq münasibətlər ixtisasının müəllim və tələbələrinin dinləyici olaraq iştirak etdiyi mühazirələr böyük maraqla qarşılanıb, dərslər müzakirə və suallarla davam etdirilib.

Sonda Kamran Vəlizadəyə universitet rəhbərliyi adından sertifikat təqdim edilib.

***

Naxçıvan Dövlət Universitetinin müəlliminin hazırladığı kristal duzundan qadın zinət əşyası patentə layiq görülüb

Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsinin Təsviri incəsənət kafedrasının müəllimi Əzizə Məmmədovanın kristal Naxçıvan duzundan və Himalay duzundan hazırladığı üzük Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində





olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi tərəfindən patentə layiq görülüb.

Əzizə Məmmədovanı bu münasibətlə təbrik edir, fəaliyyətində uğurlar arzulayırıq.

***

Naxçıvan Dövlət Universitetinin Baytarlıq təbabəti kafedrasını müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent Mahir Mə-


Far Eastern Entomologist
Дальневосточный Энтомолог

Journal Info Publication Ethics List of Issues Contact

Mokrousov M.V., Proshchalykin M.Yu., Maharramov M.M.

To the taxonomy of *Harpactus vedicus* Nesterov, 1994 (Hymenoptera, Crabronida[e,] Bembicinae)

*Number:* 499, *Pages:* 19 - 24

*Harpactus vedicus* Nesterov, 1994 is resurrected from synonymy of *H. elegans* (Lepeletier de Saint Fargeau, 1832). A new synonymy is proposed f[or] ... *vedicus* Nesterov, 1994 = *H. transcaucasicus* Nemkov, 1994, **syn. n.**

Full text

hərrəmovun "To the taxonomy of Harpactus vedicus Nesterov, 1994 (Hymenoptera, Crabronidae, Bembicinae)" adlı məqaləsi Scopus bazalı Far Eastern Entomologist jurnalında nəşr edilib.

***

Texnoloji transfer və innovasiyalar bölməsinin böyük mütəxəssisi Kimya üzrə fəlsəfə doktoru Hüseyn İmanov beynəlxalq təlim platforması "ALISON" - da hazırda dünyada ən çox tətbiq edilən "Keyfiyyəti İdarəetmə Sistemi (Quality Management System) ISO 9001:2015 standartı" kursunu yekunlaşdıraraq sertifikatla təltif olunub.

***




Naxçıvan Dövlət Universitetinin əməkdaşları Cavid Babayev və Səyyarə Sadıxovanın "The Most Ideal L2 Teaching Method" adlı məqaləsi Scopus bazalı "International Journal of Religion" jurnalında nəşr edilib.


International Journal of Religion

The Most Ideal L2 Teaching Method

Document type
Article • Hybrid Gold Open Access
Source type
Journal
ISSN
2633352X
DOI
10.61707/nh76fk58
View more

Javid, Babayev[a]; Sayyara, Sadikhova[b]
Save all to author list

[a] Faculty of foreign languages, Nakhchivan State University, Azerbaijan
[b] Faculty of Art, Nakhchivan State University, Azerbaijan

Əməkdaşlarımızı təbrik edir, elmi-pedaqoji fəaliyyətlərində uğurlar arzulayırıq.

**M.DÜNYAMALIYEV**

# Təlim və təcrübələr təşkil edilib



"Yaşıl Dünya Naminə Həmrəylik İli" çərçivəsində Naxçıvan Dövlət Universiteti Texniki Kollecinin "Aqrar təsərrüfatının təşkili" və "Baytarlıq" ixtisaslarının III kurs tələbələri Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi və onun tabeli qurumlarında baramaçılıq sahəsinə cəlb ediliblər.

İstehsalat təcrübəsi çərçivəsində tələbələr baramaçılıq fəaliyyəti ilə yaxından tanış olur, barama yetişdirilməsi prosesində yaxından iştirak edir, bu sahə ilə bağlı ətraflı məlumat əldə ediblər.

***

Naxçıvan Dövlət Universitetinin tələbələri üzümçülük plantasiyası və alma bağında istehsalat təcrübəsi keçirlər. Tədris prosesinin təkmilləşdirilməsi və daha sə-



mərəli qurulma predmetlərindən biri də istehsalat təcrübəsidir. Bu baxımdan Naxçıvan Dövlət Universitetinin Torpaqşünaslıq və Aqrokimya ixtisasının 4-cü kurs tələbələri "APF Group" Məhdud Məsuliyyətli Cəmiyyətinin Nehrəm qəsəbəsi ərazisindəki üzümçülük plantasiyası və alma bağında istehsalat təcrübəsi keçirlər.

İyun ayının 5-ə qədər davam edəcək təcrübənin keçirilməsində əsas məqsəd tələbələrin nəzəri biliklərini möhkəmləndirmək və sonrakı əmək fəaliyyətində istifadəsini təmin etməkdən, onların ixtisas profilindən və xüsusiyyətindən asılı olaraq yeni texnologiyalarla, iş üsulları ilə tanış etməkdən, o cümlədən işgüzarlıq, təşkilatçılıq və texnologiya vərdişləri aşılamaqdan ibarətdir.

Qeyd edək ki, təcrübənin ilk günü Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev təcrübəçi tələbələrlə görüşüb, istehsalat təcrübəsinin gedişatı ilə maraqlanıb.

***

Çankırı Karatekin Universitetinin professoru Naxçıvan Dövlət Universitetində mühazirələr oxuyub.

Erasmus KA171 müəllim mobilliyi proqramı çərçivəsində Türkiyənin Çankırı



Karatekin Universiteti İqtisadiyyat kafedrasının müdiri professor Harun Yakışık Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsində tələbələr üçün mühazirələr oxuyub.

Proqram çərçivəsində Naxçıvan Dövlət Universiteti və Çankırı Karatekin Universiteti arasında əməkdaşlığa əsasən İqtisadiyyat ixtisası üzrə ikili diplom proqramı ilə təhsil alan tələbələrlə görüş keçirilib, tələbələri maraqlandıran suallar cavablandırılıb.

**Tərlan İbrahimova**

# NDU-nun nəzdindəki kolleclərdə müxtəlif səpkili tədbirlər keçirilib



*NDU-nun nəzdində fəaliyyət göstərən Naxçıvan Texniki Kollecinin tələbələri istehsalat təcrübələrində olublar.*

Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Naxçıvan Dövlət Texniki Kollecinin Rabitə qovşaqları və kommunikasiya sistemləri, Telekommunikasiya və kompüter sistemlərinin informasiya təhlükəsizliyi ixtisasının tələbələrinin Naxçıvan İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində istehsalat təcrübələri baş tutub.

Buraxılış qruplarında təhsil alan tələbələr təhsil müddətində alacaqları nəzəri bilikləri istehsalatda təcrübi cəhətdən həyata keçiriblər.

***



“Yaşıl Dünya Naminə Həmrəylik İli” çərçivəsində “Nəqliyyat vasitələri və Ətraf mühit” mövzusunda açıq dərs keçilib.

“Yaşıl Dünya Naminə Həmrəylik İli” çərçivəsində Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Naxçıvan Dövlət Texniki Kollecində Nəqliyyat fənn birləşməsi komissiyasının sədri Hafiz Yaqubov “Nəqliyyat vasitələri və Ətraf mühit” mövzusunda açıq dərs keçib.

Dərsdə bildirilib ki, qalıq yanacaq istehsalçısı və ixracatçısı olan Azərbaycan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edərək hökumətin iqlim dəyişikliyi ilə bağlı ciddi tədbirlər görmək strategiyasını nümayiş etdirir.

Sonda isə ətraf mühit ilə bağlı videoçarx izlənilib.

***

“Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində Naxçıvan Dövlət Universitetinin Tibb Kollecində tədbir keçirilib.

Tədbirdə son illər planetimizdə baş verən təbii fəlakətlər, qlobal istiləşmə, daşqınlar, torpaq sürüşmələri və digər kataklizmlər haqqında müzakirələr aparılıb. Ətraf mühitin saflaşdırılmasında, mühafizəsində meşələrin, yaşıllıqların rolunun əvəzolunmaz olduğu vurğulanıb.

Sonra kollec tələbələrinin “Yaşıl gələcək bizdən sonrakı




nəsillərə verəcəyimiz ən dəyərli mirasdır” adlı çıxışları dinlənilib.

***

“Azərbaycanın Qara Qızılı-Neft” mövzusunda Viktorina təşkil olunub.

Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Naxçıvan Dövlət Texniki Kollecində Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə əlaqədar tələbələr arasında “Azərbaycanın Qara Qızılı-Neft” mövzusunda Viktorina təşkil olunub.

3 komandanın iştirakı ilə keçirilən yarışda qalib koman-



dalar diplomlarla təltif edilib.

***

Naxçıvan Dövlət Universitetinin Tibb Kollecində Naxçıvan Muxtar Respublukasının 100 illik yubileyinə həsr olunmuş “İlk yardım” simulyasiyası keçirilib.



Tələbələr ürəyin qapalı masajı, süni tənəffüs, ilan və həşərat sancmaları, sınıq, çıxıq, burxulma qanaxmalar, asfiksiya, suda batma, anaflaktik şok, zəhərlənmələr, uzunmüddətli sıxılma sindiromu (kraş), epilepsiya, bayılma hipo və hiper qlikemik komalar, günvurma, donvurma, yanıqlar, botulizm və tetanus, tiraj mövzuları haqqında ilk tibbi yardımı göstəriblər.

***

Naxçıvan Dövlət Universitetinin Tibb Kollecində Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş ”Naxçıvan ədəbi mühitindən Hüseyn Cavid” mövzusunda tədbir keçirilib.

Tədbirdə dramaturqun həyat və yaradıcılığından bəhs edi-




lib, “İblis” əsərindən və “Azər” poemasından parçalar səsləndirilib.

***

Naxçıvan Dövlət Universitetinin Tibb Kollecində Ailə,



Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi əməkdaşlarının iştirakı ilə Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” olması ilə əlaqədar olaraq “Qadınların iştirakı ilə ekosistemin idarə edilməsi” mövzusunda tədbir keçirilib.

***

Naxçıvan Dövlət Universitetinin Musiqi Kollecində Fortepiano şöbəsinin müdiri Zülfiyyə Əliyevanın muxtar res-



publikanın 100 illik yubileyinə həsr edilən “Sinif konserti” keçirilib. Konsertdə səsləndirilən ifalar dinləyicilərdə xoş təəssürat yaradıb.

# 28 May-Müstəqillik Günü qeyd edilib



Tədbirdə Ulu öndərin və şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası tərəfindən İstiqlal Bəyannaməsi imzalanmaqla Azərbaycanın müstəqilliyini dünyaya bəyan olunduğunu qeyd edib, bu hadisənin Azərbaycan dövlətçiliyi tarixində şanlı səhifə olduğunu vurğulayıb. Qeyd olunub ki, Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu 23 aylıq qısa müddət ərzində bir çox mühüm nailiyyətlərə imza atılıb, Azərbaycanın ilk parlamenti və hökuməti yaradılıb, dövlət atributları təsis olunub, dövlət sərhədləri müəyyənləşdirilib. Rektor ölkəmizin 1991-ci ildə müstəqilliyini bərpa etdiyini, bununla belə, müstəqilliyin ilk illərində bir çox çətinliklərlə üzləşdiyini bildirib. Məhz xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliyi və müdrik siyasəti sayəsində Azərbaycanın dayanıqlı inkişafının təmin olunduğu vurğulanıb. Azərbaycan Xalq Cümhuriyyəti Türk və İslam dünyasında ilk parlamentli respublika, ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsidir: ”Bu şanlı tarix Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2021-ci il 15 oktyabr tarixində təsdiq etdiyi “Müstəqillik Günü haqqında” Qanunla Müstəqillik Günü kimi qəbul edilib. Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı Prezident İlham Əliyevin atdığı addımları da xatırladıb: “2018-ci ildə Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Sərəncam imzalanıb və bu tarixi hadisə münasibətilə 2019-cu il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunaraq ölkədə və onun hüdudlarından kənarda silsilə tədbirlər keçirilib. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə demokratik, hüquqi, dünyəvi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesi müvəffəqiyyətlə davam etdirilir, respublikamızda siyasi, iqtisadi və sosial islahatlar uğurla həyata keçirilir, ölkə iqtisadiyyatı inkişaf edir. Müstəqil, qüdrətli, ərazi bütövlüyünü təmin etmiş Azərbaycanın həyatında yeni səhifələr açılır”.

Universitetin Azərbaycan tarixi kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru Zamin Əliyevin “28 May-Müstəqillik Günü Azərbaycan tarixinin şanlı səhifəsidir” mövzusunda çıxışı dinlənilib.

Əlamətdar tarixi gün ilə bağlı məktəbin IX sinif şagirdi Hüseyn Tahirovun videoslaydı nümayiş olunub.



Məktəbin VIII sinif şagirdi Ayxan İsayev “28 May-Müstəqillik Günü: Tarix və qürur” mövzusunda çıxış edib.

Tədbir universitetin İncəsənət fakültəsi tələbələrinin və Beynəlxalq məktəbin şagirdlərinin hazırladığı bədii hissə ilə davam edib. Tədbirdə şagirdlər şeirləri bədii qiraət edib, mahnılar səsləndirib, səhnəciklər göstəriblər.

# Tələbələr arasında bədii yaradıcılıq müsabiqə-festivalı



Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş Bakı şəhəri, Heydər Əliyev sarayında ali təhsil müəssisələrinin tələbələri arasında bədii yaradıcılıq müsabiqə-festivalının yekun konserti keçirilib.

Bədii yaradıcılıq müsabiqə-festivalının keçirilməsində məqsəd tələbələri milli vətənpərvərlik, mədəniyyətimizə, incəsənətimizə, milli adət-ənənələrimizə hörmət ruhunda tərbiyə etməkdir. Həmçinin, incəsənət və mədəniyyətimizin ayrı-ayrı sənət növləri üzrə istedadlı gənclərin üzə çıxarılması, onların qabiliyyətlərinin inkişaf etdirilməsinə dəstək vermək də məqsədlər sırasında olub.

Konsertdə Naxçıvan Dövlət Universitetinin Yallı qrupunun ifası tamaşaçılar tərəfindən maraqla qarşılanıb. Eyni zamanda universitetin tələbələri Pınar Həsənovanın ifasında “Ana yurdum” aşıq mahnısı, Akif Əliyevin qiraətində “Azərbaycan bayrağı” şeiri münsiflər tərəfindən yüksək qiymətləndirilib.

# Heydər Əliyev fenomeni: dünəndən bu günümüzə, bu gündən sabahımıza

***XX əsr tariximizin parlaq siması, böyük şəxsiyyəti olan zamanın dahisi Heydər Əliyevin siyasi portreti Azərbaycan xalqının dövlətçilik təfəkkürünün, tarixin sınağından şərəflə çıxmış müdrik idarəçilik məktəbinin canlı təcəssümüdür. Tarixşünaslıq ulu öndər Heydər Əliyev şəxsiyyətini öyrəndikcə, əslində, müstəqil Azərbaycan dövlətinin tarixi keçmişini, bugününü, ölkəmizdə həyata keçirilən dövlət quruculuğu prosesini öyrənir.***

Məşhur amerikalı siyasi xadim və politoloq Zbiqnev Bjezinski demişdi: "Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət – bir sözlə, şəksiz liderdir". Bəli, Azərbaycan xalqının şəksiz lideri onu addım-addım irəliyə aparıb qələbələrə çatdırdı. Dahi lider haqqında Böyük Britaniyanın sabiq Baş naziri Toni Bleyer yazırdı: "Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər…"

Xeyirxahlıq və alicənablıq, inam və etibar, təmkin və səmimiyyət, zəka, diqqət və başqa cəhətlər ulu öndər Heydər Əliyevin fərdi keyfiyyətləri idi. Dahi lider böyük siyasət üçün yaranan, təkcə bir ölkə miqyasında yox, dünya əhəmiyyətli məsələlərin həllində qətiyyətli sözünü deyə bilən nadir siyasətçi idi. Onun bu sahədəki fitri istedadı və fövqəladə qabiliyyəti, hadisələrin və tarixin gedişini öncədən görmək məharəti siyasət aləminə qədəm qoyduğu ilk günlərdən özünü büruzə vermişdi.

Ulu öndər Azərbaycan xalqının və dövlətinin xilas missiyasına Naxçıvandan başladı. Ulu öndərin 1990-cı ilin ortalarında, Naxçıvanın çətin vaxtlarında bura qayıtması bu qədim Azərbaycan torpağını təhlükələrdən sovuşdurdu. Ən əsası, bu qayıdışla Azərbaycanda müstəqillik uğrunda mübarizə özünün yeni mərhələsinə qədəm qoydu, imperiya qüvvələri ilə mübarizə daha da genişləndi. Xalqımızın dahi oğlunun alovlandırdığı istiqlal mücadiləsi milli dirçəliş prosesinin bütün Azərbaycanda aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı. SSRİ hökumətinin hələ fəaliyyətdə olduğu dövrdə Naxçıvan MSSR-in adından "Sovet Sosialist" sözlərinin çıxarılması zamanın dahisi Heydər Əliyevin sarsılmaz siyasi iradəsinin və böyük uzaqgörənliyinin nəticəsində mümkün oldu. Eyni zamanda, həmin sessiyada dahi rəhbərin təklifi ilə Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi adlandırılması da sadəcə sözün redaktəsi deyildi. Bu, dünyada Sovet İttifaqı kimi tanınan, siyasi sistemini sovetlər üstündə quran möhtəşəm bir ölkənin siyasi strukturunda dəyişiklik edilməsi demək idi. Bütün bunlar yalnız və yalnız Naxçıvan Muxtar Respublika Ali Məclisinin sessiyasına sədrlik edən ulu öndərin həm böyük siyasi iradəsinin, yüksək azərbaycançılıq idealının, həm də qeyri-adi cəsarətinin sayəsində həyata keçirilmişdi.

Ötən əsrin 90-cı illərinin əvvəlindən etibarən ölkədə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər də bir daha təsdiqlədi ki, müstəqilliyin qorunub saxlanılması onun qazanılmasından qat-qat çətindir. Ölkədə 1991-1993-cü illərdə hakimiyyətdə xalqın etimad göstərdiyi siyasi qüvvənin olmaması dövlət idarəçiliyi mexanizmlərinin formalaşmasında ciddi maneəyə çevrilməklə yanaşı, daxili böhranın, vətəndaş itaətsizliyinin, xaos və anarxiyanın yaranmasına rəvac vermişdi. Belə ağır şəraitdə respublikanın tərəqqipərvər qüvvələri, mütərəqqi ruhlu ziyalıları çıxış yolunu ulu öndər Heydər Əliyev kimi müdrik şəxsiyyətin hakimiyyətə gəlməsində görür, hər cür riskə rəğmən, bu istəklərini açıq ifadə etməkdən çəkinmirdilər.

Həmin illərdə obyektiv səbəblərdən Naxçıvana gedə bilməyənlər isə muxtar respublikanın Ali Məclisinin Sədri Heydər Əliyevin ünvanına saysız-hesabsız müraciətlər, teleqramlar göndərərək xalqı düşdüyü bəlalardan qurtarmağı xahiş edirdilər. Azərbaycanın düçar ola biləcəyi fəlakətlərin qarşısının vaxtında alınması məqsədilə sağlam qüvvələrin ulu öndər Heydər Əliyevin ətrafında birləşmək niyyəti yalnız bir qrup ziyalının deyil, respublikamızın bütün bölgələrində, şəhər və kəndlərində ayrı-ayrı vətəndaşlar, müxtəlif sosial qruplar arasında eyni zamanda başlanmışdı. İlk dövrlərdə kortəbii, dağınıq fəaliyyət getdikcə daha mütəşəkkil xarakter almış və yeni partiyanın yaradılması üçün dahi liderə yazılı müraciət edilməsi zərurətini doğurmuşdu.



Xalqın rəyini ifadə edən bir qrup ziyalı ümummilli liderə müraciətində ölkəni anarxiya mühitindən çıxarıb aydın sabaha doğru aparacaq, müstəqilliyimizi əbədi və yenilməz edəcək, millətimizi bir bayraq, eyni amal ətrafında birləşdirəcək, milli həmrəyliyə, vətəndaş cəmiyyətinə qovuşduracaq siyasi partiyanın yaradılmasına yardımçı olmağı xahiş edirdilər. Müraciəti imzalayanlar yaxşı bilirdilər ki, yeni müstəqillik qazanmış ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət Heydər Əliyevdir. Vətənpərvər Azərbaycan ziyalılarının həmin müraciəti sonralar çağdaş tariximizə məşhur "91-lərin müraciəti" adı ilə daxil oldu. Bu tarixi müraciət, əslində, bütün Azərbaycan vətəndaşlarının istəyi, arzusu, haqlı tələbi idi. Xalqın taleyinə heç zaman biganə qalmayan, respublikanın dağılmasına dözməyən ulu öndər ziyalıların müraciətinə müsbət cavab verdi: ***"Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Əgər belə partiya yaradılarsa, onun fəaliyyətində iştirak etməyə hazıram".***

Nəhayət, 1992-ci il noyabrın 21-də müstəqil Azərbaycanın çağdaş dövlətçilik tarixində yeni səhifə açan əlamətdar hadisə baş verdi. Naxçıvanda 550-yə yaxın nümayəndənin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis qurultayı keçirildi, ulu öndər Heydər Əliyev yekdilliklə təşkilata sədr seçildi. Yeni Azərbaycan Partiyasının qısa müddətdə cəmiyyətdə həlledici çoxluq tərəfindən ölkəni idarə etməyə qadir alternativsiz qüvvə kimi qəbul olunması da məhz ulu öndər Heydər Əliyevin fenomenal liderlik və idarəçilik keyfiyyətləri ilə şərtlənirdi. Qarşıda isə ulu öndəri daha çətin, eyni zamanda, şərəfli bir missiya gözləyirdi...

1993-cü il iyun ayının 9-da xalqın təkidi ilə Bakıya qayıdan ulu öndər təbiətin ona bəxş etdiyi fövqəlidarəçilik keyfiyyətlərindən məharətlə bəhrələnərək ölkəni vətəndaş qarşıdurmasından, müstəqilliyimizi itirmək təhlükəsindən qurtardı, çağdaş tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil oldu. İyunun 15-də ulu öndər Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçilməsi isə ölkədəki kütləvi inamsızlıq, hərc-mərclik mühitinin aradan qalxmasına, siyasi gərginliyin tədricən azalmasına, sözün həqiqi mənasında xalqın böyük fəlakətlərdən qurtulmasına real zəmin yaratdı. Məhz bu xilaskar missiyanın nəticəsi kimi Azərbaycan xalqı 1993-cü ilin oktyabrında Yeni Azərbaycan Partiyasının sədri Heydər Əliyevə etimad göstərərək onu özünün layiqli rəhbəri seçdi, bununla da ölkəmiz davamlı və dönməz inkişaf yoluna qədəm qoydu. Prezident seçilən Heydər Əliyev 1993-cü il oktyabrın 10-da keçirilmiş andiçmə mərasimində ***"Belə bir yüksək və məsuliyyətli vəzifəni üzərimə götürərkən birinci növbədə Azərbaycan zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edib. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm"*** deyərək müstəqil Azərbaycanın milli inkişaf strategiyasını irəli sürərək onun həyata keçirilməsinə başladı.

Ulu öndər Heydər Əliyevin Prezident seçiləndən sonra müstəqil Azərbaycan dövlətinin hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi sürətləndi. Ulu öndər ilk növbədə ölkədə ictimai-siyasi sabitliyin bərpası istiqamətində gərgin iş aparmalı oldu - qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirildi, respublikamızın sosial-iqtisadi yüksəlişinə yol açan ən mühüm tədbirlər həyata keçirilməyə başlandı. Dövlət çevrilişlərinin qarşısı alındı, Azərbaycan vətəndaş müharibəsi təhlükəsindən xilas oldu. Müstəqil dövlətimizin ərazi bütövlüyünün bərpası və Ermənistan silahlı qüvvələrinin hücumlarının qarşısının alınması, ölkənin müstəqilliyinin qorunub saxlanması üçün ordu quruculuğu istiqamətində kompleks tədbirlər həyata keçirildi.

Ümummilli lider Heydər Əliyev cəmiyyətin sivil inkişafını hər bir fərdin maraq və mənafelərinin etibarlı təminatında görərək bunun üçün bütün zəruri tədbirləri həyata keçirirdi. Məhz ulu öndərin gərgin səyi nəticəsində müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradıldı. Hüquqa və ədalətə söykənən vətəndaş cəmiyyətinin əsası qoyuldu, onun təkmilləşdirilməsi prosesi uğurla davam etdirildi. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatı sahəsində Yeni Azərbaycan Partiyasının qarşıya qoyduğu məqsədləri özündə ehtiva edirdi. Ulu öndərin yeritdiyi siyasət hər bir fərdin maraq və mənafeyini özündə ehtiva etdiyindən qısa zamanda cəmiyyətin ən müxtəlif zümrələrinin Yeni Azərbaycan Partiyasına sürətli axınına səbəb olmuş, onların ictimai-siyasi həyatda fəallığı əhəmiyyətli dərəcədə artmışdı. Partiyanın statusu tədricən yeni şəraitə uyğun olaraq dəyişmiş, ölkənin siyasi həyatında tutduğu mövqe möhkəmlənmişdir.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan xalqının suverenlik arzusunu tarixi reallığa çevirmiş, böyük qurbanlar bahasına əldə olunmuş müstəqilliyi zamanın çətin sınaqlarından çıxararaq qoruyub saxlamışdır. Azərbaycan xalqı öz böyük oğlunu yalnız siyasi lider kimi deyil, həm də milli dövlətçilik ideologiyasının şəriksiz müəllifi kimi qəbul edir. Çünki ulu öndər Heydər Əliyev siyasi kursundan kənarda müstəqil Azərbaycan dövlətçiliyi yoxdur.Dahi şəxsiyyət Azərbaycanda hamının eyni dərəcədə inandığı bir ideologiyanın müəllifidir. O, bütün vətəndaşların hüquqlarını qoruya bilən bir dövlətin əsasını qoydu və yalnız hüququn aliliyinə əsaslanan idarəetmə sistemi yaratdı. Ümummilli liderimizin gərgin səyləri ölkədə sabitliyin yaradılmasına və normal siyasi münasibətlər sisteminin formalaşmasına gətirib çıxardı ki, bu da ümumilikdə dövlətin siyasi əsaslarının möhkəmləndirilməsinə səbəb oldu.

Ümummilli liderin siyasəti milli maraqlar üzərində qurulmuşdu. Zamanın dahisi tariximizi tarixçidən, incəsənəti sənətşünasdan, iqtisadiyyatı iqtisadçıdan yaxşı bilirdi. Onun mülahizələri problemlərə dərindən bələdlik, hadisələrin məğzinə, səbəb-nəticə əlaqələrinə nüfuz etmək xüsusiyyəti ilə seçilirdi. Azərbaycanın daxili siyasətini istiqamətləndirən, xarici siyasətini beynəlxalq hüquq normalarına uyğun, məqsədyönlü və tarazlaşdırılmış şəkildə aparan qətiyyətli dövlət xadimi çox hallarda ən tanınmış siyasətçiləri belə təəccübləndirirdi.

Dahi şəxsiyyət Heydər Əliyev başqalarından fərqli olaraq qeyri-adi zəkaya, böyük enerjyə, islahatçı və yüksək analitik təfəkkürə, yenilməz iradəyə malik siyasətçi idi. Ona görə də bir sıra hallarda ulu öndər Heydər Əliyevi "siyasət nəhəngi", "siyasət qrosmeysteri" kimi xarakterizə edirlər.

Həyatımızın elə bir sahəsi yoxdur ki, orada ümummilli liderimizin izi olmasın. Bugünkü Azərbaycanın sürətli inkişafının təməl daşları da məhz qüdrətli rəhbərin qüdrətli əlləri ilə hörülüb. Müstəqil Azərbaycan dövləti ulu öndərin şah əsəridir. Ümummilli liderimiz bir azərbaycanlı, vətəndaş və rəhbər kimi yeganə amalının varlığı qədər sevdiyi Azərbaycan xalqına, dövlətinə, ölkənin iqtisadi-siyasi, mənəvi inkişafına xidmət etməkdən ibarət olduğunu söyləyirdi.

Zamanın dahisinin bizə ərməğan etdiyi zəngin irsi bu gün də, sabah da öyrənilməli, onun əsas mahiyyəti dərk edilməlidir. Bu zəngin irs müstəqil Azərbaycan dövlətinin sütunudur. Məhz bu qüdrətli sütunlar üzərində ucalan müasir Azərbaycan güclü ola bilib. İndiyədək əldə etdiyimiz bütün bu möhtəşəm nailiyyətlərin təməlində dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycanın nəinki bugünkü, hətta bir neçə əsr bundan sonrakı inkişafını da təmin etməyə qadir olan siyasi kursu, milli konsepsiyaları dayanır.

Bu gün ölkəmiz bu siyasətin uğurlarını hiss edir, onunla yaşayır və ondan faydalanır. Ulu öndərimizin layiqli siyasi varisi cənab İlham Əliyevin rəhbərliyi ilə bu siyasəti yaşayır və uğurla davam etdirilir. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın sabaha olan inamını daha da artırmışdır. Ulu öndər Heydər Əliyev siyasətinin Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini aydın görən xalqımız bu siyasəti yüksək dəyərləndirib və onun ətrafında daha sıx birləşiblər.

Əbədiyaşar Liderin ən böyük arzusu tarixi torpaqlarımızın işğaldan azad edilməsi, bütün ömrü boyu sədaqətlə xidmət etdiyi doğma Azərbaycanımızın ərazi bütövlüyünün bərpası idi. Ümummilli Lider illər öncə böyük uzaqgörənliklə deyirdi: "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun".

Bəli belə də oldu. Tarixi zaman baxımından çox qısa dövr keçdi. işğal altındakı torpaqlarımız azad olundu. Həmin vaxt 17 ildən sonra yetişdi. Dahi şəxsiyyətin bu arzusunu, vəsiyyətini onun layiqli siyasi varisi, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan, qüdrətli sərkərdə İlham Əliyevin rəhbərliyi və müdrikliyi ilə rəşadətli Azərbaycan Ordusu yerinə yetirdi. Azərbaycanın Müzəffər Ordusu 30 illik işğala son qoydu. Beləliklə, düşmənin illərlə yaratdığı "məğlubedilməz ordu" mifi 44 gün ərzində bütün dünyanın gözü qarşısında iflasa uğradı. 2023-cü ilin sentyabr ayında birgünlük lokal antiterror tədbirləri nəticəsində Qarabağda separatizmin kökü kəsildi, cinayətkarlar ağ bayraq qaldırdılar. Ermənistan ordusu darmadağın edildi və "Dəmir yumruq" əməliyyatı Azərbaycanın Şanlı Qələbəsi ilə başa çatdı. Qarabağ üzərində suverenliyin tam bərpa edilməsi və Rusiya sülhməramlı kontingentinin ölkə ərazisindən çıxması mühüm qələbələr silsiləsində yeni mərhələ oldu. 4 qeyri-anklav kəndin bir güllə belə atılmadan, qan tökülmədən Azərbaycana qaytarılması isə Prezident İlham Əliyevin siyasi iradəsinə əsaslanan növbəti böyük qələbəmiz oldu.

Bəli, bu gün hər bir Azərbaycan vətəndaşı çox yaxşı bilir ki, bu uğurlara ölkə Prezidentinin vaxtilə dediyi **"...Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərək mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm"** fikirlərinə sadiqliyin nəticəsində nail olundu.

Ötən illərə baxdıqca bir daha əmin oluruq ki, ölkəmizdə Heydər Əliyev siyasi kursunun alternativi yoxdur. Bu yol ölkəmizin bu gününün, sabahının və gələcəyinin yoludur.

**Arzu ABDULLAYEV**
**Naxçıvan Dövlət Universitetinin prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent**

# Milli Konstitusiyamız ölkə vətəndaşlarının hüquqları və azadlıqlarının əsas təminatçısıdır

*Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra milli qanunverici aktların qəbul edilməsi, hüquqi islahatların həyata keçirilməsi qaçılmaz amilə çevrilmişdir. Dövlətçiliyin, qanunçuluğun möhkəmləndirilməsi istiqamətində qətiyyətli addımlar atılmağa başlanıldı. Demokratik dövlətin formalaşıb inkişaf etməsi hər bir sosial-siyasi şəraitə uyğun xarakterik formada həyata keçirilir. Azərbaycan reallığına nəzər yetirdikdə biz demokratik idarəçilik sistemində milli dövlətçilik ənənələrinin qorunmasının şahidi oluruq. Bununla yanaşı, ümumbəşəri dəyərlər, dünyanın demokratik dövlətlərinin təcrübəsindən də bəhrələnildiyinin şahidi oluruq. Bu da özlüyündə təqdirolunası bir hal kimi qiymətləndirilə bilər.*

Faktiki olaraq demokratiyanın əsas göstəricisi kimi xalq tərəfindən seçilən adamların hakimiyyətini ilk növbədə qeyd edə bilərik. Bununla yanaşı, demokratiyanın digər cəhətləri kimi hakimiyyətin mənbəyinin xalq olması, siyasi hakimiyyətin qəbul olunmuş qanunlara müvafiq olaraq icrası, qanunverici, icraedici və məhkəmə hakimiyyətinin mövcudluğunu da göstərə bilərik. Bu sıralamada əsas insan hüquq və azadlıqlarının təminatı və müdafiəsi xüsusilə əhəmiyyət kəsb edən bir faktordur. Demokratiya insan hüquq və azadlıqlarına hörmət bir-biri ilə üzvi surətdə bağlı olan amillərdəndir. Müasir dövrdə insanın əsas hüquqları dedikdə dövlətlərin konstitusiyalarında və insan hüquqlarına dair beynəlxalq hüquqi sənədlərdə təsbit olunmuş hüquqlar nəzərdə tutulur.

Azadlıq, bərabərlik, ədalət prinsiplərinə əsaslanan və universal xarakter daşıyan insan hüquqlarının müdafiəsi vətəndaş cəmiyyəti üçün başlıca amillərdəndir. Azərbaycan Respublikasında milli dövlətçiliyi və vətəndaş cəmiyyətini şərtləndirən demokratik prinsiplər sırasında eyni zamanda, qanunvericilik və institusional islahatların aparılması, hüquqi dövlət quruculuğunun formalaşmasını qeyd etmək lazımdır. Yeni demokratik cəmiyyət modelinin başlıca amillərdən biri də konstitusion dövlətin mövcudluğudur. Azərbaycan dövlətinin mövcud xüsusilə insan hüquqlarının təmini baxımdan xüsusi əhəmiyyətə malik olan konstitusiyası hüquqi islahatların zirvə nöqtəsi hesab oluna bilər.

Qeyd edək ki, 1995-ci ildə insan hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan edən ilk milli Konstitusiyamızın başlıca qayəsini Azərbaycan Respublikasının 18 oktyabr 1991-ci ildə qəbul etdiyi "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"ndan irəli gələn müddəalar təşkil etdi. Bu müddəaların konstitusiyada təsbit olunması ilə yanaşı, icrası da zəruriləşdi. 1995-ci ildən etibarən Azərbaycan dövlətinin bu istiqamətdə həyata keçirdiyi hüquqi islahatlar və demokratikləşmə yolu təqdirəlayiqdir. Beləliklə, Konstitusiyanın qəbul olunması ilə demokratik dəyərlər üstünlük təşkil etməyə, Avropaya inteqrasiya olunmağa başlanıldı. Ən əsası isə vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu istiqamətində mühüm uğurlara nail olundu.

1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş milli konstitusiya ölkədə demokratikləşmə siyasəti fonunda mütərəqqi addım hesab olunur. Giriş, 5 bölmə, 12 fəsil, 158 maddə və keçid müddəalardan ibarət olan milli Konstitusiyamız ictimai münasibətlərin tənzimlənməsi, insan hüquq və azadlıqlarının tanınması və müdafiəsi baxımından xüsusilə əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, konstitusiyamızın mühüm fəlsəfi özəlliyi Azərbaycanda daha öncə heç bir hüquqi sənəddə belə geniş şəkildə vətəndaş hüquq və azadlıqlarına dair ayrıca fəsil ayrılmamasıdır. Təsadüfi deyildir ki, hüquqi dövlətdə mühüm yer tutan insanın əsas hüquq və azadlıqlarına konstitusiya hüquqlarında deyilir.

Milli Konstitusiyamızda insan və vətəndaş hüquq və azadlıqları xarakterik olaraq şəxsi hüquqlar və azadlıqlar, siyasi hüquqlar və azadlıqlar, iqtisadi, sosial və mədəni hüquqlar və azadlıqlar əsasları ilə qruplaşdırılmışdır. Bütün bu hüquqları ölkə vətəndaşları doğulduqları bir gündən əldə edirlər.

Azərbaycan Respublikası Konstitusiyasının II bölməsinin III fəsli məhz bizim mühakirə predmetimiz olan "Əsas insan və vətəndaş hüquqları və azadlıqları"na həsr olunmuşdur. 71 maddədən ibarət olan bu fəsildə insan və vətəndaşların hüquqları və azadlıqlarının toxunulmaz, pozulmaz və ayrılmaz olduğu qeyd olunmuşdur. Konstitusiyada eyni zamanda, insan hüquq və azadlıqlarının aliliyi göstərilmiş, onların hər hansı normativ-hüquqi aktla və ya hər hansı vəzifəli şəxs tərəfindən məhdudlaşdırılmasının, yaxud ləğv edilməsinin yolverilməzliyi təsbit edilmişdir. Konstitusiyanın 12-ci maddəsinin I hissəsində deyildiyi kimi "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir.

"Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlı 3-cü fəslin "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipi" adlı ilk maddəsində insan ləyaqətinin qorunduğu və ona hörmət edildiyi, hər




kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqlarının olduğu, hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə etdiyi, hüquqlardan sui-istifadənin yol verilməz olduğu əks olunmuşdur. Adıçəkilən fəslin müvafiq olaraq sonrakı maddələrində əsas insan və vətəndaş hüquqları və azadlıqları geniş şəkildə əks etdirilmişdir.

Bərabərlik, yaşamaq, azadlıq, mülkiyyət, əqli mülkiyyət, təhlükəsiz yaşamaq, şəxsi toxunulmazlıq, mənzil toxunulmazlığı, nikah, əmək, tətil, istirahət, sosial təminat, sağlam ətraf mühitdə yaşamaq, mədəniyyət, sağlamlığın qorunması, təhsil, mənzil, milli mənsubiyyət, ana dilindən istifadə, şərəf və ləyaqətin müdafiəsi, cəmiyyətin və dövlətin siyasi həyatında iştirak, dövlətin idarə olunmasında iştirak etmək, seçki, müraciət etmək, birləşmək, azad sahibkarlıq, hüquqi yardım almaq, məhkəməyə təkrar müraciət, zərərin ödənilməsini tələb etmək, siyasi sığınacaq hüquqlarının, fikir və söz, vicdan, sərbəst toplaşmaq, məlumat, yaradıcılıq kimi azadlıqların təsbit edildiyi Ali Sənəd ən yüksək və birbaşa hüquqi qüvvəyə malikdir.

Bu prinsip Əsas Qanunun "Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsi" adlı 147-ci maddəsində belə təsbit olunur:

I. Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasında ən yüksək hüquqi qüvvəyə malikdir.

II. Azərbaycan Respublikasının Konstitusiyası birbaşa hüquqi qüvvəyə malikdir.

III. Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasının qanunvericilik sisteminin əsasıdır.

Şəxsiyyət, cəmiyyət və dövlət arasındakı qarşılıqlı münasibətlərin nizama salındığı Konstitusiyanın 25-ci maddəsinin II hissəsində kişi ilə qadının eyni hüquqları və azadlıqlarının olması qeyd olunmuşdur. Bununla da gender bərabərliyi ilk dəfə dövlət səviyyəsində ifadə olunmuşdur. Həmin maddənin III hissəsində dövlətin irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verdiyi əks olunmuşdur.

Qeyd edək ki, konstitusiyada zamanın diktə etdiyi dəyişikliklər və əlavələr də reallaşdırılmışdır. Bu məqsədlə 2002, 2009, 2016-cı illərdə referendum keçirilmişdir. Bu da öz növbəsində konstitusiyanın dinamik bir sənəd olduğunu təsdiqləmiş olur. Qloballaşan dünyada yeni dünya nizamına uyğun olaraq hüquqi islahatların gerçəkləşdirilməsi, dövlət idarəçiliyində effektivliyin artırılması, insan hüquqlarının və azadlıqlarının təmin olunması sahəsində yeni mexanizmlərin işlənib hazırlanması istiqamətində bir sıra demokratik addımlar atılmış, mövcud qanunvericilik bazası təkmilləşdirilmişdir. Konstitusiyaya referendum yolu edilmiş əlavə və dəyişikliklər eyni zamanda, vətəndaş-dövlət münasibətlərinin daha harmonik inkişafına, mütərəqqi islahatlara gətirib çıxarmışdır.

*Azərbaycan hökuməti tərəfindən Konstitusiyasının qəbul olunması milli dövlətçilik tariximizdə qürurverici, əlamətdar hadisələrdəndir. Dövlətimizin beynəlxalq təcrübəyə əsaslanan konstitusiyasının mövcudluğu ilə yanaşı eyni zamanda, bu konstitusiya ilə təsbit olunan insan və vətəndaş hüquqlarının həyata keçirilməsi, təmin edilməsi və müdafiəsi üçün vacib icra mexanizmlərinin yaradılması bir daha Azərbaycanda müasir dövrün tələblərinə cavab verən demokratik hüquq sisteminin formalaşdırılmasına və dövlətin inkişaf perspektivlərinin reallaşmasına dəlalət edir.*

**Çinarə İsmayılova**
**NDU Elmi Kitabxanasının baş kitabxanaçısı**

## Postmüharibə mərhələsində sülh prosesinə aparan yol

Azərbaycan regionda hər zaman sülhsevər və xoş niyyəti ilə tanınıb. Hələ I Qarabağ müharibəsindən sonrakı 30 ildə dövlətimiz tərəfindən münaqişənin həlli ilə bağlı bütün sülh variantlarına, beynəlxalq təşkilatların çağırışlarına müsbət yanaşma ortaya qoyuldu. Məqsəd o idi ki, qan tökülməsin, müharibə, təlafat, dağıntı olmasın. Amma bütün bunların fonunda Ermənistanda bir neçə dəfə hakimiyyət dəyişikliyi olsa da, təfəkkürdə, düşüncədə yenilik olmadı.

Hələ 2018-ci ilə qədər İrəvan küçələrində şou göstərib hakimiyyətə gəlmək eşqi ilə çırpınan Nikol Paşinyan ilk vaxtlar Qarabağ probleminin Ermənistanın boynundan asılan böyük bir yük kimi qiymətləndirsə də, baş nazir postuna gələn kimi qeyri-səmimi, destruktiv mövqe nümayiş etdirdi. Hadisələrin xronoloji ardıcıllığı da onu göstərirdi ki, Nikolun işi və əməli düz gətirmir. Azərbaycanın tarixi şəhəri Şuşada sərxoş vəziyyətdə yallı gedən, Xankəndidəki qondarma rejimi dəstəkləyən, onları separatçılığa sövq edən erməni baş nazir bu spekulyativ addımdan sonra "Qarabağ Ermənistandır və nöqtə" bəyanatı ilə, demək olar ki, bütün sülh danışıqlarının üstündən qalın bir xətt çəkdi. "Dənizdən-dənizə böyük Ermənistan" xülyası ilə yaşayan bir qövmün nümayəndəsindən bundan artığını gözləmək də, yəqin ki, sadəlövhlük olardı.

Sonrakı proseslərdən isə hər kəs xəbərdardır. 44 günlük Vətən müharibəsi, döyüş meydanındakı rəzil məğlubiyyət, təslimolma aktının imzalanması və nəticədə, "Qarabağ Azərbaycandır və nida" reallığının təntənəsi... Bütün bunları ona görə yada salırıq ki, sülhə nail olmaq, Qarabağ münaqişəsinin qan tökülmədən həlli məsələsi Azərbaycan üçün prioritet olsa da, eyni münasibəti qarşı tərəfdən görmədik. Vətən müharibəsindən sonra beynəlxalq təşkilat və qurumların təşəbbüsü ilə Azərbaycan və Ermənistan liderlərinin Praqa, Brüssel və Moskvada keçirilən çoxsaylı görüşləri zamanı Azərbaycan Prezidentinin əldə etdiyi ən böyük uğur ərazi bütövlüyümüzün tanınması məsələsi oldu.

Praqada keçirilən görüşdə erməni baş nazir Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıdığını bəyan etsə də, bunu kağız üzərində rəsmiləşdirməkdən, sülh müqaviləsi imzalamaqdan imtina etdi. Burada diqqətçəkən ən mühüm məqam Praqa görüşündə Fransa Prezidenti Emmanuel Makronun guya sülh prosesində tərəf-müqabili kimi iştirak etməsi idi. Cənab Makron bu görüşdən sonra Azərbaycana qarşı açıq təhdid ritorikasından istifadə etməklə qalmadı, sonrakı illərdə Ermənistandakı revanşist meyilləri alovlandırmaq, Cənubi Qafqazı müharibə meydanına, bölgəni Afrika qitəsindəki müstəmləkələrinə çevirmək məqsədilə İrəvana davamlı silah-sursat göndərdi. Biz ötən dövr ərzində Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə keçirilən çoxsaylı görüşləri də yaxşı xatırlayırıq. Amma bunu da yaxşı bilirik ki, həmin görüşlərdə elə də ciddi nəticəyə nail olunmadı.

Yalnız bu məsələdə Azərbaycan Prezidenti, uzaqgörən lider, siyasi prosesləri ən yaxşı səviyyədə təhlil etməyi bacaran ŞƏXSin – cənab İlham Əliyevin proqnozları özünü doğrultdu. O, postmüharibə dövründə keçirdiyi bütün görüşlərdə, verdiyi bütün müsahibələrdə bu fikri açıq dillə bəyan etmişdi ki, Azərbaycan və Ermənistan Cənubi Qafqazın iki qonşu dövləti kimi özləri sülh prosesinə yaxınlaşmalı və masa üzərindəki məsələləri həll etməlidir. Yəni burada hansısa üçüncü bir qüvvənin iştirakına, ağıl verməsinə ehtiyac yoxdur. Çünki böyük güclərin məqsədi heç də regionda siyasi sabitlik və rifah yaratmaq deyil. Fransa kimi dövlətin timsalında bir çox hallarda Ermənistanı sülh gündəliyindən uzaq tutmağa çalışan ölkə və diaspor təşkilatları münaqişə alovunu həmişə isti tutmağa çalışırdılar. Eyfelin ən yüksək mərtəbəsində kef çəkən hansısa milyarder erməni, yaxud Qərb dövlətini müharibə meydanında məhv edilən erməni maraqlandırmır. Boğazdan yuxarı "vətənsevərlik" eşqinə düşən bu zadəganlar ancaq revanşizm duyğusundan qidalanırlar. Yəni İrəvana pulu göndər, özün çəkil dur kənarda. Təki sülh olmasın.

Qarabağ məsələsi ilə bağlı bütün xarici arzu və istəklər isə cənab İlham Əliyevin dəmir iradəsinə tuş gəldi. Azərbaycan Prezidenti müharibədən sonra qarşısına qoyduğu bütün hədəflərə nail oldu. Doğma xalqı qarşısında verdiyi bütün vədlərə bir-bir əməl etdi. İndi isə Ermənistanı sülhə məcburetmə prosesini uğurla reallaşdırır. Artıq bu istiqamətdə ilkin işlər həyata keçirilməkdədir. İki ölkə arasında sərhədlərin delimitasiyası üzrə komissiyanın yaradılması, işçi qrupun fəaliyyətində müsbət meyillərin qeydə alınması, son günlərdə isə ilk sərhəd dirəklərinin basdırılması, Qazax rayonunun işğal altında olan 4 kəndinin bir güllə belə atılmadan geri qaytarılması cənab İlham Əliyevin siyasi qətiyyətinin, diplomatik məharət və bacarığının nümayişidir.

Cənubi Qafqaza sülh, sabitlik və davamlı inkişaf gələcəksə, xalqların birgə yaşayışı təmin olunacaqsa, bu, cənab İlham Əliyevin siyasi iradəsi ilə reallaşacaq.

**Muxtar RZAZADƏ**
**Naxçıvan Dövlət Universitetinin magistrantı**

# 100 YAŞLI MUXTARİYYƏTİN PROKURORLUQ ORQANLARI

Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illik yubileyi münasibəti ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 30 dekabr 2023-cü il tarixdə imzalanmış "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamda qeyd edilir ki, Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır.

Azərbaycan xalqının zəngin tarixi, elmi və mədəni irsinin formalaşdığı Naxçıvan həm də qədim dövlətçilik ənənələrinə malik olmuşdur. Bu ənənələr içərisində qədim diyarın özünəməxsus məhkəmə və cinayət-mühakimə sistemi hələ müstəqil xanlıq olduğu dövrdən formalaşmağa başlamışdır. XVIII əsrin ortasında müstəqil Naxçıvan xanlığı yarandıqdan sonra onun başçısı olan xan qeyri-məhdud hərbi və mülki hakimiyyətə malik idi. Xan məhkəmə işlərinə, əsasən də, cinayət və böyük həcmli iddialarla müşayiət edilən mülki işlərə şəxsən baxaraq cinayət proseslərində həm hakim, həm də ittihamçı rolunda çıxış edirdi.

1828-ci ildə İrəvan və Naxçıvan xanlıqlarının Rusiya imperiyası tərəfindən işğal edilməsi nəticəsində bütövlükdə Quzey Azərbaycanın Rusiyaya ilhaqı ilə başa çatdı. İşğal olunmuş Azərbaycanda bir müddət xanlıq üsul-idarəsi saxlanılmış, daha sonra isə komendant üsul-idarəsindən istifadə edilərək, bütün hərbi səlahiyyətlər Rusiya imperiyası tərəfindən təyin olunmuş rus hərbi komendantın əlində cəmləşmiş, Xana isə yalnız mülki məsələlərin həlli tapşırılmışdır. Cinayət işlərinin istintaqı hərbi komendantın müvəkkil etdiyi şəxs tərəfindən aparılır, işə isə birbaşa hərbi rəhbər nəzarət və rəhbərlik edirdi. Cinayət işlərinin istintaqı qısa aparılırdı və belə proseslər ciddi qanun pozuntuları və hüquqların kütləvi surətdə pozulması ilə müşayiət olunurdu. Belə proseslər zamanı əsas rəhbər sənəd isə Rusiya imperiyasının cinayət qanunvericiliyi idi.

Tarixi ədəbiyyatda qeyd olunur ki, 1840-cı ildə Rusiya çarı I Nikolay "Zaqafqaziya diyarının idarə edilməsinin təsis olunması haqqında" Qanun layihəsini təsdiq etdikdən sonra bu sahədə islahatların həyata keçirilməsinə başlanıldı. 1840-cı ildə inzibati-məhkəmə islahatına görə bütün Zaqafqaziya quberniyalarında mülki və cinayət işləri üzrə məhkəmə palatası, həmçinin buna uyğun olaraq prokurorluq hissəsi yaradıldı. Qəza polis idarələri və məhkəmə orqanlarının icraatında olan işlərə nəzarət etmək üçün Qəza prokuroru təsis olundu. Qəza prokuroru Quberniya prokurorunun təqdimatı ilə Qafqazın baş hakimi-canişini tərəfindən vəzifəyə təyin və azad edilirdi.

1849-cu ildə yaradılaraq Zaqafqaziyanın vahid siyasi idarəçiliyinin tərkib hissəsinə çevrilən İrəvan quberniyasına Naxçıvan, Ordubad və Şərur-Dərələyəz qəzaları daxil idi. 1864-cü ildə təsdiq edilmiş Nizamnamə ilə Rusiya imperiyası ərazisində mövcud olan məhkəmə institutlarının statusunda, instansiyasında əsaslı dəyişikliklər edildi. Azərbaycanda isə bu Nizamnamənin tələbləri Qafqaz canişininin 1865-ci ildə təşkil etdiyi xüsusi komissiya tərəfindən hazırlanan və çar tərəfindən 1866-cı ildə təsdiq edilən Əsasnamə ilə həyata keçirilirdi.

1869-cu ildə həyata keçirilən məhkəmə islahatlarına əsasən Naxçıvanda mirovoy (barışıq) məhkəməsi təsis edilir. Məhkəmələrə rəhbərlik edən hakimlər Qafqaz canişini tərəfindən təyin olunurdu. Məhkəmələrin tərkibində müvafiq olaraq prokuror nəzarəti və ayrıca istintaq hissəsi mövcud idi. Prokuror nəzarəti prokurora və onun yoldaşlarına həvalə edilmişdi. Onlar məhkəmələrdə hakimiyyətin maraqlarının müdafiəçisi kimi çıxış edirdilər. Cənubi Qafqazda məhkəmələrin və hakimlərin fəaliyyətinə xüsusi nəzarət Qafqaz canişinin əlində cəmləşməklə ona Ədliyyə Nazirliyinin səlahiyyəti verilmişdi.

1917-ci ildə Rusiyada çarizm devrildikdən sonra imperiyanın hər yerində olduğu kimi müstəmləkə altına alınmış xalqlar arasında da milli azadlıq hərəkatları genişlənirdi. 28 may 1918-ci ildə müsəlman Şərqində ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyəti elan edildi.

18 noyabr 1918-ci ildən 10 mart 1919-cu ilədək Naxçıvanda fəaliyyət göstərən Araz-Türk Respublikasının, daha sonra isə Azərbaycan Demokratik Respublikasının xüsusi General-qubernatorluğunun fəaliyyətinin öyrənilməsi həmin dövrə aid sənədlərin yoxluğu və ya sovetlər tərəfindən yandırılması nəticəsində mümkün olmamışdır.

Azərbaycan Demokratik Respublikası Nazirlər Şurasının 1918-ci il 1 oktyabr tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində ilk milli prokurorluq orqanları yaradıldı. Azərbaycan sovetləşəndən sonra Azərbaycan SSR İnqilab Komitəsinin Dekreti və Azərbaycan SSR Xalq Ədliyyə Komissarlığının əmri ilə köhnə məhkəmələr, onların yanında fəaliyyət göstərən prokurorlar və məhkəmə müstəntiqləri ləğv edilərək, əvəzində xalq məhkəmələri və istintaq komissiyaları yaradıldı.

Naxçıvanda isə 1920-ci illərin əvvəllərində Naxçıvan İnqilab Komitəsinin nəzdində Fövqəladə İstintaq Komissiyası yaradıldı. FİK-nın ən böyük vəzifəsi daxildə sovet hakimiyyətinə qarşı çıxanlarla-əksinqilabçılarla mübarizə aparmaq, sovet dövlətinin və hakimiyyətin dayaqlarını siyasi, iqtisadi və hərbi üsullarla zəiflətmək istəyənlərə qarşı ciddi tədbirlərin görülməsi idi.

Naxçıvan İnqilab Komitəsinin 13 dekabr 1920-ci il tarixli qərarı ilə Naxçıvanda köhnə məhkəmə sistemi ləğv edilir, Naxçıvan SSR-nın hər üç qəzasında (Naxçıvan, Şərur-Dərələyəz, Ordubad qəzalarında) Naxçıvan İnqilab Komitəsinin qərarına uyğun olaraq məhkəmələrdə ittiham və müdafiə funksiyalarının həyata keçirilməsi və mülki işlər üzrə dövləti təmsil etmək məqsədilə Qəza İnqilab Komitələrinin yanında ittihamçılar kollegiyası təşkil edilir. Bu kollegiyanın fəaliyyətinin əsasını isə Azərbaycan SSR İnqalab Komitəsinin Dekreti, Naxçıvan Sovet Respublikası İnqilab Komitəsinin qərarı və Azərbaycan SSR Xalq Ədliyyə Komissarlığının təlimatı təşkil edirdi. İttihamçılar kollegiyası cinayətlərin istintaqı zamanı mövcud qanunlara əməl edilməsinə nəzarəti həyata keçirir, cinayət işləri üzrə məhkəmələrdə ittihamı müdafiə edir və məhkəmələrin qeyri-qanuni və əsassız hökmlərindən kassasiya protesti verirdi. Beləliklə, müstəqil dövlət orqanı olmayan ittihamçılar kollegiyasının funksiyası cinayət işləri üzrə məhkəmə icraatı sahəsi ilə məhdudlaşırdı.

Azərbaycan SSR-nin "Azərbaycan Sovet Sosialist Respublikası Dövlət Prokurorluğu haqqında" Dekretinin qəbulu ilə "Məhkəmə quruculuğu haqqında" Əsasnaməyə dəyişiklik edilməklə dövlət prokurorluğu institutu yaradıldı. Dekretə əsasən yeni təşkil edilmiş prokurorluq təşkilatı cəhətdən müstəqil dövlət orqanı deyildi və Xalq Ədliyyə Komissarlığının tərkibinə şöbə kimi daxil idi.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əsası Naxçıvan Diyar Xalq Komissarları Sovetinin 1922-ci il 5 sentyabr tarixli Dekreti ilə qoyulmuşdur. Elə həmin ildə Azərbaycan SSR Xalq Ədliyyə Komissarlığının əmrinə əsasən Naxçıvan SSR Xalq Ədliyyə Komissarlığının strukturu təsdiq edilir. Beləliklə də, Xalq Ədliyyə Komissarlığında müvafiq şöbələrdən biri də dövlət prokurorluğu olur.

Naxçıvan Prokurorluğuna Dekretlə müəyyən olunmuş qaydada qanunçuluğa dürüst əməl etmək, istintaq və təhqiqata nəzarət etmək, məhkəmədə dövlət ittihamını müdafiə etmək və sair səlahiyyətlər verilmişdi.

Naxçıvan SSR Xalq Ədliyyə Komissarı həm də dövlət prokuroru vəzifəsini icra edirdi. Müvafiq dövlət prokurorluğu şöbəsində isə müxtəlif sahələrə nəzarəti həyata keçirən şöbə prokurorları mövcud idi. Qəzalarda isə dövlət prokurorları Qəza İcraiyyə Komitələri Ədliyyə şöbələrinin rəisləri idi. Onlar ikili tabelikdə olmaqla həm Qəza İcraiyyə Komitəsinə, həm də Naxçıvan SSR Xalq Ədliyyə Komissarlığına tabe idilər.

Naxçıvan SSR-nin prokuroru (qeyd edək ki, Naxçıvan SSR-nin Dövlət prokuroru rəsmən Naxçıvan Cümhuriyyət Prokuroru adlanırdı) Naxçıvan SSR Mərkəzi İcraiyyə Komitəsi qarşısında hesabat verirdi və ona tabe idi. Dövlət prokuroru və Xalq Ədliyyə Komissarı Naxçıvan SSR MİK tərəfindən vəzifəyə təyin edilirdi. Naxçıvandakı istintaq və təhqiqat orqanları ikili tabeçilikdə-inzibati cəhətdən məhkəmə, əməliyyat-prosessual cəhətdən isə prokurorluğa tabe idilər.

Naxçıvan MSSR-nin ali qanunvericilik aktları olan 18 aprel 1924-cü il tarixli Əsasnaməyə və 1926-cı il Konstitusiyasına prokurorluq haqqında heç bir müddəa daxil edilməmişdir. Naxçıvan MSSR-də dövlət prokurorluğu 1936-cı ilədək Naxçıvan MSSR Xalq Ədliyyə Komissarlığının nəzdində fəaliyyət göstərmişdir. 1936-cı ildə müstəqil Naxçıvan MSSR-nin prokurorluğu yaradılmışdır ki, bu da öz növbəsində Naxçıvan MSSR-nin inzibati ərazisində təşkil edilən rayon və rayonlararası prokurorluqların işinə nəzarəti həyata keçirirdi.

Naxçıvan MSSR-də prokurorluğun müstəqil institut kimi təşəkkül tapması muxtar respublikanın 1936-cı ildə qəbul edilmiş Konstitusiyasında öz əksini tapmasıdır. Bu Konstitusiyanın xüsusi olaraq VII fəsli məhkəmə və prokurorluğa həsr edilmişdir. Konstitusiyada göstərilir ki, Naxçıvan MSSR-nin prokuroru SSRİ-nin Baş prokuroru tərəfindən 5 il müddətinə vəzifəyə təyin edilir. Naxçıvan MSSR-nin rayon, şəhər prokurorları Azərbaycan SSR-nin prokuroru tərəfindən, SSRİ Baş prokurorunun razılığı (təsdiqi) ilə 5 il müddətinə vəzifəyə təyin edilirdi.

Naxçıvan MSSR-nin 1978-ci il tarixli Konstitusiyasında da prokurorluğun fəaliyyəti ilə bağlı xüsusi-16-cı fəsil (155-158 maddələr) nəzərdə tutulmuşdur. Konstitusiyanın 155-ci maddəsində qeyd edilir ki, Naxçıvan MSSR ərazisində bütün nazirliklər, dövlət komitələri, müəssisə, idarə və təşkilatlar, yerli xalq deputatları sovetlərinin icra və sərəncam orqanları, kolxozlar, kooperativ təşkilatları və digər ictimai təşkilatlar, vəzifələ şəxslər, habelə vətəndaşlar tərəfindən qanunların dürüst və eyni qaydada icra olunmasına ali nəzarət SSRİ Baş prokuroru, ona tabe olan Azərbaycan SSR prokuroru, Naxçıvan MSSR prokuroru və aşağı prokurorlar tərəfindən həyata keçirilir. O zaman Naxçıvanda 8 tabe rayon prokurorluğu fəaliyyət göstərirdi.

Naxçıvan Muxtar Respublikası Prokurorluğu hər zaman ulu öndər Heydər Əliyevin diqqət mərkəzində olmuş, bu qurumun inkişafı üçün bütün vasitələrdən istifadə etmişdir. 12 mart 1974-cü ildə Naxçıvan Vilayət Partiya Komitəsinin XXX Konfransında Azərbaycan Respublikası KP MK-nin birinci katibi Heydər Əliyev çıxış edərək hüquq-mühafizə orqanlarının fəaliyyətində olan nöqsanları ciddi şəkildə tənqid etmişdir. Bildirmişdir ki, "Naxçıvan Muxtar Respublikası inzibati orqanlarının fəaliyyətində nöqsanalar çoxdur. Üç il ərzində törədilən cinayətlərin sayında çox da dəyişikliklər olmamışdır. Lakin bu, əsas göstərici deyildir və Naxçıvan MSSR prokuroru, daxili işlər naziri, ədliyyə naziri və Ali Məhkəmənin sədri elə zənn etməsinlər ki, onların işinin nəticəsi bununla müəyyən edilir."

Görkəmli dövlət xadimi Heydər Əliyev Naxçıvanda yaşayıb-işlədiyi dövrlərdə bir sıra tarixi və taleyüklü qərarlar qəbul edildi. 1990-cı il 17 noyabr tarixində Onun sədrliyi ilə on ikinci çağırış Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyası "Naxçıvan MSSR-in adının dəyişdirilməsi", "Naxçıvan MR Ali Dövlət hakimiyyəti orqanları haqqında", "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" tarixi qərarlar qəbul etdi. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 21 noyabr 1990-cı ildə isə Ümummilli Liderin işləyib hazırladığı "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar qəbul olundu. 14 mart 1991-ci ildə "SSRİ-nin saxlanılmasına dair Ümumittifaq referendumu"nda Naxçıvan Muxtar Respublikasının iştirak etməməsi barədə qərar qəbul edildi. Naxçıvan MSSR Prokurorluğu 1990-cı il 17 noyabr tarixdən etibarən Naxçıvan Muxtar Respublikası Prokurorluğu adlandırıldı.

Ölkəmizdə prokurorluq orqanlarının dövlətçilik maraqlarına, qanunun aliliyinə, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə xidmət edən sivil və demokratik orqan kimi formalaşması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Heydər Əliyevin birbaşa rəhbərliyi ilə hazırlanaraq 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi (referendum) ilə qəbul olunan Azərbaycan Respublikasının Konstitusiyasında prokurorluğa ayrıca müddəa həsr olunması prokurorluq və onun dövlət orqanları sistemindəki yeri və rolu barədə olan bütün mübahisələrə son qoydu. Azərbaycan Respublikası Konstitusiyanın 133-cü, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 46-cı maddəsində prokurorluğa ayrıca müddəanın həsr edilməklə, bu mühüm dövlət təsisatının məhkəmə hakimiyyəti sistemində müstəqil orqan kimi müəyyən edilməsi prokurorluq orqanlarına göstərilən diqqət və qayğının bariz nümunəsi olmuşdur.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun fəaliyyəti "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanunun 14-cü maddəsi ilə tənzimlənir. Kadrlarla aparılan işin daha da təkmilləşdirilməsi və tabe prokurorluqların müstəqilliyinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Baş Prokurorunun 24 may 2002-ci il tarixli əmri ilə Naxçıvan Muxtar Respublikasının prokuroruna mühüm səlahiyyətlər verilmişdir.

"Azərbaycan Respublikası Baş Prokurorluğunun strukturunun təsdiq edilməsi və "Azərbaycan Respublikası Baş Prokurorluğunun strukturunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli Sərəncamının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 10 iyun 2020-ci il tarixli Sərəncamının icrası məqsədilə Azərbaycan Respublikasının Baş Prokurorluğunda struktur islahatları həyata keçirilərək yeni idarələr yaradılmış, mövcud idarə və şöbələr yenidən formalaşdırılmış, kadr dəyişiklikləri həyata keçirilmişdir. Azərbaycan Respublikası Baş Prokurorluğunun sisteminə uyğun olaraq prokurorluqlarda aparılan islahatların Baş Prokurorluğun strukturuna uyğunlaşdırılması zərurəti yaranmışdır. Naxçıvan Muxtar Respublikası Prokurorluğunun mərkəzi aparatının strukturunun Azərbaycan Respublikası Baş Prokurorluğunun strukturuna uyğunlaşdırılması məqsədilə Azərbaycan Respublikası Baş prokurorunun 6 avqust 2020-ci il tarixli əmri ilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun mərkəzi aparatının yeni strukturu təsdiq edilmişdir.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun fəaliyyəti də Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının konstitusiyaları, eləcə də digər qanunvericilik aktları ilə tənzimlənir. Muxtar respublika prokurorluğunun statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri isə Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 46-cı maddəsində təsbit edilmiş, "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2010-cu il 30 sentyabr tarixli Konstitusiya Qanununa əsasən, Naxçıvan Muxtar Respublikası Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququ verilmişdir.

Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları da həmişə öz üzərində yüksək dövlət qayğısını hiss etmiş, ötən dövrdə muxtar respublika prokurorluğunun, eləcə də rayon, şəhər prokurorluqlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmış, 2006-cı ildə Şahbuz və Culfa rayon prokurorluqları üçün müasir standartlara cavab verən yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün yeni mərhələnin başlanğıcını qoymuş, Ordubad, Kəngərli və Sədərək rayon prokurorluqları üçün yeni inzibati binalar tikilmiş, Şərur rayon prokurorluğunun inzibati binasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Prokurorluğu mərkəzi aparatının inzibati binası əsaslı yenidənqurmadan sonra müasir texniki vasitə və kriminalistik avadanlıqlarla təmin edilərək istifadəyə verilmişdir. Prokurorluq orqanlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində Naxçıvan şəhər və Babək rayon prokurorluqları üçün də yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin də dediyi kimi: ***"Azərbaycan Prokurorluğu bundan sonra da Azərbaycan dövlətçiliyinə sadiq olaraq, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və inkişaf etməsi prosesində fəal iştirak edəcək və Azərbaycanda qanunun aliliyinin təmin olunmasında öz xidmətlərini göstərəcəkdir".***

**Faiq SƏFƏROV**
**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri, prokurorluğun fəxri işçisi**

# Erməni vəhşilikləri Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin iclas protokollarında

*XX yüzilliyin əvvəllərindən başlayaraq Azərbaycan ziyalıları çar Rusiyası hakimiyyət orqanlarının ucqarlarda idarəetmə işlərindəki yarıtmaz fəaliyyəti nəticəsində Qafqazda yaranmış erməni xaosu qarşısında milli irada göstərərək təşkilatlanmağa başlamışdılar. İstər 1905-1906-cı illərdə, istərsə də 1918-1920-ci illərdə baş vermiş erməni talanlarına qarşı həm milli burjuaziya nümayəndələri, həm də dövrün vətənpərvər ziyalıları vahid cəbhədə birləşirdilər. 1918-ci il 28 mayda əldə edilmiş müstəqillik bu mübarizədə qətiyyətliliyi daha da artırmışdı.*

Bu istiqamətdə görülən tədbirlər mövcud şəraitdə çox əhəmiyyət daşıdığından Azərbaycanın tarixi taleyini həll etmək iqtidarında olan milli ziyalılarımız, ictimai-siyasi xadimlərimiz yaranmış reallıqdan düzgün nəticə çıxararaq müstəqilliyimizin elan olunmasından sonra, həm dövlətçiliyin, həm də xalqın sabit həyat tərzinin təmin edilməsini əsas vəzifə kimi qarşılarına məqsəd qoymuşdular.

1918-ci il dekabrın 7-dən 1920-ci il aprelin 27-ə qədər fəaliyyət göstərmiş Azərbaycan Xalq Cumhuriyyəti parlamenti mövcud olduğu zaman çərçivəsində dövlətçiliyimiz tarixində çox mühüm qərarlar qəbul etmişdi. 17 aylıq fəaliyyəti dövründə 145 iclas (yetərsay olmadığı üçün iclaslardan 15-i baş tutmamışdır) keçirmişdir. Parlamentin müzakirəsinə 270-dən çox qanun layihəsi çıxarılıb ki, onlardan 230- a qədəri təsdiq edilib.

Parlamentdə ölkənin daxili və xarici siyasəti, iqtisadiyyat və maliyyə vəziyyəti, qanunvericilik aktlarının müzakirəsi və qəbulu, ordu quruculuğu və s. məsələlər müzakirə edilmişdir. Qəbul edilmiş qanunlar həm öz dövründə, həm də müasir Azərbaycan Respublikası dövründə öz əhəmiyyəti ilə seçilmiş, dövlətçilik tarixində iz buraxmışdır. Parlament öz fəaliyyətində erməni məsələsi ilə də bağlı mühüm işlər görmüşdür. Hökumətin qanunverici orqanının iclaslarında erməni quldurlarının fitnəkarlıqları barədə məlumatlar verilmiş, qərarlar qəbul edilmişdir.

20 dekabr 1918-ci ildə Həsən bəy Ağayevin sədrliyi ilə parlamentin fövqəladə çağrılmış 4-cü iclasında ermənilərin Azərbaycan ərazilərində törətdiyi qırğınlar müzakirə edilmişdir. Həmin tarixli iclasda katib Əhməd Cövdət gündəlikdə duran məsələni elan edərək bildirmişdir: - "Bu axır vaxtlarda varid olan xəbərlərə görə Andranik təhti-komandasındakı qoşun ilə Azərbaycan Cumhuriyyətinin hüdudunu keçib, Zəngəzur, Şuşa və Cəbrayıl qəzalarında bir çox kəndləri xarab edib, köməksiz xalqı bəzən qırıb, bəzən də səhralara salır".

Fətəli Xan Xoyski məsələyə münasibət bildirərək məlumat verir ki, Andranik iyul ayında Zəngəzur mahalında böyük dağıntılar törədərək bir çox kəndləri dağıtmış, Şuşa qəzasına keçərək Əsgəran yolunu bağlamışdı. Məsələ ilə bağlı millət vəkillərinin fikirləri dinlənildikdən sonra yekdil bir bəyanat hazırlanıb Məmməd Əmin Rəsulzadə tərəfindən oxunur: "...Andranik çətəsi haqqında verilən izahatı eşidərək Azərbaycan Məclisi-Məbusanı vətənin təmamiyyət mülkiyyəsini, cümhuriyyətin heysiyyəti və cümhuriyyət əhalisinin təmini-asayiş və hürriyyətinə aid məsələlərdə daha qəti və daha şiddətli siyasi və əsgəri tədbirlər görməsini qeyd edərək, belə tədbirlərin icrasında daimi məbusan heyətinin himayət və etibarına məzhər olacağını bəyanla növbədəki məsələlərin müzakirəsinə keçməyi təklif edir".

Göründüyü kimi, bu iclasda erməni daşnaklarının Zəngəzur qəzasında, Şuşa və Qarabağın bir sıra kəndlərində törətdikləri qırğınların qarşısının alınması ilə bağlı məsələnin müzakirəyə çıxarılması həmin dövrdə erməni canilərinin törətdikləri qırğın və talanlarının Azərbaycanın müstəqilliyinə qarşı yönəlmiş təhlükə olmasından xəbər verirdi.

Azərbaycan Xalq Cumhuriyyətinin parlamentinin 8 yanvar 1919-cu il tarixli 7-ci iclasında 1917-ci ilin dekabrından 1918-ci ilin iyununa qədər olan dövrdə İrəvan quberniyası dairəsində 200-dən çox müsəlman kəndinin dağıdılması, insanların qətlə yetirilməsi, ev- eşiklərini atıb dağlara qaçmaları və aclıqdan, soyuqdan həlak olmaları haqqında məruzə dinlənilmişdir. Məruzədə ermənilərin Sürməlidə, İrəvanda, Şərurda, Üçmüəzzində qırğınlar törədərək Naxçıvan üzərinə hərəkət etmələri ilə də bağlı narahatlıqlar ifadə edilmişdi. Bəhs edilən iclasın gündəliyində duran məsələlərdən biri də ermənilərin Lənkəranda törətdikləri talanlar olmuşdur. Burada Yusif bəy Bayraməlibəyovun, Əsgər xan Talışınskinin, İsa bəy Əlibəyovun evlərinin dağıdılması, imarətlərinin at və malqara tövlələrinə çevrilməsi xüsusilə vurğulanmışdır

Azərbaycan Xalq Cumhuriyyəti parlamentinin 16 iyun 1919-cu il tarixli qırxsəkkizinci iclasında erməni canilərinin daha bir fitnəkarlığı ifşa olunur. İclasda erməni fraksiyası 11 iyun tarixində erməni kilsəsində polisin təhqiqat aparması ilə bağlı məsələni müzakirəyə çıxarır. Lakin Nəsib bəy Yusifbəylinin çıxışında polisin yoxlamaları nəticəsində əldə edilən maddi sübutların heç də dinlə bağlı olmadığını millət vəkillərinə çatdırması mənfur ermənilərin çirkin niyyətlərini baş tutmağa imkan vermir. Məsələnin müzakirəsi zamanı kilsənin anbarlarından Denikin və Biçeraxovla əlaqəli sənədlərin, həmçinin patronların aşkar edildiyi vurğulanır. Parlamentin sonrakı iclaslarında da bu məsələ ilə bağlı müzakirələr aparılsa da erməni fraksiyası öz çirkin niyyətlərinə haqq qazandıra bilmirlər.

Parlamentin 7 iyul 1919-cu il tarixli 52-ci iclasında Qarabəyli Qara bəyin erməni qatillərinin Şuşada həyata keçirdiyi qətliamlar barədəki məlumatlarından görünür ki, ermənilər azərbaycanlılara qarşı təxribatlar törətmək üçün, süni şəkildə ermənilərin talan edilməsi və onlara qarşı azərbaycanlılar tərəfindən güya qətllər törədilməsini iddia edirlər. Lakin aparılan araşdırmaların nəticələrində iclas zamanı erməni fitnəkarlığı bir daha millət vəkilləri tərəfindən pislənilmişdir. Şuşada ermənilərin törətdiyi hadisələr 8 iyul tarixli 53-cü iclasda da müzakirə edilmişdir. Ermənilərin Qarabağda törətdikləri qırğınlarda bolşeviklərin də olduğu istisna deyildi. Belə ki, parlamentin iclaslarının birində Xankəndində, Əsgəranda baş vermiş erməni üsyanlarının yatırılması ilə bağlı Azərbaycan Parlamentinin bolşevik deputatı Qarayevin – "Azərbaycan kəndlilərinin erməni üsyanlarını yatıra biləcək gücü yoxdur. Yaxşısı budur, biz Qızıl Ordunu köməyə çağıraq, onlar bizə kömək etmək üçün Azərbaycana gəlsin və sonra Anadoluya getsin" təklifi ilə çıxış etməsi onu göstərir ki, ermənilərin həyata keçirdikləri antiazərbaycan siyasəti, həm də bolşeviklərin gələcəkdə həyata keçirəcəkləri istila planları çərçivəsində həyata keçirilmişdi.

Parlamentin 56-cı iclasında "İttihad" partiyasından olan millət vəkili Qarabəylinin çıxışında erməni cinayətləri Ermənistanda azərbaycanlılara qarşı törətdiyi vəhşiliklər sadalanır. Həmçinin Ermənistanda yaşayan azərbaycanlılara heç bir yardımın edilməməsi, bunun tam əksinə olaraq, Azərbaycan hökumətindən erməni əhaliyə yardımlar tələb edilməsi məsələsində ermənilərin saldıqları hay-küy müzakirəyə çıxarılmışdır. Bu hadisələr zamanı bir məsələyə diqqət yetirdikdə görürük ki, ermənilər Azərbaycan sərhədləri daxilində talanlar törədir, evləri yandırır, insanları qətlə yetirir və bununla yanaşı da, azərbaycanlılarla bərabər ziyan çəkmiş ermənilərə Azərbaycan dövləti tərəfindən yardım edilməsi tələb edilmişdir. Parlamentin iclas stenoqramlarına nəzər saldıqca bu kimi məsələlərin tez-tez müzakirə obyekti olduğunu müşahidə edirik. Lakin erməni terror qruplarının Ermənistanda həyata keçirdikləri etnik təmizləmə tədbirləri nəticəsində nə öldürülən azərbaycanlılar, nə də ki, yurd-yuvasından didərgin salınmış soydaşlarımızla bağlı Ermənistan hökuməti heç bir qabaqlayıcı tədbir görməmişdir. Hərçənd ki, Azərbaycan tərəfi bu məsələyə etirazını bildirmişdir, lakin erməni talanları dayanmamış, onlarla bağlı heç bir tədbir görülməmişdir. Bu isə, onu göstərir ki, azərbaycanlılara qarşı Ermənistanda həyata keçirilən terror aktlarının arxasında bir başa o zamankı Ermənistan dövlətinin rəhbərləri dayanmışdılar.

Azərbaycan Xalq Cumhuriyyətinin Məmməd Yusif Cəfərovun sədrliyi ilə 9 mart 1920- ci il tarixdə olmuş yüz otuzikinci iclasında Qars məsələsi müzakirə edilir. Parlament üzvü Şəfi bəy Rüstəmbəyov çıxış edərək bildirir ki, "Zəngəzurda erməni hökuməti tərəfindən müsəlmanlar qırıldı, köyləri dağıdıldı, bu halların eyni İrəvan quberniyasında və Bayazid qəzasında da təkrar etdi. Biz fikir etdik ki, bu müvəqqəti bir şeydir, erməni qonşularımız sülh yoluna qayıdar. Fəqət yanlış bir fikrə zahir olduğumuzu anladıq. Biz görürük ki, erməni hökuməti özünün tutduğu məsləkdən ayrılmayır. Öz xaniman söndürən siyasətini təqibdə davam edir. Şimdi də Kars vilayəti müsəlmanlarını qırmağa, onların köylərini dağıtmağa başlamışdır".

Həmin iclasda çıxış edən Nəsib bəy bölgə camaatının teleqramlarını məclis üzvlərinə çatdırır. Verilən məlumatlardan aydın olur ki, ermənilər fevralın 7-də Göyərçin kəndini yandırıb, büsbütün yerlə yeksan etmiş, Göyərçindən 1200 qara mal və 2000 qoyunu özləri ilə aparmışlar. Kənddə qalmış 24 kişi, 87 qadını qətlə yetirərək 175 evin bütün əmlakını ələ keçirmişlər. Qızıl Kilsədən 5 yüz qaramal, 2 min qoyun və 135 evin bütün əşyalarını aparmışlar. Kənddə qalan iki nəfər 80 və 90 yaşlı qocanı qətlə yetirmişlər. 14 qadını və 27 körpə uşağı odda yandırmışlar. Fevralın 7-də Ağababa ərazi inzibati vahidinə daxil olan Qazançı kəndi də top atəşinə tutulmuşdur. Edilən hücumlar nəticəsində Balıqlı kəndində 4 nəfər öldürülmüş, iki nəfər isə yaralanmışdır.

1 aprel 1920-ci il tarixdə Məmməd Yusif Cəfərovun sədrliyi ilə keçirilmiş yüz otuz yeddinci iclasda daxili işlər naziri Mustafa bəy Vəkilov Qarabağ hadisələri barəsində izahat verərək göstərmişdir ki, martın 2-də və iki gün əvvəl Şuşa qalasında olan Azərbaycan əsgərlərinə ermənilər 200 nəfərlik dəstə ilə hücum etmişlər.

Nəzər salınan iclasların stenoqramlarına əsasən görürük ki, Azərbaycan hüdudlarında yaşayan erməni separatçıları və həmçinin, Ermənistan dövlətinin antitürk ünsürləri Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyünə və dövlətçiliyinə qarşı müdaxilələr etmiş, dinc əhaliyə qarşı terror aktları törətmişlər.

XX yüzilliyin əvvəllərində Rusiya imperiyasının dağılmasından sonra, Qafqazda yaranmış müstəqil dövlətlər öz daxili istiqlaliyyətini qorumaq, inkişaf etdirmək məqsədi ilə həm qonşu dövlətlərlə, həm də beynəlxalq birliyin digər üzv dövlətləri ilə qarşılıqlı diplomatik əlaqələr qurmağa çalışırdılar. Lakin bölgədə bu gün olduğu kimi, ötən əsrin əvvəllərində də erməni millətçi təşkilatları sabitliyi pozmuş, öz ata-baba yurdunda yaşayan dinc əhalinin rahat yaşamalarına əngəl olmaqla, günahsız insanlara qarşı qətliamlar törətmiş, şəhərlərdə və kəndlərdə kütləvi dağıntılar aparmışlar. 1988-ci ildən başlayaraq, 1994-cü ilə qədər Azərbaycana qarşı əsassız iddialar irəli sürərək ərazilərimizin 20%-ni işğal etmiş Ermənistan dövləti 2020-ci ildə layiqli cavabını alaraq işğal etmiş olduğu torpaqlardan çıxarılmışdır.

**Qadir Əkbərov**
**"Azərbaycan tarixi" kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru**
**Zamin Əliyev**
**"Azərbaycan tarixi" kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru**



# Müstəqillik ən böyük sərvətimizdir

*1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İstiqlal Bəyannaməsini imzalamaqla Azərbaycanın müstəqilliyini dünyaya bəyan etmiş, xalqımızın çoxəsrlik dövlətçilik ənənələrini davam etdirmişdir. Qısa dövr ərzində Azərbaycanın ilk parlamenti, hökuməti yaradılmış, dövlət atributları təsis olunmuş, sərhədləri müəyyən edilmiş, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirilmişdir. Cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində demokratiya ənənələrinin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir.*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2021-ci il oktyabrın 15-də "Müstəqillik Günü haqqında" Azərbaycan Respublikası Qanununu təsdiq etmiş, həmin Qanuna əsasən mayın 28-i ölkəmizdə Müstəqillik Günü elan edilmişdir. Qanunda da qeyd olunduğu kimi, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti yaradılmış, 1991-ci il oktyabrın 18-də isə Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olunmuş, bu zaman 1918-ci il 28 may tarixli İstiqlal Bəyannaməsinə istinad edilmişdir.

1918-ci ilin 28 may günü Azərbaycan özünü bir dövlət kimi varlığını dünyaya göstərdi. Çox təəssüf ki, həmin illər qarışıq idi. Nə Birinci Dünya müharibəsi, nə də ki, dünyanın hələ bölüşdürülməsi prosesi qutarmamışdı, dünyada sovet kabusu dolaşırdı. Həmin dövrdə Azərbaycanda bütün qüvvələri səfərbər etmək və Azərbaycan Cümhuriyyətini qorumaq mümkün olmadı. Lakin o vaxt AXC-nin banilərindən biri Məmmədəmin Rəsulzadənin dediyi kimi, Cümhuriyyət Azərbaycan xalqına vəd etdiyi çox şeyi verə bilməsə də, azadlığın nə olduğunu dadızdırdı.Həmin dövrün tarixini araşdıranlar yaxşı bilirlər ki, ömrü qısa olmasına rəğmən, 23 ay ərzində çox böyük işlər görülmüş, parlamentdə dövlət quruculuğu ilə bağlı ciddi qərarlar qəbul olunmuş, paytaxt Gəncədən Bakıya köçürülmüş, ordu quruculuğuna başlanılmış və nəhayət, ölkənin ərazisi həmin illərdə azərbaycanlılara qan udduran erməni daşnaklarından təmizlənmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ilin aprelində süqut etsə də, müstəqillik ideyaları xalqımızın yaddaşından heç vaxt silinmədi. Xalq özünün istiqlal arzularını nəsildən-nəsilə ötürdü. 1970-1980-ci illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan sürətlə inkişaf etdi, həm iqtisadi, həm də sosial sahədə böyük uğurlar qazandı. Görkəmli dövlət xadiminin rəhbərliyi altında həyata keçirilmiş tədbirlər ölkəmizin müstəqillik uğrunda mübarizəsinə real hüquqi-siyasi və iqtisadi əsaslar yaratdı. Azərbaycan ötən əsrin sonlarında müstəqilliyini yenidən bərpa etdi. Lakin əsrin əvvəlində olduğu kimi, bu dəfə də erməni təcavüzü ilə üzləşərək torpaqlarının işğalı və müstəqilliyinin itirilməsi təhlükəsi ilə rastlaşdı. Tarixi hadisələr göstərir ki, Azərbaycan xalqı müstəqil dövlətini yaratmaq istəyəndə daim erməni faktoru ilə üzləşmiş, ölkəmizin müstəqil dövlət olmasını istəməyənlər "erməni məsələsi"ndən yetərincə istifadə etmişlər. Görkəmli dövlət xadimi Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbindən sonra ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı isə Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etmiş, dövlət müstəqilliyimiz möhkəmləndirilmişdir.

Müstəqilliyimizin bizə verdiyi bəhrələr bu gün ölkəmizin bütün dünyada tanınmasına, qəbul olunmasına imkan vermişdir. İndi müstəqil Azərbaycan dövləti mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edir, öz milli, mədəni və multikultural dəyərləri ilə dünya ölkələri üçün əsl nümunəyə çevrilir. Ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş siyasi xəttin uğurla davam etdirilməsi artıq Azərbaycanı regionun iqtisadi-siyasi, hərbi baxımdan ən güclü dövlətinə çevirmişdir. Elə bu gücün nəticəsidir ki, Azərbaycan 2020-ci il sentyabrın 27-dən başlayaraq 44 gün ərzində mənfur erməni ordusunu tamamilə darmadağın edərək illərdir, işğalda saxlanılan torpaqlarını azad etdi. Əgər ümummilli lider Heydər Əliyev 1993-cü ildə ali hakimiyyətə qayıdışı ilə Azərbaycanın müstəqilliyini parçalanmaqdan, məhv olmaqdan qoruyub xilas etdisə, cənab İlham Əliyev ölkəmizin ərazi bütövlüyünü bərpa edərək bu müstəqilliyin tamlığını təmin etdi. Ölkə başçısı demişdir: ***"Uzun illər ərzində Azərbaycanın hərtərəfli inkişafı üçün rəhbər tutulan strateji xəttin, ölkəmizin daha da güclənməsi üçün görülən fasiləsiz işlərin məntiqi nəticəsi isə tarixi ədalətin bərqərar olması – Vətənimizin ərazi bütövlüyünün təmin edilməsi olmuşdur. Rəşadətli Ordumuz döyüş meydanında həqiqi qəhrəmanlıq və vətənpərvərlik nümayiş etdirərək cəmi 44 gündə torpaqlarımızı işğaldan qurtarmışdır. Azərbaycan xalqının apardığı Vətən müharibəsi Ermənistanın kapitulyasiya aktını imzalaması ilə nəticələnmişdir. Azərbaycanın Vətən müharibəsindəki Zəfəri regionumuzda yeni reallıqlar yaratmışdır.".***

Qələbənin digər möhtəşəmliyi isə ölkəmizin əsas əraziləri ilə Naxçıvan arasındakı əlaqələrin bərpası olacaqdır.

**Nurlan Bağırov**
**Naxçıvan Dövlət Universitetinin magistrantı**

# İstiqlalımızın əzablı yolu

Azərbaycan ən qədim dövrlədən həm öz coğrafi, həm də strateji əhəmiyyəti ilə qonşu güclü dövlətləri buraya cəlb etmişdir. Zəngin xammal ehtiyatı və Böyük İpək yolunun burdan keçməsi ölkələrin maraqlarını burda kəsişdirirdi.

XVI əsrdə yaranmış Səfəvi dövlətinin zəifləməsi ilə Rusiyanın Cənubi Qafqaza maraqlarını kəskin artmışdı. Rusların ilk öhdəliyi həm Xəzəryanı, həm də İran körfəzi ətrafı əraziləri tabe etmək idi. Nadir şah Əfşarın güclü xarici və daxili siyasəti nəticəsində rusların bu planı təxirə düşmüşdü. Hansı ki, bu plan öz bərəsini XIX – XX əsrdə verəcək, Azərbaycan müstəmləkə siyasətinin hədəfinə çevriləcəkdi.

Nadir şahın nəhəng imperiyası dağıldıqdan sonra Azərbaycanda xanlıqlar dövrü başlamış, dağınıqlıqdan istifadə edən Çar Rusiyası bu əraziləri ələ keçirmişdi. Rusiyanın müstəmləkəçilik, xalqları əsarətdə saxlamaq siyasəti narazılıqlara, qiyamlara səbəb olmuşdu. I Dünya müharibəsində Çar Rusiyasın çoxlu itki verməsi, imperiya daxilində seperatçılıq meyllərinin güclənməsi və xalqların azadlıq mübarizəsi bu zalım nəhəngi uçuruma sürükləyirdi. 1917-ci ildə baş verən oktyabr inqilabı, çar tərəfdarları ilə sosialistlər arasında qarşıdurma vətəndaş müharibəsi ilə nəticələndi. İllərdir müstəmləkə şəraitində yaşayan xalqların azadlıq mübarizəsi gücləndi. Qafqazda yeni dövlətlər meydana gəldi. Bunlardan biri də Azərbaycan Xalq Cümhuriyyəti idi.

Bu dövrdə Azərbaycanın azadlıq mübarizəsinə Məmmədəmin Rəsulzadə və Vətən




mücahidləri, qurucu ziyalılar rəhbərlik edirdi. Onlar inqilabdan çox şey -“məhkum siniflərə hürriyyət, məhkum xalqlara muxariyyət” gözləyirdilər. Rusların - bolşeviklərin planında Zaqafqaziyanın, o cümlədən Azərbaycanın müstəqilliyi yox idi. Ən zəngin xammal, neft və qaz yataqlarını əldən vermək istəməyən bolşeviklərin məqsədi Çar Rusiyasının sərhədləri saxlanılmaqla ictimai quruluşu dəyişmək idi. Tarix boyu olduğu kimi bu zəngin sərvətlər II Dünya müharibəsində də Nasist Almaniyasının diqqətini çəkəcəkdi.

İnqilabdan sonra bolşeviklər Bakıda da fəallaşdılar. 1917-ci il noybrın 2-də Bakı Sovetinin iclası çağrılmış, Sovet hakimiyyətinin qurulduğu elan olunmuşdu. Qafqaz cəbhəsindən qayıdan rus əsgərləri, onlara yaltaqlıq edən ermənilər əliyalın Azərbaycan kəndlərini talan edirdi. Bakıda bolşeviklərin və ermənilərin əsas rəqibi “Müsavat” idi. Partiyanın muxtariyyat tələbi, müsəlmanlar arasında nüfuzunun artması bolşevikləri narahat edirdi. 1918-ci il martın 30-da şəxsi heyəti müsəlmanlardan ibarət “Evelina” gəmisinin tərki-silah edilməsi, buna etiraz edən müsəlmanlara qarşı dəhşətli soyqırım törədilməsi düşmənlərin xalqımıza gözdağı vermək, bütün Azərbaycanı işğal etmək məqsədi güdürdü. Xalqın ölüm-dirim mücadiləsi, canını vətənə fəda edən ziyalı övladlarının mübarizəsi və bunu nəticəsində Azərbaycan Xalq Cumhuriyyətinin elan olunması düşmənlərin planlarını pozdu.

1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası “İstiqlal bəyannaməsi”ni qəbul etdi. Hökumət əvvlcə Gəncəyə, sonra isə Bakıya köçürüldü. Bütün bunlar, Fətəli bəy Xoyskinin dediyi kimi, “yuxumuzda görməzdik, əqlimizə gəlməzdi”. Lakin bu mübarək gün millət vətən sevdalılarının əzmi, mübarizəsi ilə gerçəkləşdi. Onu da qeyd edək ki, dünyada heç bir qələbə üç imperiyanın mərkəzində, “şahların qızdığı qorxunc bir zamanda” yoxdan bir cumhuriyyəti var etməklə müqayisə edilə bilməz! Məmmədəmin Rəsulzadə, Fətəli Xan Xoyski, Nəsib bəy Yusifbəyli, Əliağa Şıxlınski, Səməd bəy Mehmandarov və neçə-neçə fədailər canı, qanı bahasına üç rəngli milli bayrağı vətən simasına qaldırmış, 23 ay ərzində misli görünməmiş uğurlara imza atmış, ən əsası millətin var olma gücünü bütün dünyaya sübut etmişdir. Zəif, gücsüz bir dövlətin sovetlər tərəfindən işğalı, 70 ildən artıq bir zamanda Sovet imperiyasının qəddar, qaniçən siyasəti millətin Vətən sevgisini, azadlıq təşnəsini söndürməyə müvəffəq olmamışdır. O üç rəngli bayraq vətən səmasından endirilsə belə, xalğın qəlbində yaşamış, Azərbaycan 71 il sonra öz müstəqilliyinə yenidən qovuşmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2021-ci il oktyabrın 15-də “Müstəqillik Günü haqqında” Azərbaycan Respublikası Qanununu təsdiq etmiş, həmin Qanuna əsasən mayın 28-i ölkəmizdə Müstəqillik Günü elan edilmişdir. Ölkə Prezidentinin imzaladığı müvafiq qanunda 28 may tarixi mahiyyət və məzmununa uyğun olaraq dəqiq ifadə olunmuşdur. Bu gün qəlblərimizdə yaşayan bayrağımız Vətən səmasında qürur və əzəmətlə dalğalanır. Müstəqil Azərbaycan regionda və dünyada böyük nüfuz sahibi hesab olunur. Ulu öndər Heydər Əliyevin, onun layiqli davamçısı İlham Əliyevin, onun ətrafında dəmir yumruğa dönən bütün Azərbaycanın qüdrəti sayəsində ölkəmiz regionda söz sahibi sayılır, Qafqazdan keçən bütün beynəlxalq layihələrə öz imzasını qoyur. Üçrəngli bayrağımız səmada qürur və əzəmətlə dalğalanır. Vətən mücahidlərinin müqəddəs ruhları, hər qarışından şəhid qanı axan bu torpağın əbədi və əzəli sakinləri bir ağızdan deyir: “Bu dəfə yüksələn bayraq bir daha enməyəcəkdir”!

**Nihad Abbasov**
**Beynəlxalq ticarət və logistika ixtisası üzrə I kurs tələbəsi**

# QƏRBİ AZƏRBAYCANIN GÖRKƏMLİ İLAHİYYAT ALİMLƏRİ

Qərbi Azərbaycanın görkəmli ilahiyyat alimlərinin həyatı və yaradıcılığı, nüfuz dairələri, onların islam elmlərinə yiyələnməsi zərurəti, Şərq aləmində onların yeri və rolu danılmazdır. Qərbi Azərbaycan alimləri ilə yanaşı, Azərbaycanın digər mütəfəkkir islam alimlərinin də müxtəlif elmlərə sahib olmaları faktı əhəmiyyətli dərəcədə zəruridir. 30-dan artıq Qərbi Azərbaycanın görkəmli islam alimlərinin fəaliyyət dairəsi, onların doğma yurda olan sevgi və məhəbbəti “İrəvani” təxəllüsündə öz əksini tapmışdır.

Araşdırmalardan məlum olmuşdur ki, Qərbi Azərbaycanın islam alimləri ilə yanaşı, digər elm sahələrinin müxtəlif bilik və bacarıq tələb edən istiqamətlərində də görkəmli mütəfəkkirləri olmuşdur.

XIX əsrin sonu XX əsrin əvvəllərində İslam dini uğrunda qətiyyətlə mübarizə aparan və yaşadıqları dövrün əvəzsiz zülmlərinə, işgəncələrinə məruz qalmış tanınmış görkəmli üləmalar sırasında Qərbi Azərbaycanın mütəfəkkir ilahiyyat alimlərinin də yeri danılmazdır. Bu bölgədə yaşayan görkəmli müctəhid və ayətullahlar dövrün ən əzablı yollarını keçmişlər. Mənəvi saflıq yolunu, humanist prinsipləri rəhbər tutaraq əqidə azadlığını təbliğ edən Qərbi Azərbaycanın görkəmli islam alimləri get-gedə mənfur erməni hucumuna məruz qalmış və nəticədə öz doğma ata-baba yurdlarını tərk edərək Azərbaycanın digər ərazilərinə pənah gətirmişlər. Milləti saf əqidə amalları uğrunda və milli-mənəvi əsaslarla tərbiyələndirən görkəmli islam alimləri Vətənin, torpağın nə olduğunu dərindən dərk etmişlər. Təkcə 30-a yaxın müctəhid və ayətullah “İrəvani” ləqəbi ilə tanınmış Qərbi Azərbaycanın görkəmli ilahiyyat alimləri Şərq aləmində böyük nüfuz sahibi olmuşlar. Bunlardan Ayətullahul-üzma Mirzə Əli İrəvani, Ayətullah Hacı Şeyx Yusif İrəvani, Ayətullah Şeyx Əbdül-Kərim İrəvani, Ayətullah Şeyx Mövla Həsən İrəvani, Ayətullah Həkim Şeyx Əbül-Qasim İrəvani, Ayətullah Mirzə Baqir İrəvani, Ayətullah Hacı Şeyx Əhməd İrəvani, Ayətullah Hacı Şeyx Əbdül Cabbar İrəvani, Ayətullah Hacı Şeyx Cavad İrəvani və başqaları Şərqin və Azərbaycanın tanınmış simaları olmuşlar.

Qərbi Azərbaycanın mütəfəkkir ilahiyyat alimləri sırasında özünəməxsus yeri olan fiqh elminin bilicisi, mütəfəkkir ziyalısı və böyük din xadimi Ayətullah Hacı Şeyx Cavad İrəvani olmuşdur. Atası Ayətullahul-üzma, Şeyx Məhəmməd Fazil İrəvaninin vəfatından sonra islam elmlərini tədris edən ustadlardan biri olmuşdur. O, 1870-ci ildə Nəcəfi-Əşrəf şəhərində alim ailəsində anadan olmuşdur. Uşaqlığ illərindən elmə, biliyə marağı olduğu üçün təhsilini ilk öncə evdə atasından almışdır. Sonra islam elmlərini, fəlsəfə və irfan elmlərini dərindən yiyələnmək üçün məşhur filosof və müctəhid Ayətullah Seyid Hüseyn





Badkubeyi və Ayətullah Şeyx Əbdül Həkim Səbzivaridən dərs almaqla ağır və zəhmətlərdən sonra elmi və əməli cəhdlər məqamına nail olur.

Görkəmli alim Ayətullah Hacı Şeyx Cavad İrəvani 1958-ci ildə Nəcəfi-Əşrəf şəhərində vəfat edir.

Ayətullah Mirzə Əlixan Ağa Mirzə oğlu İrəvani İslam dininin görkəmli alimlərindən olmuşdur. O, din xadimi olmaqla yanaşı, həmçinin də gözəl həkimlik istedadına malik olmuşdur. Lələ İrəvani adı kimi şöhrət qazanan alim 1837-ci ildə İrəvan şəhərində anadan olmuşdur. Cavanlığında islam elmlərinə və tibb elmlərinə həvəsi olan İrəvani dövrün məşhur müctəhidlərindən olmuşdur. O, tibb elmlərini dövrünün məşhur həkimlərindən olan Sadiq Mirzə Əbül Həsən Həkimbaşından almışdır. Elmini daha da təkmilləşdirmək üçün Türkiyənin İstanbul şəhərinə getməklə öz məqsədinə çatır. Ağır zəhmətlərdən sonra tibb elminin müxtəlif sahələrinə sahib olur və təbabət aləmində məharətli həkim kimi tanınır. Nəsrəddin Şahın zamanında ona Şəmsil-Hükəma ləqəbi verirlər. O, təbiblikdən əlavə İslam elmlərinin müqəddimatını, habelə ərəb ədəbiyyatını gözəl şəkildə bilmişdir. “Bundan əlavə şeir yazmaq məharəti olan alim bu istedadından gözəl şəkildə istifadə edərək İslama xidmət etmişdir. Onun türk və fars dilində çoxlu şeirləri vardır”.

Ayətullah Hacı Seyid Əli Ağa İrəvani dövrün məşhur islam alimlərindən olmuşdur. 1802-ci ildə İrəvanda anadan olan Ayətullah Hacı Seyid Əli Ağa İrəvani körpə yaşlarından hafizəliyi və dərrakəsi ilə seçilmişdir. Atası onu Nəcəfi-Əşrəfdə Əllamə Şeyx Mürtəza və Ayətullah Seyid Hüseyn Kuhkəməridən təhsil almaq üçün Nəcəfə göndərmişdir. Elmini, təhsilini uğurla başa vuran alim müctehidlik dərəcəsinə çatmışdır. O, 1873-cü ildə öz doğma vətəni olan İrəvana qayıtmışdır. Bir müddət doğma vətənində müəllimlik etmiş, ərəb və fars dillərində dərs demişdir. Bir neçə kitabın müəllifi olmuş və öz əlyazma xətti ilə yazdığı Risaləsi indi də qorunub saxlanılmaqdadır. “Alimin böyük kitabxanası bu gün də Nəcəfdə qalmaqdadır. Deyirlər ki, onun yadigarı: kitabxanası və oğlu böyük alim Ayətullah Ağa Mir Hoccət İrəvanidir”. O, 1906-cı ildə vəfat etmiş və Nəcəfi-Əşrəf şəhərinin “vadeyi-islam” qəbristanlığında dəfn olunmuşdur.

Qərbi Azərbaycanın görkəmli islam alimlərindən biri də Fazil İrəvani olmuşdur. O, 1782-ci ildə İrəvan şəhərində dünyaya göz açmışdır. İlk təhsilini həmin şəhərdə almış və 20 yaşında ali təhsil almaq üçün isə Misirin Qahirə şəhərinin “Əl-Əzhər” Universitetinə getmişdir. Orada təhsil aldıqdan sonra elmi biliklərin mükəmməlləşdirmək üçün İraqın Nəcəfi-Əşrəf şəhərinə qayıtmış və bir müddət orada qalmalı olmuşdur. 45 yaşında Təbrizə, İsfəhana gəlmiş və orada axundluq etmişdir. Zaman keçdikcə Şərqin tarixi keçmişi haqqında dəyərli əsərlər yazmışdır. Vətən həsrəti, Azərbaycanın gözəl guşəsi olan İrəvanın abu-havası onu yenidən öz doğma yurduna qayıtmağa vadar edir. Bir müddət İrəvan şəhərinin tarixi mənzərəsi ilə gözəlləşdirən “Göy Cami” məscidinin baş axundu kimi fəaliyyət göstərir. Yaşadığı dövr Rusiya-İran müharibələrinin gərgin illərinə təsadüf edir.

1846-cı ildə Fazil İrəvani Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam vəzifəsinə seçilir. “Şeyxülislam Fazil İrəvaninin yaradıcılığı araşdırılarkən onun dövrünün ən görkəmli yaradıcı şəxsiyyətlərindən biri olduğu aydınlaşır. O, bir neçə ədibi, tarixi və dini səciyyəvi əsərlərin müəllifidir. Əsərləri bir çox dillərə tərcümə olunmuş və Təbrizdə, Peterburqda, Berlində, Parisdə, İrəvanda çap olunmuşdur”.

Etibarlı mənbələrdən məlum olur ki, onun “Tarixi-İrəvan” adlı əsəri də olmuşdur. Əsər İrəvan və Qərbi Azərbaycan əyalətlərinin tarixinə, Azərbaycan xanlıqlarının fəaliyyətinin tarixi tədqiqatına həsr edilmişdir. Təəssüf ki, bu əlyazmanın bu günə qədər hansı arxivlərdə saxlanılması bəlli deyildir.

Onun əsas məşhur əsərləri “Pakluq kitabı”, “Tarixi-İrəvan”, “Qızılgül və bülbül” (bu əsərin əlyazması İrəvanın M.Maştas adına Qədim Əlyazmalar İnstitutunda saxlanılır), institutun Şərq ədəbiyyatı şöbəsində “Şeirlər məcmuəsi” adlı azərbaycanca 222 saylı bir əlyazma da var ki, 28 səhifəlik bu əlyazmanın üzünü Fazil İrəvani köçürmüşdür. Burada Azərbaycan şairlərinin şeirləri və deyişmələri toplanmışdır.

Fazil İrəvani 1885-ci ildə 103 yaşında Qərbi Azərbaycanın gözəl guşəsi olan İrəvan şəhərində dünyasını dəyişmişdir.Bundan əlavə Qərbi Azərbaycanın görkəmli islam alimlərindən; Ayətüllah Hacı Mehdi İrəvani, Ayətüllah Seyyid Əbdülməcid İrəvani, Ayətüllah Hacı Şeyx Məhəmmədtəqi İrəvani olmuşlar.

Hətta Naxçıvan alimlərinin digər islam alimlərindən bəhrələnməsi, xüsusən Ayətüllah Seyyid Mustafa Naxçıvaninin kamil şəkildə yetişməsində M.M.İrəvaninin rolu danılmazdır. S.M.Naxçıvani dövrünün tanınmış alimləri Mirzə Hüseyn Xəlil Tehrani, Şeyx Molla Kazım Xorasani, Molla Məhəmməd İrəvani və digər görkəmli alimlərdən təhsil alaraq bəhrələnmişdir.

Hətta S.M.Naxçıvani Nəcəfi-Əşrəfdə ayətüllah Sərəbyaninin, Fazil İrəvaninin, Şeyx Məhəmmədhəsən Kaziminin və Hacı Mirzə Həbibullah Rəştinin davamlı olaraq dərslərin almış və mərhum İrəvaninin fiqh və üsul dərslərində mütəmadi iştirak etmişdir. O, Sərəbiyaninin vəfatından sonra onun əvəzindən şəri hökmlər vermişdir.

Bu bir həqiqətdir ki, Qərbi Azərbaycanın görkəmli islam alimləri nəinki bölgə üçün, həmçinin bütün Şərq aləmi üçün əvəzedilməz simalara çevrilmişdir. Doğma vətənimiz olan Azərbaycan, milli mənsubiyyətindən asılı olmayaraq hər bir xalqın, millətin nümayəndəsi üçün əziz və doğmadır. Çünki xalqımız öz milli mədəniyyəti ilə digərlərinə örnək ola bilən bir çox keyfiyyətlərə malikdir. O cümlədən islami və milli-mənəvi dəyərləri olduğu kimi, həmçinin digər müsbət keyfiyyətli prinsiplərə malik olan qədimliyi ilə seçilən bir xalqdır. Tarixi mənbələrə əsaslanaraq aparılan araşdırmalarda məhz Qərbi Azərbaycanın görkəmli islam alimlərinin Şərq aləmində rolu və yeri təhlil edilmiş, onların həyat və yaradıcılığı haqqında müəyyən məlumatlar əldə edilmişdir.

XIX əsrin sonu XX əsrin əvvəlləri Qərbi Azərbaycanın görkəmli ilahiyyat alimləri özlərinə əsasən “İrəvani” ləqəbi götürmüşlər. Bu da öz növbəsində Qədim Azərbaycan yurdu olan İrəvan şəhəri haqqında olan həqiqətləri bir daha ortaya qoyur. Əzəli və əbədi Azərbaycan torpaqları olan Qərbi Azərbaycan əraziləri həm tarixi gerçəklikləri ilə, həm də fəxredici alim və ziyalıları ilə yadda qalmışdır.

Güman etmək olar ki, Qərbi Azərbaycan mədəniyyət və ədəbiyyatı, o cümlədən islami dəyərləri canlandırb yaşadan görkəmli islam alimləri bu gün ulu əcdadlarımızın bizə miras qoyduğu milli-mənəvi dəyərlərimizi qorumaq, yaşatmaq və gələcək nəsillərə çatdırmaq üçün bilik mənbədimiz olacaqdır. Aparılmış araşdırmalar Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin tarixi köklərindən geniş və ətraflı məlumat verməklə Müsəlman dünyasında tanınmış görkəmli şəxslərin Azərbaycan xalqının milli ideologiyasında yaratdığı mühüm və əvəzedilməz dəyərli sahələri ətraflı tərənnüm etdirmişdir.

**Səbuhi İbrahimov**
**AMEA Naxçıvan Bölməsi**
**fəlsəfə üzrə fəlsəfə doktoru, dosent**

## Dövlət gənclər siyasəti uğurla həyata keçirilir






Güclü təməldə qurulan siyasət hər zaman uzunömürlü və davamlı olur. Hazırda ölkəmizdə aparılan güclü siyasətlərdən biri də məhz Gənclər siyasətidir. Bu təməli isə ümummilli lider Heydər Əliyev qoymuşdur. Heydər Əliyev hər zaman gənclərə inanırdı və müstəqil Azərbaycanın gələcəyini gənclərdə görürdü: ***"Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir".***

Buna görə də, hazırkı gənclər Heydər Əliyevin nə qədər uzaqgörən bir şəxsiyyət olduğunu sübut edir. Ötən əsrin 90-cı illərində gedən ictimai-siyasi proseslərdə Heydər Əliyev bir daha gənclərə etibar etdi və gənclər qarşısında duran əsas məsuliyyətlər artmağa başladı. Həmin dövrdən başlayaraq Gənclər siyasətinin təməli qoyuldu və güclü təməllər yaradıldı. Hazırda Ulu Öndər Heydər Əliyevin gənclər siyasətinin davamı Prezident İlham Əliyev tərəfindən uğurla və böyük məharətlə davam etdirilir. Bütün sahələrdə olduğu kimi, gənclər sahəsində də mühüm addımlar atılır. Gənc nəslin düzgün yetişməsi, düzgün təbliği, mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili bu sahədə prioritet istiqamətlərdən biridir. Azad gənclik anlayışı formalaşmaqla yanaşı, həmdə icra olunmaqdadır.

Hazırda ölkəmizdə fəaliyyət göstərən bir sıra könüllü təşkilatları da var ki, məhz gənclərin boş vaxtlarının səmərəli keçirilməsi üçün xüsusi rol oynayır. Yaradılan könüllülük prinsipi ilə Azərbaycan gənci öz sözünü bu sahədə də deyir. Böyük və mükəmməl bir dövrün gəncliyiyik çünki, heç bir gəncliyə qismət olmayan bir ölkədəyik. Ard-arda şanlı qələbələr, baş verən siyasi proseslər, göstərilən qətiyyətli siyasət biz gəncliyə çox böyük örnəkdir.

Bəli, Ümumilli liderin qoyduğu təməl üstündəki gənclik, Müzəffər Ali Baş Komandanın davam etdirdiyi mükəmməl siyasət nəticəsində azad oldu Qarabağ. Bununla da ölkəmiz öz ərazi bütövlüyünü tam şəkildə bərpa etdi. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi: ***"Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir", "Gənclər, mən sizə inanıram, güvənirəm"***. Hər bir cümlə gəncliyimizin ruhlanması, mənəviyyatının güclənməsi üçün bəs edir. Çünki müasir gəncliyimiz dövlət dəstəyini çox yaxşı hiss edir və özünü daim inkişaf etdirir.

Gənclər siyasətimizin əsas istiqamətlərindən biri də idman sahəsidir. Bütün dünyada Azərbaycan idman sahəsində öz sözünü deyir və beynəlxalq arenada həm siyasi, həm hərbi, həm təhsil, həm də idman sahəsində güclü addımlar atılır. Bizim gənclərimiz dünya çempionu, Avropa çempionu olur və rəqiblərini yüksək fərqlə geridə qoyur. Bu isə hər birimizin fəxr hissi ilə öyünməmizə dəlalət edir. Prezidentin də idmançılarımızla görüşündəki səmimi çıxışları onlara yüksək ruh bəxş edir və günü-gündən inkişaf edən idman sahəmizdə də gənclərin fəallığı artır.

Bir daha qeyd edək ki, müasir Azərbaycan gəncliyinin banisi ümummilli lider Heydər Əliyev, davamçısı isə Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Biz bu gün fəxr edirik, ona görə ki, ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu gənclər siyasətinin nümayəndəsi, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin diqqət mərkəzində saxladığı güclü və intellektli gəncliyik.

**Əli YARIYEV**
**Jurnalistika ixtisası üzrə**
**III kurs tələbəsi**

Gözəl bir may səhəri dünyaya göz açdı, Heydər. Gəlişi ilə ailəsinə yeni bir sevinc gətirmişdi sanki. Amma ailəsi hələ onun gələcəkdə Azərbaycanın ulu öndəri statusunu qazanacağını bilmirdi. Gələcəkdə Azərbaycanın misilsiz şəxsiyyəti olacağı ağıllarına belə gəlmirdi. Heydər Əliyevin valideynləri oğullarının gələcəkdə çox vətənpərvər bir övlad olacağından xəbərsiz idilər.

Mənalı həyatını öz xalqına bəxş etmiş ulu öndərimiz siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan tarixində dərin iz buraxıb. Ulu öndərin sayəsində bu gün onun görmək istədiyi Azərbaycan günümüzün reallığına çevrilib. Heydər Əliyevin yüksək mədəni irsi gələcək nəsillər üçün zəngin xəzinə olacaq. Məhz buna görə də bu böyük dühanın adı son yüzilliyin ən görkəmli dövlət xadimləri və siyasi liderləri ilə bir sırada çəkilir.

## Ürəklərdə yaşayan dahi

Azərbaycan xalqının çoxəsrlik dövlətçilik ənənələri zəminində yetişib formalaşmış görkəmli dövlət xadimi olan Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisi və qurucusudur. Azərbaycan dövlətçilik tarixində ən yüksək zirvəni fəth etmiş Heydər Əliyev həm tarixi yaradan, həm də tarixi şəxsiyyətdir. Müstəqil Azərbaycanın memarı olan Heydər Əliyevdən danışanda sanki onun bədii obrazı gözümün önündə canlanır. Və bu bədii obrazı ən yaxşı canlandıran sənətkarlarımızdan biri də Fikrət Qocadır.

Vətən oğlu, ata oldun bizə sən,
Ata kimi qayğımızı çəkirdin.
Şair kimi həssas idin sözə sən,
Danışıqda sözdən sözü çəkirdin.

Fikrət Qocanın bu şeirini oxuyanda gözümüzün önündə bu dahinin bədii obrazını canlandırmaq elə də çətin deyil. Bəli, Heydər Əliyev həqiqətən də Vətən oğludur. Vətəni, milləti, xalqı üçün canından belə keçməyə hazır olan, adını qızıl hərflərlə bütün Azərbaycanın yaddaşına həkk edən dahi şəxsiyyətdir. Bu əbəs yerə deyil. Heydər Əliyev Azərbaycanın həyatına ən vacib vaxtda gəldi. Elə bir vaxt ki, Azərbaycanın parçalanması an məsələsi idi. Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ölkənin həyatında ciddi dönüş yaratdı. Qısa müddət ərzində apardığı siyasət nəticəsində Azərbaycana qarşı yaradılmış mənfi ictimai rəyi məhv etdi. Xalqımızın haqq səsini bütün dünyaya çatdırdı.

Gəlişinlə qurtulubdur bu Vətən.
Sən oldun bu xalqa ümid və güvən.
Sən oldun dar gündə köməyə yetən,
Ulu bir sərkərdə, ulu bir öndər.

Heydər Əliyev ölkəsinin ən çətin günlərində xalqının yanında olan, azadlıq naminə hər şeyi gözə alaraq özünü təhlükəyə atan az sayda insanlardan biridir. Bügünkü azadlığımızı, üstündə qürurla dayandığımız bu torpağı, ölkəmizdə xoşbəxt yaşamağı, ən əsası da güvənlə atdığımız hər addımı Heydər Əliyevə borcluyuq.

Uşaqları çox sevməsi də içində böyük bir mərhəmət hissi daşımasının bariz nümunəsidir. O hər zaman deyərdi: "Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır".

Həm xalqı ilə bu qədər yaxından maraqlanması, həm də ölkəni böyük bir uçurumun kənarından xilas etməsi sadəcə bir dahi şəxsiyyətə xas olan xüsusiyyətdir. Haqqında danışmağa kəlmələrin belə yetmədiyi, adına dastanlar, romanlar yazılmağa layiq olan bu dahi şəxsiyyət xalqını düşünərək İlham Əliyev kimi Vətənə layiqli bir övlad qoyub gedir. Heydər Əliyev siyasi xəttini uğurla davam etdirən İlham Əliyev indi ölkənin əsas söz sahibidir. Siyasi ideoloji baxışları, qətiyyəti və cəsarəti, müdrik və uzaqgörənliyi ilə Prezident İlham Əliyev yeni dövrün müasir tipli Heydər Əliyevidir.

Yüksək milli şüur və vətənpərvərlik nümayiş etdirən, Azərbaycanın dövlətçilik maraqlarını hər şeydən uca tutan İlham Əliyev 44 günlük haqq savaşında Qarabağımızı işğaldan azad etdi. Azərbaycanın döyünən ürəyi, eyni zamanda ən yaralı yeri olan Qarabağı azad etməklə Ali Baş Komandan Ata vəsiyyətini uğurla həyata keçirmiş oldu və tarixi ədalət zəfər çaldı.

**Səkinə Əhmədova**
**Jurnalistika ixtisası üzrə**
**I kurs tələbəsi**

## Dünyanın ikinci üzü



Nəzər salaq keçən əsrə, xoşbəxtlikləri lampa işığında idi, bəlkədə elə ona görə bizə gəlib çatmadı, bəlkə elə ona görə yaşamadı həmin ismət, abır. Çatdırmadı bizə o lampa öz işığını, ya yanacağı bitdi, ya da…

Min bir dərdin dəvası nənələrin beynində idi axı, hər problemin açarı babaların bir kəlməsində idi axı. Ağsaqqal bir kəlmə deyər, susardı hamı. Qanun var idi, ağsaqqal qanunu.. Uşaq oturar yerində, söz imkanı olanda danışardı. Hardadı o adət, hardadı o ismət. Bəs biz hardayıq, hara gəlmişik, necə gəlmişik, nə zaman gəlmişik...

Cavabsız suallar, etinasız bir dövr.

Nənəm deyərdi ki, sənin ulu baban Ağabala kişinin bir sözü var idi. Dünyanın sonu "uşaqlar böyük yerində, böyüklər uşaq yerində oturanda" gələcək, "Atalar balasını öldürəndə, balalar atasını öldürəndə gələcək". İndi artıq uşaqlar həmin mühitdə böyüyür. Deyirlər ətrafında kim olsa, səndə onlardan biri olarsan, günümüzdə yaxşını tapmaq da çətindir ki, ətrafına yığasan. Biz bəlkə də gəlmişik dünyanın sonuna, ancaq xəbərimiz yoxdur. Biz "Bəxt üzüyü"ndə Moşunun paltarının sudan qara çıxdığı yerdəyik, ağ üzlərin qara, qara üzlərin ağ olduğu zamandayıq. Keçən əsrdən göndərmişdilər əslində mesajı, "Söylü" demişdi bunu bizə. Əslində onuda deyim ki, elə o dövrdə də var idi günümüzün hadisələrindən, amma dünya bu qədərinə şahidlik etməmişdi. Ata oğula "kəs səsini" deyir, oğul ataya "kəs səsini" deyir, vurur, söyür, öldürür. Bir sözlə yaşamır.

Hər birimizin acı yeri olan "Tiktok"da biri reklam bazarında məhşurlaşmaqla biznesini qurur, biri uşağını reklam edərək, biri də qadın paltarları geyinərək pul qazanır. Çox yaxşı inkişaf üsullarından olan sosial şəbəkələri evimiz hesab etmişik, hələ bununla bərabər evin içindəki kimi davranmağa başlamışıq. Biz hara gedirik bilmirəm, amma gedirik. Sonunda ya bizi bitirəcək dünya var, ya da günümüzü "ağ" edən dünya…

Biz dünyanın ikinci üzündəyik.

**Nicat Qurbanov**
**Jurnalistika ixtisası üzrə**
**III kurs tələbəsi**

## Sənə heyranam, Naxçıvan!



Hələ orta məktəb illərində ikən arzumuz idi, universitetə daxil olmaq, paytaxt Bakıda təhsil almaq...

Lap kiçik yaşlarından Xəzər dənizi, Qız qalası, bir sözlə, əsrarəngiz Bakı tələbəlik arzumu bəzəyirdi.

Orta məktəbi Bərdədə oxusam da, ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanında tale mənim yolumu Bakıya yox, məhz Naxçıvana saldı. Qismət belə gətirmişdi ki, uşaqlıq arzum olan jurnalist peşəsinin sirlərinə Azərbaycanın döyünən ürəyi Naxçıvanda yiyələnəcəkdim.

O Naxçıvan ki ölkəmizin ən qədim şəhərlərindən biri, dövlətçilik tariximizin təməllərinin atıldığı məmləkətdir. Naxçıvan – nemətləri dadlı, insanları mərd, qoçaq, qonaqpərvər, şəhəri təmiz, sabahları nurlu, gözəl şəhər. Hər gün daha da aşiq oluram Nuhun yurdu Naxçıvana.

Ulu yurdun axşamları, sabahları bir başqadır. Qədim diyarın təmizliyi, nizam-intizamı, səliqə-səhmanı da öz yerində...Dostluqları təmənnasız və birmənalı. Bir də Naxçıvanın təmizliyinə heyranam. Hər qarışı təmiz, təravətli Naxçıvan. İlk dəfə Naxçıvana gələndə şəhəri bu qədər təmiz görəndə mənimlə birgə bura gələn atamla heyrətləndik. İndi özümü buranın doğması, əzizi hiss edirəm. Artıq dostlar da qazanmışam. Havalar isindikcə Naxçıvanı qarış-qarış gəzirəm, bu yurdu kəşf edirəm.

Bu il həm də Naxçıvanın muxtariyyət statusu qazanmasından 100 il ötür. Bir əsrlik yaşın mübarəkdir, Naxçıvan!

**Fəxriyyə Əvəzli**
**Jurnalistika ixtisası üzrə**
**I kurs tələbəsi**

# TÜRKİYƏ MÖVZULU MAHNILARIMIZ

Tarix boyu – əsrlərdən, qərinələrdən üzübəri qədim türklər digər xalqlardan özünün vətənsevərliyi, mübarizliyi, mərdliyi, digər millətlərə qarşı xoş rəftarı, qonaqpərvərliyilə, həmçinin adət-ənənələri və mədəniyyətilə fərqlənmişlər. Zaman-zaman türk tayfalarının sayı artdıqca və onlar dünyanın müxtəlif bölgələrinə yayıldıqca öz soy-köklərinə və milli, mənəvi adət-ənənələrinə sadiq qalmaq şərtilə mədəni inkişaf larını müxtəlif formalarda təmin etmişlər. Bu xüsusiyyətlər əsasən dildə - danışıq və yazı tərzində, musiqidə, o cümlədən mahnılarda və rəqslərdə daha çox təzahür etmişdir.

Lakin belə xüsusiyyətlər qonşuluqda yaşayan türk xalqlarında çox cüzi fərqliliklə özünü biruzə vermişdir. Bunu Azərbaycanla Türkiyənin timsalında daha aydın görürük. Daha çox XX əsrin əvvəllərindən bu iki ölkənin artıq qonşuluq deyil, qardaşlıq münasibətləri və əlaqələrində bir oyanış, dirçəliş və inkişaf hiss edilməyə başladı. Bu münasibətlər siyasi, iqtisadi və hərbi sahələrdə olduğu kimi, ədəbi-mədəni əlaqələrdə də hiss olunmağa başladı.

Qarşılıqlı olaraq Azərbaycanda Türkiyəni, bu qardaş ölkədə isə Azərbaycanı vəsf edən poeziya nümunələri yaranmağa başladı. Lakin etiraf etmək lazımdır ki, belə nümunələr 1920-ci ilə qədər Azərbaycanda sayca çoxluq təşkil edirdi. Hətta Türkiyəyə, onun şanlı ordusuna ithaf olunan musiqilər mahnılar da meydana gəldi.

Bu gün yüksək vətənpərvərlik hissləri aşılayan, Azərbaycanda, həmçinin qardaş Türkiyədə çox populyar olan “Çırpınırdı Qara dəniz...” mahnısının qısa tarixcəsinə nəzər salaq. Mahnının sözlərini görkəmli şairimiz Əhməd Cavad 1914-cü ildə, Gəncə şəhərində qələmə almışdır. Dörd il sonra – 1918-ci ildə isə dahi bəstəkarımız Üzeyir Hacıbəyov həmin şeirə möhtəşəm bir musiqi bəstələyib. Üzeyir bəy bu mahnını həmin ilin sentyabrında Bakını işğaldan azad etmiş və ümumiyyətlə, Azərbaycanda misilsiz şücaət göstərmiş Nuru paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusunun qəhrəmanlığına ithaf etdiyini bildirmişdi.

1919-cu ildə Əhməd Cavadın nəşr olunmuş “Dalğa” adlı ikinci şeir kitabında “Çırpınırdı Qara dəniz...” də özünəməxsus yer almışdır. Ü.Hacıbəyovun bu mahnısı müğənnilər Azərinin və Şəmistan Əlizamanlının ifalarında daha da populyarlaşmışdır. Mahnı Türkiyədə Azərinin ifasında hər zaman böyük coşqu və rəğbətlə qarşılanmaqdadır.

Bir sıra maddi-mənəvi sərvətlərimizə sahib çıxmaq istəyən, o cümlədən milli musiqimizi, onun alətlərini, mahnılarımızı oğurlamaqdan çəkinməyən ermənilər “Çırpınırdı



Qara dəniz...” mahnısını da həyasızcasına “milli aşığımız” dedikləriSayat Novanın “Kamança” əsəri kimi təqdim etməkdədirlər. Onlar həmçinin bu musiqinin Daşnaksütyun partiyasının himni olduğunu belə iddia edirlər.

Əhməd Cavadın “Çırpınırdı Qara dəniz...”ində coğrafi məkan və ünvan yüz faizli etno-poetik işarə kimi çıxış edir. Qara dəniz türkün və türk dünyasının adının, və şərəf-şanının ifadəsi kimi mənalandırılır.

1914-cü ildə - Birinci Dünya Müharibəsinin qızışdığı bir vaxtda öz mənəvi iztirablarını və böyük nigarançılığını tərənnüm etmək üçün Ə.Cavadın Qara dənizə xitab etməsi heç də təsadüfi deyildi. Qeyd etdiyimiz kimi, sanki Qara dəniz obrazı burada türk dünyasının itirilmiş torpaqlarının və vətənlərinin, şərəf və şöhrətinin, ümumən, şanlı tarixinin rəmzinə çevrilib. Məhz buna görə də Qara dənizə belə həssas və ehtiraslı münasibət heç də təsadüfi deyildi. Elə həmin dövrdə türk dünyasının bir sıra başqa coğrafi məkan və ümmanlarına, o cümlədən, Xəzər dənizinə də eynən o cür yanaşıldığının, itirilmiş Qara dəniz və Azərbaycanın məhrum olmaq təhlükəsi başının üstünü almış Xəzər dənizinin də eyni dərəcədə doğma deyimlərlə tərənnüm olunduğu, vəsf edildiyini görürük.

O vaxtlar sovet müğənnilərinin, musiqi kollektivlərinin xaricə qastrol səfərləri zamanı onların repertuarı diqqətlə nəzərdən keçirilir, təhlil olunur, məsləhət bilinməyən mahnı və musiqi nömrələri siyahıdan çıxarılırdı. Repertuardankənar hər hansı bir ifa isə özbaşınalıq kimi qiymətləndirilərək sərt cəzalandırılırdı. Türkü düşmən obrazında təqdim edən SSRİ ideologiyasının ən təhlükəli dönəmində Rəşid Behbudovun Türkiyəyə səfəri zamanı KQB (Dövlət Təhlükəsizliyi Komitəsi) senzurasından keçən mahnıları arasında “Dostluq nəğməsi” yox idi. Heç kim də bilmirdi ki, belə bir mahnı qəflətən İstanbul səhnələrindən türk qardaşlarımıza ərmağan ediləcək. İndi rahat dediyimiz qardaş kəlməsini o dönəmlərdə milyonların qarşısında söyləmək “öz başını  ətəyinə qoymaq” demək idi. Lakin tarixdən süzülüb gələn qan yaddaşımıza hopmuş Azərbaycan-Türkiyə qardaşlığının simvoluna çevrilən bu mahnı Rəşid Behbudov dahiliyinin və cəsarətinin simvoluna çevrildi.

“Bəli, “Dostluq nəğməsi” ilk dəfə 1961-ci ildə Rəşid Behbudovun Türkiyəyə səfəri çərçivəsində İstanbul səhnəsində səsləndi. İlk dəfə rəsmi və açıq şəkildə Rəşid Behbudov SSRİ KQB-sindən qorxmadan Türkiyə millətinə qardaş, dost dedi. Nümayəndə heyətinin xəbəri olmadan, oteldə, gecə ikən yazılan “Dostluq nəğməsi” 60-ci illərdə Türkiyədə və Azərbaycanda dillər əzbərinə çevrilərək, qardaşlıq, dostluq himninə çevrildi. Düzdür, sonradan Rəşid Behbudov bu əməlinə görə sovet ideologiyasının qılıncına çevrilmiş KQB kabinetlərində çox suallara cavab verməli oldu. Amma bir faktı gizlədə bilmədilər. Rəşid Behbudov hələ 60-ci illərdə SSRİ ideologiyasının iki millətə böldüyü türk və azərbaycanlını bir millət olaraq təqdim etməyi bacardı. Təbii ki, Rəşid Behbudovun bu amal uğrunda savaşı, mübarizəsi mənfur düşmən olan rus şovinistlərinin, erməni daşnaklarının gözündən, zehnindən heç vaxt yaynmadı. Onlar uzun illər bu dahi müğənnidən qisas almağa çalışdılar. Planlar qurdular, imkan axtardılar. Çox təəssüf ki, buna nail ola bildilər də. Artıq heç kimə sirr deyil ki, Rəşid Behbudovun ölümündə ermənilərin birbaşa iştirakı olubdur. Nəinki erməni, hətta o vaxtkı SSRİ rəhbərliyinin bu işdə onlara xeyir-duası da Rəşid Behbudovun öldürülməsində mühüm rol oynayıb.

Rəşid Behbudovun “Dostluq nəğməsi” İstanbuldan ta Altaya qədər yuxuya verilmiş türk toplusunun oyanması üçün bir stimul oldu. Onun kimi ziyalıların ozamankı arzularının çin olmasına bariz nümunə bugünkü sarsılmaz və əbədi Azərbaycan-Türkiyə qardaşlığıdır.

Müstəqillik illərində “Bir millət, iki dövlət”in qardaşlığına həsr olunmuş ilk mahnı 1997-ci ildə müğənni Aygün Kazımovanın oxuduğu “Azərbaycan-Türkiyə”mahnısıdır. Xalq şairimiz Bəxtiyar Vahabzadənin sözlərinə bəstəkar Cavanşir Quliyevin pop janrında bəstələdiyi bu mahnı qısa müddətdə hər iki ölkədə məşhurlaşdı. Həmin mahnı 2015-ci ildə C.Quliyevin əsərlərindən ibarət “Canım Vətənim” adlı albom-diskə də daxil edilmişdir.

Bir ananın iki oğlu,
Bir ağacın iki qolu,
O da ulu, bu da ulu –
Azərbaycan – Türkiyə.

Eyniadlı mahnı – Bəxtiyar Vahabzadənin məşhur sözlərinə bu məqalənin müəllifi tərəfindən 2007-ci ildə, yeni formatda – solist və xor üçün bəstələnmişdir. Həmin bəstə Naxçıvan Dövlət Universiteti tələbələrindən ibarət xorun ifasında Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğanın Naxçıvan səfəri çərçivəsində bu təhsil müəssisəsini ziyarəti şərəfinə verilən konsertdə və NDU nümayəndə heyətinin qardaş ölkənin Elazığ Dövlət Universitetinə səfəri zamanı ifa olunmuşdur.

2015-ci ildə artıq tanınmaqda olan bəstəkar Əli Behbudzadə xalq şairi Nəriman Həsənzadənin sözlərinə “Qələbə marşı” adlı mahnı yazmışdır. Mahnı 1918-ci ilin sentyabrında Bakını yadelli işğalçılardan azad edən qəhrəman türk generalı Nuru Paşaya ithaf olunmuşdur. Həmin  il aprel ayının 24-də Bakıdakı Beynəlxalq Mətbuat Mərkəzində Şəmistan Əlizamanlının ifasında “Qələbə marşı”na çəkilmiş klipin təqdimat mərasimi keçirilib.

2017-ci ilin əvvəllərində bəstəkar Əli Behbudzadə Azətbaycan-Türkiyə qardaşlığını tərənnüm edən yeni bir mahnı üzərində işini tamamladı. Azərbaycanın əməkdar incəsənət xadimi Kəmalə Ağayevanın sözlərinə bəstələnmiş “Birlik nəğməsi” adlı mahnı həmin ilin Novruz bayramı günündə, İctimai Televiziya və TRT-Avaz kanallarının birgə səhər verilişində canlı yayımla ilk dəfə səsləndi. Xalq artistləri Gülyaz və Gülyanaq Məmmədovaların böyük şövqlə ifa etdikləri “Birlik nəğməsi” hər iki ölkənin tamaşaçıları tərəfindən məmnunluq və rəğbətlə qarşılandı.

Musiqisi Novruz Aslana, sözləri  Eldar Allahyaroğlu na məxsus olan daha bir “Azərbaycan-Türkiyə” adlı  mahnı bir neçə ildir ki, müğənni Lalə Məmmədovanın ifasında teleradio efirlərindən səslənməkdədir.

2019-cu ildə bəstəkar Sevinc Tofiqqızı nın Almaz İlahə Əhmədovanın eyniadlı şerinə bəstələdiyi “Türkiyə-Azərbaycan” mahnısının Djb.az-ın media dəstəyilə Beynəlxalq Mətbuat Mərkəzində" təqdimat mərasimi keçirilmişdir. Mahnını tanınmış gənc müğənni Sevinc Musayeva ifa etmişdir.

29 oktyabr ərəfəsində - Cümhuriyyət bayramı münasibətilə bəstəkar Sevinc Tofiqqızı Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoralla görüşərək qardaşlığımızın hər bir sahədə, həmçinin incəsənət yönündə irəliləməsinin bariz nümunələrindən söz açan bəstəkar “Türkiyə-Azərbaycan” mahnısının diskini səfirə hədiyyə etmişdir.

**VALİDƏ HÜSEYNOVA**
**Orkestr alətləri və drijorluq kafedrasının dosenti, Naxçıvan MR əməkdar artisti**

# Naxçıvan vokal məktəbinin layiqli davamçısı – Yaşar Qurbanov



Azərbaycan milli vokal sənətinin təşəkkülü və inkişafı SSRİ xalq artisti, professor, ictimai xadim Bülbülün adı ilə bağlıdır. Bülbül Azərbaycan milli oxuma sənəti sahəsində elə bir məktəb yaratmışdır ki, bu məktəb təkcə Azərbaycanda deyil, həmçinin keçmiş SSRİ məkanında, Yaxın və Orta Şərq ölkələrinin vokal məktəblərinin inkişafında da mühüm rol oynamışdır.

Paytaxt Bakıda musiqi incəsənətinin bütün sahələrində, o cümlədən vokal ifaçılığı sahəsində gedən inkişaf və yüksəliş Azərbaycanın digər bölgələrinə də öz təsirini göstərmişdir. Xüsusilə Bakıdan xeyli uzaq məsafədə yaşayan naxçıvanlı gənclərin oxumaq, yazıb-yaratmaq, sənət sahibi olmaq istəyi onları Bakıda orta və ali təhsil almaq üçün ruhlandırırdı. Buna görə də gənclər Bakıya axın edir, orada ali təhsilə və professional səhnə mədəniyyətinə yiyələnərək doğma torpağa qayıdırdılar.

Naxçıvanda vokal sənətinin inkişafı məhz XX əsrin II yarısından başlamışdır. Bu zaman kəsiyində neçə-neçə gözəl səsə, fitri istedada malik olan sənətkarlar nəsli yetişmişdir. Bu sahədə Naxçıvanın görkəmli vokal ifaçılarından biri də ömrünün çox hissəsini sənətə həsr etmiş, Naxçıvan vokal sənətinin inkişafına öz töhfələrini vermiş, uzun illər Naxçıvan vokal məktəbinin layiqli davamçısı kimi fəaliyyət göstərmiş Yaşar Qurbanovdur. Musiqi fəaliyyətinə 14 yaşından başlayan ifaçının təkcə Azərbaycanda deyil, həmçinin Ukraynada, Rusiyada da uğurlu çıxışları olmuşdur. Elbrus Mehdiyev, Yaşar Səfərov, Novruz Məmmədov kimi sənətkarlarla sıx əlaqəsi onun musiqi inkişafına böyük təsir göstərmiş və fayda vermişdir.

1971-ci ildən Naxçıvan Dövlət Mahnı və Rəqs Ansamblına solist kimi işə dəvət edilən Yaşar Qurbanovun sənətə olan həvəsi həqiqi hərbi xidmətdə olduğu zaman da fəal çalışmağa vadar etmiş, musiqi fəaliyyətini dayandırmamışdır. Qulluq etdiyi gəmidə estrada qrupu yaradaraq bir çox konsertlərdə, hətta xarici ölkələrdə Tunis, Misir, Əlcəzairdə geniş konsert proqramları ilə çıxışlar etmişdir. Onun repertuarında əsas yeri xalq mahnımız olan “Sarı gəlin” tutur. Bədnam qonşularımız olan ermənilərin oğru xisləti, bu mahnıya sahiblənmək arzuları hər bir musiqiçi kimi əlbəttə Yaşar müəllimi də narahat edirdi və elə buna görə də o, demək olar bütün konsertlərində hər dəfə səhnəyə çıxarkən “Sarı gəlin” mahnısını ürək yanğısı ilə ifa edirdi. Hərbi qulluğu bitirdikdən sonra Yaşar Qurbanov Naxçıvana qayıdıb, burada Naxçıvan Dövlət mahnı və rəqs ansamblında musiqi karyerasını davam etdirmişdir.

Təhsilini davam etdirmək üçün Naxçıvan Orta İxtisas musiqi məktəbinin vokal ixtisası üzrə qəbul olunan Yaşar Qurbanov Leninqraddan (Sankt-Peterburq) gəlmiş ixtisaslı pedaqoq Olqa İvanovnanın sinfində peşəkar səviyyədə vokal üzrə oxumuş, bundan əlavə ondan ustad dərsləri almışdır. 1987-1992-ci illərdə Azərbaycan Dövlət İncəsənət Universitetinə qəbul olunan Yaşar Qurbanov təhsil illərində bir çox konsert proqramları ilə çıxışlar etmiş, zəngin repertuara yiyələnmişdir. Moskvada keçiriləcək konsert proqramına dəvət alan Y.Qurbanovun səfəri tək Moskva şəhəri ilə bitməmiş, bir ay müddətində Krasnoyarsk, Novosibirsk və digər şəhərlərdə də uğurla Azərbaycan, rus, eyni zamanda xarici bəstəkarların əsərlərini, ariya, romans və mahnılarını ifa etmişdir.

Onun məhsuldar fəaliyyətinin nəticəsidir ki, o, SSRİ Mədəniyyət Nazirliyi tərəfindən döş nişanı ilə, bir çox festivallarda (Xankəndidə keçirilən “Qızıl payız” festivalları; 1980-1983-cü illər) I dərəcəli diplomlarla təltif edilmişdir. Yaşar müəllim Naxçıvan Muxtar Respublikasında keçirilən dövlət tədbirlərində konsert proqramları ilə çıxış etmiş və dəfələrlə mükafatlandırılmışdır. Qeyd etmək yerinə düşər ki, Yaşar müəllim uzun illər Naxçıvan Dövlət Filarmoniyasının solisti kimi də fəaliyyət göstərmişdir.

Səhnə fəaliyyəti ilə yanaşı həm də pedaqoji fəaliyyətlə məşğul olmuş, gənc nəsil vokalçıların yetişməsində gərgin əmək sərf etmiş Yaşar müəllim 1978-ci ildən bugünə qədər pedaqoji fəaliyyətlə məşğul olur. Hal-hazırda Naxçıvan Musiqi Kollecində vokal sənətinin sirlərini gənc nəslə öyrədərək gələcəyin vokal ifaçılarını yetişdirir. Ustadın yetirmələri bu gün nəinki Naxçıvanda, həmçinin Azərbaycanda ən böyük konsert salonlarında müvəffəqiyyətlə çıxış edirlər.

Onun səmərəli fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, 2016-cı ildə Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti fəxri adına layiq görülmüşdür.

Yaşar müəllimin ailəsi xüsusi musiqi qabiliyyəti olan bir ailədir. Belə ki, onun qardaşı gözəl vokalist, Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti Cahangir Qurbanov da Azərbaycan vokal sənəti sahəsində öz sözünü demiş, dəstxəttini yaratmış musiqiçilərdəndir. Həyat yoldaşı Naxçıvan Dövlət Universitetinin baş müəllimi Sevda Hüseynova hələ gənc yaşlarından Yaşar müəllim ilə çiyin-çiyinə çalışmış, hər zaman Yaşar müəllimin özünün və onun yetişdirdiyi tələbələrin konsertmeysteri kimi gözəl müşayiəti ilə dəstək olmuşdur.

May ayının 22-si Yaşar müəllimin 70 yaşı tamam oldu. Bu münasibətlə gözəl sənətkar və pedaqoq Yaşar Qurbanovu təbrik edir, ona can sağlığı, yorulmaz fəaliyyətində uğurlar və yeni yaradıcılıq nailiyyətləri arzulayırıq!

**Günay Məmmədova**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**

# Şərqdə ilk opera yazan bəstəkar qadın - Şəfiqə Axundova

Bu il Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi, Azərbaycan Respublikasının Xalq artisti, musiqi tarixinə Şərqdə opera yazan ilk qadın bəstəkar, "Şöhrət" ordenli Şəfiqə Axundovanın 100 illik yubileyi qeyd olunur.

Şəfiqə xanım, dahi sənətkar Üzeyir Hacıbəylinin böyük gələcəyinə inandığı tələbə kimi korifey bəstəkardan xeyir-dua almış, musiqi təhsili görməzdən öncə pianoda məharətlə ifa edərək əsərlər bəstələmiş, hələ gənc yaşlarında böyük sənət adamlarını, incəsənət xadimlərini istedadına inandıra bilmişdi. Şəfiqə Axundovanın sənət yolunun müəyyənləşməsində ustad müəlliminin böyük rolu olmuşdu.

Şəfiqə xanım Axundova 1924-ci il yanvarın 21-də Azərbaycanın ən qədim mədəniyyət mərkəzlərindən biri olan (o vaxt Nuxa adlanan) Şəki şəhərində sayılıb-seçilən, tanınmış ziyalı Qulam Bağır oğlu Axundovun ailəsində dünyaya göz açmışdır. Atası Qulam Axundov müəyyən illərdə partiya işində, rəhbər vəzifələrdə çalışmışdı. Şəfiqə xanımın anası Züleyxa Səməd qızı Axundova isə Azərbaycanın yazıçı-dramaturqu, filosof və böyük ictimai xadim Mirzə Fətəli Axundovun nəslindəndir.

İlk təhsilinə Şəki şəhərindəki 6 saylı orta məktəbdən başlayır. Lakin atasının işi ilə əlaqədar olaraq ailəsi Bakıya köçür və o təhsilini Bakıda davam etdirir.

Şəfiqə xanımın sənətə gəlməsində böyük bacısı Zümrüd Axundovanın xüsusi rolu olub. Zümrüd xanım universitet müəllimi, həyat yoldaşı isə akademiyanın prezidenti idi. Onların ailəsində tez-tez görkəmli şairlər, ziyalılar həyat yoldaşları ilə birgə qonaq yığışırdılar. Hər dəfə qonaqlar Şəfiqə xanımın musiqi ifa etməsi üçün anası Zümrüd xanımdan xahiş edirdilər. Beləcə Zümrüd xanımın evindəki bu maraqlı görüşlər Şəfiqə xanımın sənət taleyini həll etdi. Günlərin birində yenə də məclis qurulmuşdu. Şəfiqə xanım yenə də royal arxasına keçib bəstələdiyi əsərlərdən birini ifa etdi. Onun ifasını bəyənən xanımlar bacısına Şəfiqəni Üzeyir bəyin yanına aparmağı məsləhət gördülər. Beləcə, Zümrüd xanım Şəfiqəni Üzeyir bəyin yanına apardı. Üzeyir bəy Şəfiqənin musiqi qabiliyyətini yoxladı, sonra bəstələdiyi musiqiləri dinlədi və çox razı qalıb dedi ki, bu qızda yaradıcılıq qabiliyyəti var, mütləq musiqi ilə ciddi məşğul olmalıdır. O gündən Şəfiqə xanım bütün varlığını sənətə bağladı.

Ü.Hacıbəyli ilk musiqi savadı almaq üçün kiçik yaşlı Şəfiqəni bir il müddətində əvvəlcə tanınmış bəstəkarımız Hacı Xanməmmədovun sonra isə Ağabacı Rzayevanın sinfində tar ixtisası üzrə təhsil almağa göndərmişdi. Bu, xalq musiqisini daha yaxşı mənimsəməkdə vacib amil idi. Üzeyir bəyin fikrincə, hər bir bəstəkar milli alətlərdən birində ifa etməyi mütləq bacarmalı idi ki, xalq musiqisini daha dərindən mənimsəsin və yazdığı əsərlər xalqın ruhunda olsun.

Şəfiqə xanım musiqi texnikumunu bitirdikdən sonra yaradıcılığının yeni inkişafı Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsi üzrə hazırlıq kursunda başlayır, bir ildən sonra isə həmin fakültədə Üzeyir bəy Hacıbəyovun təşəbbüsü ilə Leninqrad Konservatoriyasından Bakıya gələn professor Boris İsakoviç Zeydmanın sinfinə imtahan verərək qəbul olur. İmtahan zamanı Qara Qarayev çox ciddi tərzdə deyir: "Bu qız əsl bəstəkar olacaq". Boris Zeydmandan bəstəkarlığın sirlərini, Üzeyir Hacıbəylidən isə Azərbaycan xalq musiqisinin əsaslarını, muğamların nota yazılmasını öyrənirdi. Onun bir bəstəkar kimi yetişməsində və püxtələşməsində hər iki şəxsiyyətin əvəzsiz rolu olmuşdur.

Üzeyir bəy yetirməsinin gələcəyinə böyük ümidlə baxır və ona daim kömək edir, dəstək verir, uğurları ilə maraqlanırdı. Böyük ustadın hər tərifli kəlməsi Şəfiqənin ürəyini dağa döndərirdi. Dahi bəstəkar gələcəyinə böyük ümid bəslədəyi tələbəsinə müəllifi olduğu "Cəngi" fortepiano pyesinin not dəftərini bağışlayıb.

Konservatoriyada oxuduğu illər Şəfiqə Axudova bir çox instrumental əsərlər, mahnı və romanslar yazır: "Nəğmədir həyat", "Vətən sevgisi", "Doğma diyarım", "Həyat, sən nə şirinsən" və s. simli kvartet üçün pyeslərin, solo kamança üçün "Ləpələrin pıçıltısı" əsəri, dramatik teatr üçün "Aydın", "Əlvida Hindistan!", "Nə üçün yaşayırsan?" və s. tamaşaların, "Tələxəyin nağılı", "Dovşanın ad günü" və s. kimi uşaq tamaşalarının musiqisinin, uşaqlar üçün bir sıra mahnıların "Əziz müəllim", "Doğma məktəb", "Zümrüd", "Pişik", "Kukla", "Bacılar" və s. Nizami Gəncəvinin sözlərinə "Nə gözəl" və "Cahanda", Məhəmməd Füzulinin sözlərinə "Fəqan etmək idim", Vaqifin, Puşkinin, Natəvanın sözlərinə yazdığı romansların müəllifidir. Onun Azərbaycan şairlərinin şerlərinə bəstələdiyi gözəl lirik mahnıları və romansları xalq arasında çox məşhurdur. Şəfiqə xanım məşhur "Lay-lay" mahnısını isə oğluna bəstələmişdi.

Şəfiqə xanım 600-ə qədər mahnının müəllifidir. Onun mahnıları tanınmış müğənnilərin Şövkət Ələkbərovanın, Gülağa Məmmədovun, Rübabə Muradovanın, Zeynəb Xanlarovanın repertuarını hər zaman bəzəyib. Bu gün də gənc ifaçılar Şəfiqə xanımın şərqilərini böyük sevgi ilə ifa edirlər.

1943-cü ildə Şəfiqə Axundova ilk dəfə Əyyub Abbasovun "Adil və Sərvinaz" tamaşasına musiqi bəstələmişdi. Bəstəkarın tamaşalara yazdığı mahnılar bəyənilir, sevilir və sonradan sərbəst şəkildə ifa edilərək populyar mahnılara çevrilirdilər. Məsələn, onun dillər əzbəri olan "Nədən oldu" mahnısı "Vicdan" pyesindən, "Könül təranələri" isə "Gəlin qayası" radiopyesindəndir.

Şəfiqə xanımın ilk irihəcmli əsəri 1948-ci ildə simfonik orkestr üçün yazdığı "Pambıq toplanışı" musiqi lövhələridir. Bu əsər ilk dəfə Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında, məşhur dirijorumuz Niyazinin təfsirində səslənmişdi.

Şəfiqə xanım yaradıcılığa gəldiyi ilk dövrlər Böyük Vətən müharibəsi (1941-1945) illərinə təsadüf etdiyi üçün onun yaradıcılığında hərbi vətənpərvərlik mövzusu, düşmənə qarşı vuruşlarda xalqın qəhrəmanlığı, o cümlədən, vətən nəğmələri geniş yer tutur. O həm də diqqətli pedaqoq, gənclərin qayğıkeş müəllimi olmuşdur.

Şəfiqə Axundova 1956-cı ildə ali təhsilini tamamlayıb Azərbaycan İncəsənət İnstitutunda (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) pedaqoji fəaliyyətə başlayır. O, 1989-cu ilədək burada gənc musiqiçilərə sənətinin incəliklərini öyrədir.

Şəfiqə Axundovanın 1974-cü ildə yaratdığı operası, həqiqətən, bəstəkarın yaradıcılıq tərcümeyi-halında mühüm hadisədir. O, xalq yazıçısı Süleyman Rəhimovun eyniadlı povesti əsasında, İsgəndər Coşqunun librettosu üzrə yazdığı "Gəlin qayası" operası ilə uca bir yaradıcılıq zirvəsini fəth etmişdi. Bu operanın yaranmasının da öz tarixi var. Bəstəkar əvvəlcə "Gəlin qayası" radiopyesinə musiqi yazmışdı. Buradakı "Könül təranələri" mahnısı o zaman geniş yayılmışdı. Sözü gedən povestin müəllifi, görkəmli yazıçı Süleyman Rəhimov Şəfiqə xanıma opera yazmağı təklif edir. Bu iş uğurla yerinə yetirilir. "Gəlin qayası"nda klassik musiqi və muğam janrları bir-birinə qovuşur. Operanın qəhrəmanları ariyalarla yanaşı, muğam parçaları da ifa edirlər. Şərqin qadın bəstəkarı tərəfindən yazılan ilk operanın kosnertmeysteri onun öz oğlu Taleh Hacıyev olmuşdur. Bunu da qeyd etmək istəyirəm ki, bu il Şəfiqə xanımın 100 illiyi, eləcə də "Gəlin qayası" operasının 50 illiyi qeyd olunur.



Bəstəkarın digər iri həcmli səhnə əsəri şair Novruz Gəncəlinin librettosu əsasında yaratdığı "Ev bizim, sirr bizim" operettası müasir həyatın, gəncliyin mənzərəsini canlandırır, tamaşanın gənc qəhrəmanlarının seçdiyi halal yolun qəhrəmanlıq pafosunu tərənnüm edir.

Görkəmli bəstəkar Şəfiqə Axundova 1998-ci ildə ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycan Respublikasının xalq artisti adına layiq görülmüşdür. O həm də əməkdar incəsənət xadimi idi.

"Ulu öndər bizə elə həssas münasibət göstərib ki, onu unuda bilmərik. Hər dəfə Prezident təqaüdünü alanda fikirləşirəm, Heydər Əliyev sağlığında qəlblərdə özünə əbədi heykəl ucaltdı. Heydər Əliyev kimi qətiyyətli, həssas, qayğıkeş, duyumlu insan olmayıb. O, başqa aləm idi" - deyə Şəfiqə xanım Heydər Əliyevin yaradıcı insanlara verdiyi dəyərdən ehtiramla söz açardı.

2004-cü ildə anadan olmasının 80 illiyi ilə əlaqədar Prezident İlham Əliyev onu "Şöhrət" ordeni ilə təltif etmişdir. Şəfiqə xanım dövlət başçısının bu diqqətindən və onun yaradıcılığına yüksək qiymət verilməsindən çox məmnun idi və qürur duyurdu.

Bəstəkar öz doğum gününə həsr etdiyi "Ömürdən bir gün də keçdi" musiqisini bəstələmişdi. "Məni xoşbəxt edən məqam yaradıcılığımdır. Hərdən yaratdıqlarımı qarşıma töküb uzun-uzadı onları seyr edirəm. Düşünürəm ki, bunları xalqım üçün qoyub gedəcəm. İnsanlar məni bunlarla xatırlayacaqlar".

Ən böyük arzusuna çatan, sənət idealına qovuşan Şəfiqə xanım həmişə özünü xoşbəxt sənətkar hesab edirdi. Çünki taleyi daim onu xeyirxah insanlarla qarşılaşdıraraq sənət dünyasına gedən yolunu aydınlatmışdı. Bütün bunlar ona imkan verirdi ki, qəlbindən süzülən təranələri kağıza köçürsün. Buna görə də bəstəkarın insan duyğularına toxunan mahnıları dinləyicilərin qəlbində ona əbədilik qazandırıb.

Şəfiqə xanımın ürəyi ömrünün ixtiyar çağında da xalqının sevinci və kədəri ilə birgə döyünür, onu daha maraqlı əsərlər yaratmağa ruhlandırırdı. Lakin, oğlunun dəhşətli ölümü ilə heç cürə barışa bilməyən Şəfiqə xanım yaradıcılıqla məşğul ola bilmədi. Hər dəfə bir bəhanə gətirdi. Unudulmaz sənətkar yaratdığı musiqi əsərləri ilə xalqının qəlbində özünə ölməz heykəl ucaldıb.

Şöhrəti sərhədlər aşan böyük mahnıların bəstəkarı, Şərqin nəğməli qızı 2013-cü il iyulun 26-da Bakıda vəfat edib. "Həyat sən nə şirinsən, kim səndən doydu getdi" mahnısının sədaları altında Şəfiqə xanım son mənzilə yola salındı və II Fəxri Xiyabanda dəfn olundu.

***Sevinc Musayeva***
***Musiqi təlimi kafedrasının müdiri***

## Dəyərli alim Faiq Mirişli dünyasını dəyişib



Azərbaycan elminə, təhsilinə ağır itki üz verib. Uzun müddət Naxçıvan Dövlət Universitetində səmərəli pedaqoji və elmi fəaliyyətlə məşğul olan Faiq Əqil oğlu Mirişli 85 yaşında dünyasını dəyişib. 1939-cu ildə anadan olan alim ömrünün böyük bir qismini Azərbaycanda fizika elminin inkişafına həsr etmiş, sanballı elmi tədqiqatları ilə ölkə elminə töhfələr vermişdir. Bərk cisimlər fizikasında seqnetoelektriklər sahəsindəki araşdırmalarının nəticələri dünya səviyyəsində qəbul olunmuşdur. Həmçinin spontanpolyarizələşmiş kristalların əmələgəlmə kriteriyasını işləmiş, ilk dəfə 20-dən artıq təbəqəli quruluşa malik seqnetomaqnit kristallarının quruluşunu öyrənərək sistemli tədqiq etmişdir.

Faiq Əqil oğlu Mirişli Naxçıvan Dövlət Universitetində elmi, pedaqoji fəaliyyətlə yanaşı, idarəçilik sahəsində də səmərəli fəaliyyət göstərmiş, ali təhsil müəssisəsinin inkişafında nümunəvi xidmətləri ilə yaddaşlarda qalmışdır. Alim 1992-1997-ci illərdə Naxçıvan Dövlət Universitetində qiyabi təhsil alan tələbələrlə iş üzrə prorektor, 1997-2007-ci illərdə "Fizika və radioelektronika" kafedrasının müdiri kimi müxtəlif vəzifələrdə səmərəli fəaliyyət göstərmişdir. Faiq Mirişli universitetdə kadr hazırlığı sahəsində də fərqlənmiş, elmi dərəcəli kadrların yetişdirilməsi sahəsindəki qayğıkeş münasibətinin nəticəsində universitetin professor-müəllim heyətinin olduğu kimi tələbələrin də sevgi və rəğbətini qazanmışdır.

Faiq Mirişli fizika-riyaziyyat üzrə fəlsəfə doktoru elmi dərəcəsi və dosent adı almış, Azərbaycan Respublikası Prezidentinin Təqaüdünə layiq görülmüşdür.

Naxçıvan Dövlət Universitetinin çoxminli kollektivi Azərbaycanda fizika elminin inkişafına özünəməxsus töhfə verən, elmi və pedaqoji fəaliyyəti ilə nümunə timsalına çevrilən fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Faiq Əqil oğlu Mirişlinin vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

## Universitetin müəllimi Mahir Xəlilov dünyasını dəyişib



Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsinin Təsviri incəsənət kafedrasının baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Mahir Xəlilov dünyasını dəyişib.

Mahir Xəlilov 1960-cı ildə Qərbi Azərbaycanın Göyçə mahalının, Basarkeçər rayonunun Kərkibaş kəndində anadan olmuşdur. 1982-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun "Bədii qrafika" fakültəsinə daxil olmuş, 1987-ci ildə həmin fakültəni bitirmiş, həmin il Təhsil Nazirliyinin təyinatı ilə Y.H.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutuna müəllim göndərilmişdir. 2006-cı ildə təsviri sənətin tədrisi ilə bağlı dissertasiya müdafiə etmiş, pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışdır. Mahir Xəlilov 2010-cu ildən Azərbaycan Rəssamlar İttifaqının üzvü olmuşdur.

Allahdan dəyərli incəsənət xadiminə rəhmət diləyir, ailəsinə və yaxınlarına başsağlığı veririk.

Baş redaktor:
ŞƏHLA ŞİRƏLİYEVA
shshahla36@gmail.com

Ünvan: AZ 7012,
Naxçıvan şəhəri,
Universitet şəhərciyi
Telefonlar:
544-08-61 (13-60)
yenifikir.ndu@gmail.com

Qeydiyyat №330
Sifariş №
Tiraj 300

DİZAYNER:
Muxtar RZAZADƏ
"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.